# 31 Mart Azərbaycanlıların Soyqırımı Günüdür

Xalqın qəzeti!

# Xalq qəzeti

№ 66 (30470) 31 mart 2024-cü il, bazar

Gündəlik ictimai-siyasi nəşr

1919-cu ildən çıxır

Təsisçi: Azərbaycan Respublikası Prezidentinin İşlər İdarəsi və qəzetin redaksiya heyəti

xalqqazeti.az

## Soyqırımı yaddaşımız, dövlətsizliyin cəzası və bütöv Azərbaycan



**31 Mart Azərbaycanlıların Soyqırımı Günüdür – qanlı-qadalı tariximizin növbəti ildönümünü yaşayırıq. Həmin məşəqqətli tarixdən 106 il ötür. Bu barədə indiyədək çox yazılıb, deyilib və gələcəkdə də yeni faktların üzə çıxacağı şübhəsizdir.**

31 Mart xalqımız və dövlətimiz üçün həm qan yaddaşıdır, həm də ibrətamiz tarixdir. Qan yaddaşımızdır ona görə ki, 1918-ci ilədək və ondan sonra min bir müsibətlərlə üzləşmişik. 31 Mart məruz qaldığımız qanlı olayların, ümumən, soyqırımı səhnələrimizin ümumiləşdirilmiş simvoludur.

1918-ci ilin 31 martı ona görə ibrət örnəyidir ki, həmin faciə, eyni zamanda, dövlətsizliyimizin faciəli yaşantısıdır. 1992-ci ilin 26 fevralına da eyni prizmadan yanaşmaq mümkündür. Çünki Xocalı soyqırımı, böyük ölçüdə, dövlətsizliyimizin, daha doğrusu, müstəqillik yoluna qədəm qoymuş dövlətimizin zəifliyinin nəticəsi idi. Nəzərə alaq ki, gücsüz hər zaman əzilir, güclü həmişə ayaqda qalır.

Azərbaycan xalqı faciə yaşantılarına rəğmən ayaqda qalmağı bacarıb. Dərdlərə, acılara necə dözmüşük, bir Allah bilir. Dözmüşük və təəssüf ki, unutqanlığımız da olub. Daha doğrusu, tarixin müəyyən dönəmində unutqan xalq olmuşuq. Əslində, bunun özü də dövlətsizliyimizin məhsulu kimi meydana çıxıb.

Baxın, dövləti olan millətə çevrildik, tariximizi yada saldıq. Faciə yaşantılarımızı ibrət lövhələri kimi gözümüzün önündən asdıq. Dövlətsizlik şəraitində isə bizə o lövhələri unutduranlar meydan sulayırdılar. Meydan suladılar və özlərini başımıza yeni oyunlar açmağa köklədilər. Təəssüf ki, istəklərinə nail olmağı bacardılar...

Nəticədə, bu soyqırımları həm də üzləşdiyimiz tarixi ədalətsizliklər üçün zəmin oldu. Faciələrimizi unutduqca ədalətsizliklərlə üzləşmə



səhnələrimizin sayı çoxaldı. Sanki, sayıqlığımızı itirdik. Torpaqlarımızın peşkəş edilməsinə göz yumduq, səsimizi çıxara bilmədik. Qəflət yuxusundan ayılmadıq.

Düşmənlərimiz isə ədalətsizliklərə qarşı müqavimət hissimizin olmamasını, unutqanlığımızı özləri üçün fürsət bildilər, üstümüzə gəldilər, bizi əzib tamamilə yox etmək niyyətinə düşdülər. Bəli, elə buna görə də 31 Martı həmişə yadda saxlamalıyıq. 31 Mart düşüncələrimizdə tarixi ədalətsizliklərə müqavimət çağırışı kimi qalmalıdır.

31 Martın və faciə yaşantılarımızın təbliğində beynəlmiləl motiv də ön planda dayanmalıdır. Bu gün biz dünyaya sülhü, multikulturalizmi, tolerantlığı ixrac edirik. Bu, ümumbəşəri dəyərlərin qorunmasına misilsiz töhfəmizdir. Ümumən, mədəniyyətimiz belə töhfə nümunələri ilə zəngindir. Ancaq bəşəriyyət bəlalardan xali deyil. Dünyanın dörd bir yanında günahsız insanlar qətlə yetirilir, onlara qarşı olmazın işgəncələr törədilir. Bu şəraitdə faciə yaşantılarının təbliği həm də qeyri-insani təmayüllərin qarşısını almaq immunitetdir. Azərbaycan xalqı qan yaddaşı olan 31 Mart reallıqlarını dünyaya həm də bu immunitetin formalaşmasına kömək göstərmək naminə daha böyük əzmlə çatdırmalıdır. Beynəlxalq aləmdə insanlığı təhdid edən hallara münasibətdə ciddi müqavimət yaranmalıdır ki, bəşəriyyət faciələrlə üzləşməsin.

Bəli, sonda bir daha vurğulayaq ki, bəlalarımız, üzləşdiyimiz soyqırımları dövlətsizliyimizdən qaynaqlanıb. Belə düşünə bilərik ki, Azərbaycan xalqı tarixən malik olduğu dövlətçiliyini itirməyin cəzasını çəkib. Axı insanlar gəldi-gedərdir, önəmli olan Vətəndir, Vətən torpağıdır. Onu göz bəbəyi kimi qorumaq müqəddəs vəzifədir.

Onu da bildirək ki, bu gün Azərbaycan azaddır, müstəqildir. Ən əsası isə faciələrin mirası kimi üzərimizdəki torpaq itkisi kimi ağır dərdi tarixin arxivinə gömmüşük. İlk dəfədir ki, 31 Mart Azərbaycanlıların Soyqırımı Gününü ərazi bütövlüyümüzün və suverenliyimizin tam bərpa olunduğu şəraitdə, Qarabağlı Azərbaycanda, xoşbəxt Vətəndə qeyd edirik. Bizə bu xoşbəxtliyi yaşadan Prezident, müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə şanlı Ordumuza, igid övladlarımıza minnətdarlıq hisslərimiz sonsuzdur.

İlk dəfədir ki, 106 il əvvəlin qurbanlarını itirdiklərimizi tam şəkildə özümüzə qaytardığımız bir zamanda anırıq. Heç şübhəsiz ki, bu gün onların ruhları şaddır. Bütün soyqırımı qurbanlarının ruhları dinclik tapıb. Deməli, ağrılarımızın üstünə müəyyən qədər də olsa, su səpməyi bacarmışıq. Və deməli, bu gün həm də qürur və iftixar hissi keçirməyə dəyər.

Allah xalqımıza bir daha ağrı-acılar göstərməsin!

Uca Tanrı dövlətimizi, dövlətçiliyimizi qorusun!

**Əflatun AMAŞOV,**
**baş redaktor**

## Qərbi Zəngəzur – babaların ulu yurdu

Səhifə ⇨ 5

## Ermənilər törətdikləri soyqırımları ilə əbədi lənət qazanıblar



**Çar Rusiyasının erməniləri tarixi Azərbaycan torpaqlarına köçürməsindən, burada onlar üçün "erməni vilayəti" yaratmasından bir müddət sonra azərbaycanlılara düşmən münasibət bəsləməyə başlamış hayların 1905-1907, 1918-20-ci illərdə xalqımıza qarşı törətdikləri soyqırımı siyasəti XX əsrin 80-ci illərinin sonlarından etibarən yenidən geniş vüsət almağa başladı. Bu istiqamətdə ilk addım 1987-ci ilin sonlarında atıldı. Həmin vaxt Ermənistan SSR-in Qafan rayonunda azərbaycanlıların öz tarixi torpaqlarından zorakılıqla deportasiyası prosesinə, necə deyərlər, start verildi.**

Sonrakı iki il ərzində (1988-89-cu illərdə) Ermənistanın müxtəlif şəhər və rayonlarında yaşayan azərbaycanlılar da eyni aqibətlə üzləşdilər. Ermənistanda yaşayan 250 mindən çox azərbaycanlı öz tarixi torpaqlarından zorla qovuldu, onlardan 216 nəfəri vəhşicəsinə qətlə yetirildi, 1154 nəfər isə yaralandı. Soydaşlarımız həyatlarını erməni zorakılığından xilas etmək üçün Azərbaycana sığınmaq məcburiyyətində qaldılar.

*(ardı 4-cü səhifədə)*

## İrəvanın növbəti davakar məntiqi: Roma Statutu sülhə qarşı

### İşğalçı ölkə Beynəlxalq Cinayət Məhkəməsindən nəyi tələb edəcək?

**Ermənistan baş naziri Nikol Paşinyan bir müddət əvvəl Azərbaycanla sülh gündəliyindən söz açarkən bildirmişdi ki, proses hər iki ölkənin beynəlxalq miqyasda bir-birinə qarşı iddialarından uzaq durmasına yol açacaq. O, fikrini sadə məntiqlə izah edərək, ümumən barış mühitinin bir çox problemlərin aradan qaldırılması üçün zəmin formalaşdıracağına əminliyini vurğulamışdı. Necə deyərlər, avazın yaxşı gəlir, oxuduğun Quran olsa…**

Paşinyanın dediklərindən belə nəticəyə gəlirik ki, bir-birinə qarşı beynəlxalq müstəvidə hansısa iddiada olmaq həm də sülhlə razılaşmamaq anlamına gəlir. Məsələyə mövcud prizmadan yanaşsaq, Ermənistan ədliyyə nazirliyinin və ölkənin beynəlxalq hüquq məsələləri üzrə nümayəndəliyinin "News.am"ın yazılı sorğusuna cavabı destruktivliyi ilə seçilir. Sözügedən cavabda nələrin qeyd edildiyinə diqqət yetirəcəyik. Hələlik isə digər bir məqamın üzərində dayanaq.

Məlum olduğu kimi, Ermənistan 1999-cu ildə Roma Statutunu imzalayıb. 2023-cü ilin aprelində konstitusiya məhkəməsi sənədin ölkə qanunvericiliyinə uyğunluğunu təsdiqləyib. Həmin il oktyabrın 3-də isə Roma Statutu Ermənistan parlamenti tərəfindən ratifikasiya edilib. Nəticədə ölkə 2024-cü il fevral ayının 1-dən Beynəlxalq Cinayət Məhkəməsinin tamhüquqlu üzvünə çevrilib.

*(ardı 3-cü səhifədə)*

## "Azərbaycan Ermənistanın dinc qonşusu ola bilər"




*Bu sözləri Serbiyanın sabiq prezidenti Boris Tadiç "Caliber.az" saytının siyasi analitiki Orxan Amaşovla müsahibəsində söyləyib*

**Azərbaycanı, Cənubi Qafqazı, eləcə də dünyanı narahat edən məsələlərdən söhbət açılan müsahibəyə marağı nəzərə alaraq, onun tərcüməsini qısa ixtisarla "XQ" oxucularının diqqətinə çatdırırıq.**

***– Salam! Zəngin təcrübənizə əsaslanaraq bizə izah edə bilərsinizmi ki, dünyamız niyə bu qədər parçalanıb? Parçalanmış bu dünyanı bərpa etməyin yolları varmı? Əlbəttə ki, panasea axtarmayacağıq, amma arqumentasiya qurmağımız üçün baza rolunu nə oynaya bilər?***

– Parçalanmağımızın səbəbi ondan ibarətdir ki, böyük dövlətlər ümumi problemləri müzakirə etmək yerinə bir-birinə qarşı çıxırlar. COVID-19-un bütün dünyaya necə təsir etdiyini xatırlayırsınız? İnsanlara yeni və effektiv peyvənd təklif etmək üçün elmi mərkəzlər arasında əməkdaşlıq yox idi. Çünki ortada rəqabət var idi və zəruri tədbirlər barədə məlumatı paylaşmadılar. Xoşbəxtlikdən peyvəndi tez hazırladılar, amma, bu, əməkdaşlığın deyil, texnoloji tərəqqinin və inkişafın sayəsində baş verdi. Bəli, bəşər tarixinin, hətta çox çətin və təhlükəli dönəmində də əməkdaşlıq etmədik. Bizdə qarşılıqlı inam əvəzinə yeni fikir ayrılıqları mövcuddur və bu amil dünya düzənini formalaşdırır. İndi bunun necə düzəldilməsi üzərində düşünürük.

***– Əlbəttə ki, Ukrayna böhranı hazırda parçalanmış dünyanın əsas tərkib hissəsidir. Qərb liderləri, Amerika prezidenti Ukraynanın ərazi bütövlüyünü axıra qədər dəstəkləməkdə israrlı olduqlarını bildirirlər. "Axıra qədər" nə deməkdir? Bu, o, deməkdirmi ki, Ukrayna ərazi bütövlüyünü, o cümlədən Krımı tam bərpa edəcək? Yoxsa, bu, Moskva və Kiyev arasında hansısa kompromisin əldə ediləcəyi mənasına gəlir? Bu məsələyə münasibətiniz necədir?***

– "Böyük güclər", hətta Qərbin nüfuzlu dövlətləri bu proqnozu həmişə öz maraqlarına uyğun nəzərdən keçirirlər. Onların maraqları təmin olunana qədər müharibə davam edəcək. Rusiyanın Ukraynada fərqli marağı var və bu maraq ABŞ-nin dünyanın müxtəlif nöqtələrindəki maraqlarına çox bənzəyir. Bu müharibənin məhz maraqların ciddi şəkildə fərqləndiyinə görə çox davam edəcəyindən qorxuram. Bizim aramızda fərqli maraqlar və mövcud münaqişələrlə bağlı mübahisə mövcuddur və üfüqdə heç bir sülh sazişi görünmür. Və bu, ona görə çox çətin vəziyyətdir ki, hər hansı bir razılaşmanı təklif edə bilmərik. Qarşıdurmanın dinc yolla həllindən çox uzağıq və bu reallıq dünyadakı cari vəziyyətə görə məsuliyyət daşıyan hər kəsi narahat edir. Bunun nə qədər davam edə biləcəyini soruşursunuz. Bir il də davam edə bilər, on il də. Əsas problem budur.

*(ardı 3-cü səhifədə)*

# Azərbaycan Prezidentinin portreti Yeni Kaledoniya jurnalının üz qabığında




**Martın 30-da Yeni Kaledoniyada "La Voix du Caillou" jurnalında "Sakit Okeana xarici müdaxilə: Fransa vəziyyəti yaxından izləyir" adlı məqalə işıq üzü görüb.**

Azərbaycan Prezidenti İlham Əliyevin portreti olan şəkil jurnalın üz qabığında əsas xəbər kimi dərc olunub.

Məqalədə Azərbaycanın Yeni Kaledoniya xalqına dekolonizasiya işindəki haqlı mübarizəsinə verdiyi dəstək xatırlanır. Qeyd olunur ki, Yeni Kaledoniya xalqı Azərbaycanın Prezidenti və xalqına öz təşəkkürünü ifadə etmək üçün Bayrağımızı və Dövlət başçımızın Dəmir Yumruq portretini qaldırır. Yeni Kaledoniya Parlamentinin Ailə və Qadınların hüquqları komissiyasının sədr müavini Marie Line Sakilianın Fransa əleyhinə aksiyada çıxışı xüsusilə vurğulanır.

Qeyd edək ki, M.L.Sakilia martın 21-də Yeni Kaledoniyanın mərkəzi meydanında keçirilən geniş etiraz aksiyasında Azərbaycan, eləcə də Bakı Təşəbbüs Qrupuna göstərilən dəstəyə görə təşəkkürünü ifadə etmək üçün video müraciət yaymışdı.

**XQ**

# Ədliyyə Nazirliyində müşavirə





**Martın 30-da Ədliyyə Nazirliyində icra xidmətinin yerli qurumlarının rəhbərləri ilə müşavirə keçirilib.**

Ədliyyə naziri Fərid Əhmədov çıxış edərək ədalət mühakiməsinin həyata keçirilməsində və vətəndaşların hüquqlarının təmin olunmasında məhkəmə qərarlarının icrasının əhəmiyyətini qeyd edib, icra işinin yeni tələblərə uyğun təkmilləşdirilməsi ilə bağlı qarşıda duran vəzifələri diqqətə çatdırıb. Bu istiqamətdə görülən tədbirlər, o cümlədən icra məmurlarının sosial təminatının yaxşılaşdırılması ilə bağlı işlər barədə məlumat verib.

Nazirliyin aidiyyəti struktur qurumlarının rəhbər şəxslərinin iştirak etdiyi tədbirdə dövlət başçısının tapşırıqlarına uyğun olaraq icra orqanlarının fəaliyyətində operativliyin və şəffaflığın təmin olunması məqsədilə rəqəmsal innovasiyaların, o cümlədən "Elektron icra" informasiya sisteminin tam tətbiqi ilə bağlı məsələlər müzakirə olunub, onun yeni versiyasının hazırlandığı bildirilib.

İclasda icra məmurlarının məsuliyyət hissinin və peşəkarlığının artırılması, onlara tələbkarlığın və nəzarətin gücləndirilməsi, qanunvericiliyin tələblərinə, əmək və icra intizamına, etik davranış qaydalarına əməl olunması, vətəndaş məmnunluğunun yüksəldilməsi və sair ilə bağlı konkret tapşırıqlar verilib.

**XQ**

# Xocalıda 3 şəhidin də qalıqları aşkarlanıb

**Martın 28-də Xocalı şəhərinin Qaladərəsi adlanan hissəsində yerləşən su anbarının yaxınlığında həyata keçirilən əsaslı bərpa-quruculuq işləri çərçivəsində aparılan qazıntı işləri zamanı basdırılmış vəziyyətdə insana məxsus olması ehtimal edilən sümük fraqmentləri və qalıqların aşkarlanması barədə Xocalı Rayon Prokurorluğuna məlumat daxil olub. Bu barədə Baş Prokurorluğun mətbuat xidmətindən XQ-yə bildirilib.**



Daxil olmuş məlumat əsasında Baş Prokurorluğunun peşəkar əməkdaşları hadisə yerinə ezam olunmaqla, Səhiyyə Nazirliyinin "Məhkəmə-Tibbi Ekspertiza və Patoloji Anatomiya Birliyi" Publik Hüquqi Şəxsi, Azərbaycan Milli Elmlər Akademiyası, Əsir və itkin düşmüş, girov götürülmüş vətəndaşlarla əlaqədar Dövlət Komissiyası əməkdaşlarının iştirakı ilə hadisə yerinə baxış keçirilib, aşkar edilmiş sümük fraqmentləri ekspertiza və laborator müayinələrin aparılması məqsədilə müvafiq qaydada götürülüb, eləcə də digər zəruri prosessual hərəkətlər yerinə yetirilib.

Hazırkı vaxtadək keçirilən prosessual hərəkətlər nəticəsində ərazidə aşkarlanmış insan qalıqlarının ən azı 3 şəxsə məxsus olması müəyyənləşdirilib.

Axtarış işləri tam yekunlaşdıqdan və müvafiq ekspertiza nəticələri müəyyən olunduqdan sonra ictimaiyyətə əlavə məlumatın verilməsi təmin ediləcək.

# Ağdərədə ermənilərin gizlətdiyi 8 ədəd zenit topu aşkarlanıb

**Azərbaycan Ordusu tərəfindən həyata keçirilən lokal xarakterli antiterror tədbirlərindən sonra Qarabağ bölgəsində Ermənistan silahlı qüvvələrinə məxsus döyüş texnikası, silah və sursatın aşkar edilərək ərazidən təxliyə edilməsi üzrə tədbirlər davam edir.**



Müdafiə Nazirliyinin mətbuat xidmətindən XQ-yə verilən məlumata görə, Kəlbəcər rayonunun Vəng və Ağdərə rayonunun Vəngli yaşayış məntəqələri ərazilərinə baxış zamanı düşmənə məxsus tərk edilmiş atəş mövqelərində 8 ədəd KS-19 zenit topu aşkarlanıb.

Döyüş texnikası təhlükəsizlik qaydalarına riayət olunmaqla toplama məntəqəsinə daşınıb.

**XQ**

# Bölgələrdə anım mərasimləri

## Naxçıvan

***Ermənilərin türk soyuna nifrət və düşmənçiliyi 1905-1907-ci illərlə məhdudlaşmamış, 1918-ci ildə də davam etmişdir. Həmin ilin mart soyqırımı Bakı ilə bərabər, Azərbaycanın bütün bölgələrində – Şamaxıda, Qubada, Gəncədə, Lənkəranda, Qarabağda, o cümlədən Naxçıvanda ağır nəticələri ilə yadda qalmışdır.***




Tarixi faciənin növbəti ildönümündə muxtar respublikanın şəhər və rayonlarında keçirilən anım tədbirlərində soyqırımı qurbanlarının xatirəsi ehtiramla anılmış, qətliamları törədənlər lənətlənmişlər. Bildirilmişdir ki, həmin dövrdə Azərbaycan Xalq Cümhuriyyəti rəhbərliyi müəyyən səbəblərdən və çətinliklərdən Naxçıvana lazımi dəstək verə bilməmiş, nəticədə ermənilər tərəfindən törədilən cinayətlər Naxçıvandan da yan keçməmişdir.

Bu illərdə Azərbaycandan ayrı düşmüş Naxçıvana yiyələnmək üçün daşnaklar yerli əhaliyə qarşı vəhşiliklər törətmişlər. 1918-ci ildə Naxçıvanda Andranik Ozanyan, Dro, Njde, Doluxanov, Yapon və digər cəlladlar 74 min azərbaycanlını ən vəhşi üsullarla öldürmüşlər. Diyarda ilk soyqırımı Yaycı kəndində törədilmiş, 2500 dinc insan qətlə yetirilmişdir.

## Gəncə




***Ulu Nizaminin yurdundakı Gənclər Evində "Tarixi yaddaşımızdan silinməyən soyqırım" adlı rəsm sərgisi keçirilib.***

31 Mart – Azərbaycanlıların Soyqırımı Gününə həsr olunan tədbir rəsm klubunun rəhbəri Xanım Əhmədovanın təşkilatçılığı ilə baş tutmuşdur. Sərgiyə qatılanlar erməni vəhşiliyini əks etdirən, soyqırımına aid olan rəsm əsərləri ilə böyük maraqla tanış olublar. Eyni zamanda tamaşaçılar bu tabloların müəllifləri ilə də yaxından tanış olub, onların yaradıcılığı haqqında müfəssəl məlumat ala biliblər. Sərgi ilə tanışlıqdan gəlinən başlıca qənaət bu olub ki, bəzi ölkələrin, o cümlədən Ermənistanın yürütdüyü terror və soyqırımı siyasətinə qarşı bütün dünya barışmaz mübarizə aparmalıdır.

## Mingəçevir

***Nur şəhərinin Şəhidlər xiyabanındakı Soyqırımı abidə kompleksinin qarşısında keçirilən mərasimdə şəhər rəsmiləri və ictimaiyyət nümayəndələri iştirak ediblər.***



Əvvəlcə 1918-ci ildə erməni separatçılarının törətdiyi soyqırım hadisələri zamanı həlak olan vətən övladlarının, torpaqlarımzın azad olunması və yurdumuzun ərazi bütövlüyünün təmin olunması yolunda həlak olan şəhidlərimizin xatirəsi bir dəqiqəlik sükutla yad olunub, dualar oxunub.

Şəhər İcra Hakimiyyətinin başçısı İlham İsmayılov məruzə ilə çıxış edib. Qeyd olunub ki, son iki əsrdə Qafqazda Azərbaycanlılara qarşı məqsədyönlü şəkildə həyata keçirilmiş etnik təmizləmə və soyqırımı siyasəti nəticəsində xalqımız ağır məhrumiyyətlərə və məşəqqətlərə məruz qalmışdır.

İcra başçısı sonra Prezident, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyevin bacarıqlı siyasəti, qətiyyəti və səriştəsi sayəsində formalaşan, bazası genişlənən Milli Ordumuzun fədakarlıqlarından danışaraq, 44 günlük Vətən müharibəsinin böyük Zəfərlə başa çatdırıldığını, 2023-cü il sentyabrın 19-20-də isə 23 saatlıq lokal tipli antiterror əməliyyatları nəticəsində Azərbaycanın ərazi bütövlüyünün tam təmin olunduğunu diqqətə çatdırdı. Qeyd etdi ki, 19-20 sentyabr 2023-cü il antiterror əməliyyatı zamanı isə Xocalı, Xankəndi, Xocavənd, Əsgəran, Ağdərə yaşayış məskənləri seperatçılardan təmizləndi.

Sonra MDU-nun müəllimləri Mirzə Cavadov və Mayıl İsmayılov, Vətən müharibəsi veteranı, ehtiyatda olan mayor, 20 nömrəli orta məktəbin hərbi rəhbəri Ramiz Quliyev çıxış edərək erməni separatçılarının törətdikləri cinayət hadisələrindən danışaraq soyqırımı törədənlərə qarşı barışmaz mübarizə aparmaq zərurətini qeyd ediblər

Çıxışlardan sonra tədbir iştirakçıları Soyqırımı abidə kompleksinin qarşısına gül dəstələri qoymaqla deportasiya qurbanlarının xatirəsinə ehtiramlarını bildirmişlər.

## Lənkəran



***Azərbaycanlıların Soyqırımı Günü Lənkəran şəhərinin mərkəzində soyqırımı qurbanlarının xatirəsinə ucaldılmış abidənin önündə qeyd olunub.***

Səhər saatlarında Lənkəran Şəhər İcra Hakimiyyətinin (ŞİH) başçısı Taleh Qaraşov, icra hakimiyyəti aparatının kollektivi, hüquq-mühafizə orqanlarının, idarə, müəssisələrin rəhbərləri və ictimaiyyətin nümayəndələri abidə önünə tər güllər düzüb, soyqırım zamanı günahsız qətlə yetirilən minlərlə azərbaycanlının xatirəsi dərin hüzn və ehtiramla yad ediblər.

1918-ci ilin mart-aprel hadisələri zamanı erməni daşnaklarının təcavüzünə daha çox məruz qalan bölgələrdən biri kimi Lənkəran şəhərində, rayonun Mamusta, Yuxarı Nüvədi, Vilvan, Veravul, Girdəni, Cil, Osaküçə, Darquba, Gərmətük və Sütəmurdov və digər kəndlərində kütləvi qətliamlar törədilib. Ümumilikdə Lənkəran və ətraf rayonlarda 40-dək yaşayış məntəqəsi yandırılmaqla yerlə-yeksan olunub, 2000-dən çox dinc sakin qətlə yetirilib.

Soyqırımı qurbanlarının xatirəsinə ucaldılan abidə gün ərzində rayon ictimaiyyəti tərəfindən ziyarət edilib. Rayonda yerləşən idarə və təşkilatlarda, təhsil, səhiyyə və mədəniyyət müəssisələrində soyqırımla bağlı anım mərasimləri, sərgilər, dəyirmi masalar təşkil olunub.

## Şirvan

***Şəhərdəki Şəhidlər xiyabanında soyqırımı qurbanlarının xatirə lövhəsi, Birinci Qarabağ müharibəsində itkin düşənlərin xatirəsinə ucaldılan abidə, Birinci və İkinci Qarabağ müharibəsi şəhidlərinin məzarları ziyarət edilib.***




YAP Şirvan şəhər təşkilatında davam edən tədbirdə 21 nömrəli tam orta məktəbin şagirdləri 31 Mart Azərbaycanlıların Soyqırımı Gününə həsr olunmuş ədəbi-bədii kompozisiya ilə çıxış ediblər.

Tədbirdə 31 Mart – Azərbaycanlıların Soyqırımı Gününə həsr edilmiş sənədli film nümayiş olunub. Daha sonra çıxışlar olub. Natiqlər 1918-ci ilin mart–aprel aylarında erməni-bolşevik silahlı dəstələri tərəfindən gerçəkləşdirilmiş kütləvi qırğınları xüsusi qeyd edərək, azərbaycanlı əhaliyə qarşı törədilən ağılasığmaz vəhşiliklər nəticəsində 10 minlərlə günahsız insanın qətlə yetirildiyini, yüzlərlə kəndin yandırıldığını, tarixi abidələrin məhv edildiyini, sakinlərin doğma yurd-yuvalarından didərgin salındığını vurğulayıblar. Eyni zamanda bu barədə həqiqətlərin ölkə və dünya ictimaiyyətinə daha dolğun, tarixi faktlar əsasında çatdırılması istiqamətində aparılan işlər nəzərə çatdırılıb.

## Salyan

***Soyqırımı qurbanları Salyanda da böyük ehtiramla anılıblar.***

Mərasim iştirakçıları "31 Mart soyqırımı qurbanlarının xatirəsinə ucaldılmış abidə-kompleksi"ni, həmvətənlərimizin soyqırımının qarşısının alınmasında erməni işğalçıları ilə vuruşaraq qəhrəmancasına həlak olmuş türk əsgər və zabitlərinin şəhər qəbiristanlığındakı məzarlarını ziyarət edib, önünə gül-çiçək dəstələri düzüblər.

Xatırladılıb ki, 1918-ci ilin martında Bakıda dinc əhaliyə olmazın divan tutan erməni



daşnakları çirkin əməllərini Bakı ətrafı ərazilərdə də davam etdirmiş, dəniz yolu ilə Kür çayının mənsəbinə qədər gəlib çıxan erməni-bolşevik quldur dəstələri o vaxtkı Salyan qəzasında, indiki Salyan və Neftçala rayonlarının ərazisində də insan ağlına sığmayan soyqırımı törətmişlər. Qeyd olunub ki, dünya miqyasında soyqırımı və terrorizmə qarşı birgə mübarizə aparılması daim gündəmdə olmalıdır.

## Balakən



***31 Mart Azərbaycanlıların Soyqırımı Günü ilə əlaqədar Balakən şəhərində keçirilən anım tədbirində Balakən Rayon İcra Hakimiyyətinin başçısı İslam Rzayev, hüquq mühafizə orqanlarının rəhbərləri, idarə, müəssisə, təşkilat rəhbərləri, şəhid ailələri və ictimaiyyət nümayəndələri iştirak ediblər.***

Soyqırımı qurbanlarının əziz xatirəsinə ucaldılmış Xatirə Kompleksinin önünə gül-çiçək dəstələri düzülüb, məktəblilərin rəsm əsərlərindən ibarət sərgiyə baxış olub. Çıxışlarda bildirilib ki, Mart soyqırımı haqqında həqiqətlərin dünyaya çatdırılması üçün Azərbaycan dövləti bütün zəruri addımları atıb. Bu sahədə məqsədyönlü fəaliyyət Ümummilli lider Heydər Əliyev Azərbaycanda siyasi hakimiyyətə qayıdışından sonra başlanıb. Ulu öndərin 1998-ci il martın 26-da imzaladığı Fərmanla 31 mart Azərbaycanlıların Soyqırımı Günü elan edilib. Ermənilərin xalqımıza qarşı törətdiyi soyqırımının araşdırılması və həqiqətlərin dünyaya yayılması istiqamətində bu gün də mühüm addımlar atılmaqdadır.

Qeyd edilib ki, bu gün bütün şəhidlərimizin ruhu şaddır. Çünki artıq Qarabağ və Şərqi Zəngəzur işğaldan azad edilib, ölkəmizin suverenliyi tam bərpa olunub. Xalqımız Müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə şanlı Azərbaycan Ordusunun 44 günlük Vətən müharibəsində düşmən üzərində qazandığı tarixi qələbənin sevincini yaşayır.

## Xaçmaz

***Xaçmazda 31 Mart Azərbaycanlıların Soyqırımı Gününə həsr olunmuş konfrans keçirilib.***



Konfrans iştirakçıları əvvəlcə Soyqırımı Günü mövzusunda məktəblilərin çəkdikləri rəsm əsərlərinə baxış keçiriblər. Rəsmi hissədə Azərbaycan Respublikasının Dövlət Himni səsləndirilib. Soyqırımı qurbanlarının və şəhidlərimizin əziz xatirəsi bir dəqiqəlik sükutla yad edilib.

Çıxışlarda bildirilib ki, Azərbaycan xalqına, türk dünyasına qarşı erməni daşnaklarının soyqırımı siyasəti 200 ildən bəri davam edir. Erməni millətçiləri tarixin müxtəlif mərhələlərində soydaşlarımıza qarşı etnik təmizləmə siyasəti həyata keçirib, deportasiya və soyqırımları törədib, əzəli torpaqlarımızı ələ keçirməyi özlərinin məqsədlərinə çeviriblər. Mart qırğınları zamanı təkcə üç gün ərzində Bakı, Şamaxı, Quba qəzalarında, Qarabağ, Zəngəzur, Muğan, Xaçmaz, Naxçıvan, Lənkəran və Azərbaycanın başqa bölgələrində silsilə qanlı faciələr törədilib.

Natiqlər ermənilərin 1918-ci ilin mart ayında azərbaycanlılara qarşı törətdikləri vəhşiliklərin yaddaşlardan heç zaman silinməyəcəyini bildiriblər. Azərbaycan Prezidenti, Müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə rəşadətli Ordumuzun Vətən müharibəsində qazandığı şanlı zəfərlə minlərlə şəhidimizin, günahsız soyqırımı qurbanlarının intiqamının alındığı qeyd olunub.

***Ə.ƏLİYEV***
***XQ***

# “Azərbaycan Ermənistanın dinc qonşusu ola bilər”

*(əvvəli 1-ci səhifədə)*

***– Qarşılaşdıqları problemlər baxımından oxşarlıqları olan Azərbaycan və Serbiyanın ümumi maraqları hansılardır? Bizim enerji sahəsində olduqca yaxşı əlaqələrimiz var. Serbiya və Azərbaycanı birləşdirən maraqları qısaca necə təsvir edərdiniz?***

– Prezident İlham Əliyevlə ilk dəfə on beş–on altı il bundan əvvəl görüşmüşəm. Bakının hansısa restoranında təşkil etdiyimiz qeyri-rəsmi şam yeməyi idi. O vaxt bir-birimizi tanımırdıq. Bizi narahat edən problemlər, ümumi çağırışlar barədə söhbət etməyə başladıq. İlham Əliyev Qarabağın adını çəkərək, vəziyyətin çətinliyini, problemin mahiyyətini izah etdi. Mən də ona Kosovo problemindənn danışdım. Xoşbəxtlikdən, sizin Qarabağınızda NATO-nun, yaxud KFOR-in qoşunları yox idi. Amma bizim Kosovoda var idi. Biz öz problemimizi həll etdik. Siz də bütün sülh prosesini başa çatdırmağa yaxınsınız və bu, çox yaxşıdır. Buna görə Prezidentinizə hörmət edirəm.

Əslində, biz problemimizi həll etməmişik, çünki NATO qoşunları hələ də Kosovodadır. Yəni, beynəlxalq müqavilələrə uyğun olaraq Serbiya ilə Kosovo əyaləti arasındakı inzibati sərhədi əldə silahla belə keçə bilmərik. Bu, o deməkdir ki, biz problemi Azərbaycan kimi həll edə bilmərik. Dinc danışıqlar aparmalıyıq. Ötən illər ərzində Azərbaycanın da niyyəti bu olub. Amma təəssüf ki, erməni tərəfi bu təklifi qəbul etmədi, biz isə danışıqlara getməyə məcburuq. İntəhası, danışıqlar bizi daha çətin duruma gətirir. Amma Kosovodakı alban liderləri bütün diyarda, hətta Kosovonun yüz faiz serblərin məskunlaşdığı ərazilərində də səlahiyyətləri ələ keçiriblər. Bu, bizim üçün çox təhlükəli vəziyyət yaradır və təkcə diyarda yox, həm də bütün Serbiyada gərginliyi artırır. Düşünürəm ki, gələcək tərəqqimiz naminə biz bu məsələlərdə çox diqqətli olmalıyıq.

***– Əlbəttə, Azərbaycanın Qarabağ təcrübəsindən, məlum səbəblərdən, Serbiya istifadə edə bilməz. Qarabağla bağlı onilliklər boyu danışıqlar gedib, amma ATƏT-in Minsk qrupu tamamilə iflasa uğradı. Bu, təkcə azərbaycanlıların deyil, kənardakı insanların da fikridir. Və sonda Azərbaycan öz ərazisində qanuni tədbirlər görməyə məcbur oldu. Gürcüstan, Moldova və Ukrayna kimi postsovet məkanının bəzi ölkələri də oxşar problemlərlə üzləşiblər. Sizcə, oxşar duruma düşən bu ölkələr Azərbaycanın təcrübəsindən nə dərəcədə istifadə edə bilərlər?***

– Bütün bunlar İosif Stalindən qalan mirasdır. Onu nəzərdə tuturam ki, o, sərhədləri olduqca spesifik şəkildə müəyyən edib. Məqsəd hər bir respublikada problem yaratmaq və bununla manipulyasiya etməyə çalışmaq idi. Bu isə Stalindən sonrakı onilliklər ərzindəı səriştəsiz rəhbərliyin nəticəsidir. Yəni, bu məsələdə hər bir ölkənin rəhbərliyinin səriştəliliyini nəzərə almalıyıq. İkincisi, problemlərin həllində düzgün yolun tapılması baxımından hər bir ölkənin rəhbəri kifayət qədər yetkin, savadlı və bacarıqlı olmalıdır ki, bu da çox vacib amildir. Serbiya da bu problemlə üzləşib. Bəli, biz Kosovodan imtina edə bilmərik, eyni zamanda, Azərbaycanın Qarabağda etdiyi kimi, regionun ölkənin suveren ərazisinə inteqrasiyası da mümkün deyil. Sizinlə tamamilə razıyam ki, hər bir hal özünün səciyyəvi xüsusiyyətinə malikdir və bu, nəzərə alınmalıdır. Serbiya danışıqlar aparmalı, amma qanuni maraqlarından da imtina edə bilməz. Biz Kosovonun müstəqilliyini tanımaq fikrində deyilik, fəqət dayanıqlı həll yolunu tapmaq, barışıq istiqamətində işləmək üçün, fikrimcə, səylərimizi davam etdirəcəyik. Barışıq olmadan möhkəm sülh, inkişaf və tərəqqi də olmayacaq. Buna görə mən barışıqda israrlıyam. Azərbaycanın Ermənistanla bağlı probleme, eləcə də Qarabağ məsələsinə yanaşmasını yüksək qiymətləndirirəm. Bu, həqiqətən də bütün dünyaya ümidlər verir.

***– Azərbaycan Qarabağ üzərində suverenliyini tam bərpa etdikdən sonra Avropanın bəzi institutlarının son dərəcə mənfi reaksiyasının əlamətləri görünməyə başladı. Məsələn, bu ilin yanvarında Azərbaycanın AŞPA-dakı nümayəndə heyətinin səlahiyyət müddəti uzadılmadı. Avroparlament səviyyəsində Azərbaycana qarşı bir sıra qətnamələr qəbul edildi. Belə təəssürat yaranır ki, Azərbaycan Qarabağda əldə etdiyi möhtəşəm uğurun, ərazi bütövlüyünü və suverenliyini bərpa etməsinin əvəzini ödəyir. Sizcə, bu, uğura görədir?***

– Bəli, sizinlə razıyam. Yəqin ki, elədir. Eyni zamanda, XX əsrin əvvəllərində ermənilərin başına gələnləri, onlarda qonşularına qarşı hansı dünyagörüşünün formalaşdığını da nəzərə almalıyıq. Erməni diasporu çox böyükdür və müxtəlif ölkələrdə, o cümlədən Avropa İttifaqının üzvü olan bəzi ölkələrdə fəaliyyət göstərir. Bu səbəbdən erməni diasporunun öz səsi var. Siz də bu vəziyyətə uyğunlaşmalısınız. Əsəbiləşmədən, sakit və düzgün reaksiya verməklə. Düşünürəm ki, gələcəkdə bu vəziyyət həllini tapacaq. Yeri gəlmişkən, Prezident İlham Əliyevin və onun köməkçilərinin bu məsələyə yanaşma tərzləri hər cür hörmətə layiqdir.

***– Gəlin Ermənistandan danışaq. Hər şeydən göründüyü kimi, Ermənistanın suverenliyi ciddi “zədələnib”. Azərbaycanda belə bir fikir var və bunu bir sıra erməni ekspertləri də bölüşürlər: İrəvan 90-cı illərin əvvəllərində yanlış geosiyasi seçim edib. Bu seçim Qarabağın işğalını saxlamaq naminə Ermənistanın suverenliyinin Rusiyaya təhvil verilməsi üzərində qurulmuşdu. İkinci Qarabağ müharibəsi onlar üçün həyəcan siqnalı oldu və məlum kompromisi də sarsıtdı. Çünki, ermənilərin gözlədiyi kimi, Rusiya müharibəyə müdaxilə etmədi. İndi onlar, belə demək mümkünsə, rus hökmranlığından qurtulmaq istəyirlər. Ermənistanın öz ölkəsində Rusiyanın mövcudluğunu məhdudlaşdırmaq səylərini necə qiymətləndirirsiniz?***



– Bu səylər Ermənistanın hazırkı hakimiyyətinin strateji planlarına uyğundur. Paşinyan hakimiyyətə diasporun böyük dəstəyi ilə gəlib. Diaspor isə Rusiyanı dəstəkləmir. Bu mənada biz ermənilərin, məsələn, Fransada Azərbaycan abidələrinə hücumlarla nəticələnən qəzəbini başa düşməliyik. Onlar keçmişdə də, indi də sizin başqa ölkələrdəki mədəni irsinizə və abidələrinizə qarşı belə hərəkətlər ediblər. Mən bunun qəti əleyhinəyəm və ümid edirəm ki, digər tərəfdaşlar da məsələyə ciddi yanaşacaqlar. Dünyadakı hər bir xalqın mədəni irsinə normal yanaşma vacibdir. Burada ən önəmlisi bəşəri məsələlərə diqqət yetirməli və ermənilərlə, dünyanın hər bir erməni icması ilə Azərbaycan arasında, bir növ, körpü yaratmağa, durmadan izah etməyə, başa salmağa çalışmalı, təslim olmamalıyıq. Danışıqlar, təmaslar baxımından da təzyiq göstərməli, iki xalq, iki ölkə arasında münbit şərait yaratmalıyıq. Dediyiniz kimi, Ermənistan indi müəyyən çətinliklərlə üz-üzədir. Amma düşünürəm ki, hətta baş verənlərdən sonra da bu yöndə müəyyən rol oynamalıyıq. Azərbaycan Ermənistanın ən yaxşı dostu ola bilər.

***– Bəli, Azərbaycanın Ermənistanı məğlub etməsi, faktiki olaraq, ona geosiyasi vəziyyət və Rusiya ilə münasibətlər barədə düşünmək üçün imkan yaratdı. Sizin fikrinizcə, Azərbaycanla Ermənistan arasında sülh sazişi ikincinin suverenliyini gücləndirə, həm də Rusiyanın mövcudluğunu məhdudlaşdıra bilərmi?***

– Mən də belə düşünürəm, amma İrəvanın buna cürət edəcəyinə əmin deyiləm. Ermənistan heç də həmişə dost sayılmayan dövlətlərlə əhatə olunmuş kiçik bir ölkədir. Bu baxımdan indi onlara dost lazımdır. Hesab etmirəm ki, Moskva İrəvanın əsl dostudur, amma Rusiya ermənilərin bəzi siyasi layihələrinin dostudur və bu, böyük problemdir. Düşünürəm ki, Azərbaycan bu qonşu ölkə ilə ən yaxın münasibətlərdə maraqlıdır.

***– Bu il COP29 sammiti Azərbaycanda keçiriləcək. Bu, genişmiqyaslı tədbir və böyük məsuliyyətdir. Dünyada qazla zəngin ölkə olduğunu əsas gətirərək BMT-nin ən böyük iqlim konfransının Azərbaycanda keçirilməsi ideyasına müəyyən qərəzli münasibət var. Bu barədə nə düşünürsünüz? Sizcə, Azərbaycan kimi ölkələrin COP29-a evsahibliyi etmək imkanı olmalıdır?***

– Azərbaycan geostrateji baxımdan çox böyük və əhəmiyyətli ölkədir. Ərazisinə və ya əhalinin miqyasına görə yox. Amma, eyni zamanda, nəzərə almalıyıq ki, azərbaycanlılar təkcə Azərbaycanda deyil, Türkiyə və İranda da yaşayırlar. İkincisi, Azərbaycan belə mötəbər konfransın keçirilməsi üçün ən doğru məkandır. Çünki siz Cənubi Qafqazda – Xəzər və Qara dəniz arasında yerləşirsiniz. Bu, transmilli enerji dəhlizidir. COP29-da enerji istehlakı və istehsalı məsələlərinin müzakirə edilməsi çox vacibdir. Hesab edirəm ki, Azərbaycan belə bir konfransa evsahibliyi etməklə, “yaşıl enerji” baxımından, xüsusilə Xəzər və Qara dəniz hövzəsində, Balkanlarda çox işlər görə, yeni enerji arxitekturasında son dərəcə mühüm oyunçu ola bilər. Həm Avropada, həm də, demək olar ki, bütün dünyada.

***– Qarşılıqlı əlaqələr gündəliyi kontekstində Serbiyanın Orta dəhliz konsepsiyasına yanaşması necədir?***

– Mən əvvəldən hökumətimi Orta dəhlizə qoşulmağa çağırdım, amma təəssüf ki, təklifimi qəbul etmədilər. İndi buna yaxınlaşırıq və bu, təqdirəlayiqdir. Ona belə gec qoşulmağımızı başa düşə bilmirəm. Ancaq nə olursa–olsun, biz indi layihədəyik. Mən bu dəhlizə xüsusi alternativ görmürəm. Keçmişdə Rusiya idi, amma o, artıq Avropaya lazım olan qazı ixrac eləmir. “Şimal axını” işləmir. “Cənub axını” isə hələ tam həcmdə işə düşməyib. Yeni dəhlizin yaradılması çox vacibdir. Bizim alternativ qaz mənbəyimiz kimi, Azərbaycan var. Bəlkə gələcəkdə Türkmənistan da ola bilər. Bu, Türkmənistan və Azərbaycan arasında əməkdaşlıq məsələsidir. İsraillə Kipr arasında qaz yataqları var. Misiri də unutmayaq. Nəhayət, deyə bilərik ki, Norveç və Şimal dənizi də var. Amma oradan Cənubi Avropaya nəql problemi həll olunmayıb. Ona görə də mən Rusiyanın qaz sənayesində təsirini əvəzləmək üçün bu üç imkandan bəhs etdim. Əgər tam səmimi desəm, rus qazının əleyhinə deyiləm. Bu məsələdə Rusiyanın əsas neft-qaz şirkətləri ilə əməkdaşlığın tərəfdarıyam. Amma, eyni zamanda, ölkəmin iqtisadiyyatı üçün strateji baxımdan çox vacib olan bir qaz mənbəyindən tamamilə asılı olmağımızı da istəmirəm.

***– Azərbaycanın enerji resurslarının ixracı baxımından Avropa üçün çox etibarlı tərəfdaşdır. Ümumiyyətlə, Rusiya ilə münasibətlərdəki çətinlikləri nəzərə alaraq, Azərbaycanın Avropadakı bu rolunun gələcəkdə daha da güclənəcəyini düşünürsünüzmü?***

– Azərbaycan bir çox aspektlərdə etibarlı tərəfdaşdır və biz bunu, həqiqətən, yüksək qiymətləndiririk. Mən rəsmi Bakı ilə siyasi sahədə çalışmışam, sonra da iqtisadi sahədə əməkdaşlıq qurmuşuq. İnfrastruktur layihələrində çox yaxşı əməkdaşlığımız mövcuddur. Azərbaycan şirkəti paytaxt Belqradda avtomobil yollarının inşası ilə məşğuldur. Onun işindən çox razıyam. Ola bilsin ki, bu şirkətin Serbiyada görünməsində mənim də müəyyən rolum olub. Amma indi biz enerji sektorunda əməkdaşlığın yeni mərhələsinə keçirik.

Neçə illər əvvəl SOCAR-ı idarə edənlərə Serbiyaya gəlməyə inandırmağa çalışmışam. Təkcə öz ölkəmdə neft emalı zavodu qurmaq və ya qaz sənayesinə təsir göstərmək baxımından deyil, həm də gübrə şirkətinə sərmayə qoymağa təşviq etmişəm. Bu, Serbiya üçün çox vacib sahədir. Çünki inkişaf etmiş kənd təsərrüfatımız var və buna görə də ölkəmin qaz sənayesində SOCAR kimi etibarlı tərəfdaşın olmasının strateji əhəmiyyət daşıdığını düşünürəm. Təəssüf ki, mən hələlik Azərbaycan tərəfini bura gəlməyə inandıra bilmədim.

Ancaq indiki dövrdə əlaqələrimizin nə qədər genişmiqyaslı, ümumiyyətlə, dünyada əməkdaşlığın nə qədər çoxşaxəli ola biləcəyini təsəvvür etmək üçün bunu qeyd etdim. Məsələn, əgər siz Serbiyada gübrə istehsal edirsinizsə, onu bütün Balkan ölkələrində sata bilərsiniz. Yəni, bu formada özünüz üçün yeni bazarlar fəth edirsiniz. Təbii ki, bu, hər bir fərdi şirkətin biznes ideyasına və biznes planlarına uyğun olmalıdır. Mən buna göz yumacaq qədər sadəlövh deyiləm. Fəqət bu yolla biz Cənub-Şərqi Avropa regionunda əməkdaşlığımızı genişləndirə bilərik.

***– Əlbəttə ki, bunun üçün imkanlar var. Sadəcə, onlardan düzgün istifadə etmək lazımdır. Cənab Tadiç, bizə vaxt ayırdığınıza və çox maraqlı söhbətə görə Sizə dərin minnətdarlığımı bildirirəm.***

– Çox sağ olun!

***Təqdim etdi:***
***İmran BƏDİRXANLI***
***XQ***

# İrəvanın növbəti davakar məntiqi: Roma Statutu sülhə qarşı

*(əvvəli 1-ci səhifədə)*

Əlbəttə, Roma Statutunun başlıca hədəfi Rusiyadır. Çünki BCM Rusiya Prezidenti Vladimir Putinin və digər ölkə rəsmilərinin həbsinə dair order çıxarıb. Bu, o deməkdir ki, Kremlin rəhbəri Ermənistana daxil olacağı təqdirdə, həbslə üzləşəcək. Məsələnin ikinci tərəfi isə budur: Erməni iqtidarının təmsilçiləri, o cümlədən baş nazir N.Paşinyan hələ aylar öncə Roma Statutunun ratifikasiyasının ölkə üçün əhəmiyyətindən söz açarkən bildirmişdi ki, sənəd Azərbaycanı məsuliyyətə cəlb etmək məramının ifadəsidir. Yəni, rəsmi İrəvan onun köməyi ilə ölkəmizlə mübarizədə daha tutarlı beynəlxalq hüquqi rıçaq qazanmaq məqsədini açıqlamışdı.

Əlbəttə, həmin vaxt belə bir ritorika diqqəti əsl hədəfdən, yəni Rusiyanın üzərindən yayındırmağa xidmət edirdi. Ermənistan hakimiyyətinin nümayəndələri Bakı ilə mübarizə məntiqini qabartmaqla, Moskvanın mümkün qəzəbindən və adekvat sərt tədbirlərindən yayınmağı düşünürdülər.

Digər bir tərəfdən, məlumdur ki, V.Putin və BCM-in barəsində həbs qərarı çıxardığı başqa rus rəsmiləri onsuz da Ermənistana ayaq basan deyillər. Deməli, indiki dövrdə Roma Statutundan bilavasitə Azərbaycana qarşı istifadə yolu daha münasibdir. Əlbəttə, buna münasiblik yox, sərsəmlik demək daha doğrudur. Ermənistan ədliyyə nazirliyinin və ölkənin beynəlxalq hüquq məsələləri üzrə nümayəndəliyinin “News.am”ın yazılı sorğusuna cavabı da gələcəkdə baş vurulması nəzərdə tutulan sərsəmliyin anonsundan başqa bir şey deyil.




Beləliklə, cavabda bildirilib ki, rəsmi İrəvan 2022-ci ildə Azərbaycanın Ermənistanın suveren ərazisində başlatdığı hərbi əməliyyatlarla bağlı BCM-ə müraciət edəcək. Bunun üçün ölkənin Roma Statutu ilə müəyyən edilmiş funksiyalarının həyata keçirilməsi üçün daxili hüquqi baza yaradılır. O da bildirilib ki, BCM Roma Statutunun ratifikasiyasından sonra asayişin təminatı istiqamətində sahəvi siyasəti inkişaf etdirən orqan kimi Ermənistan ədliyyə nazirliyinin əlaqələndirici missiyasının reallaşdırılması istiqamətində fəal iş aparır. Mövcud kontekstdə sözügedən dövlət qurumu “Ermənistanın Beynəlxalq Cinayət Məhkəməsi ilə əməkdaşlığı haqqında” qanun layihəsi hazırlayır. Bu məntiqə əsaslanıldıqda isə beynəlxalq hüquqi məsələlər üzrə nümayəndəliyin BCM-in müzakirələri zamanı konkret vəziyyəti təqdim etmək səlahiyyəti yaranır.

Ermənistanın beynəlxalq hüquqi məsələləri üzrə nümayəndəsi Yeqişe Kirakosyan isə öz növbəsində bildirib ki, ölkədə BCM-ə üzvlüklə əlaqədar zəruri daxili qanunvericilik dəyişikliklərinin aparılması prosesi davam edir: “Bu dəyişikliklərin məqsədi həm də Ermənistanın dövlət orqanlarının Beynəlxalq Cinayət Məhkəməsi ilə əməkdaşlığının əlaqələndirilməsi və üzv dövlətin nizamnamə ilə müəyyənləşmiş funksiyalarının həyata keçirilməsi üçün daxili hüquqi bazasının yaradılması baxımından səlahiyyətlərini dəqiqləşdirməkdir”.

***

Əslində, Ermənistanın BCM platformasını da Azərbaycana qarşı istifadə edəcəyi bəlli idi. Çünki indiyədək bütün digər müstəvilərdə bunu var gücü ilə reallaşdırıb. Özü də ən sərsəm iddialarla. İrəvan “Laçın yolunun açılması”ndan tutmuş, işğaldan azad edilmiş Azərbaycan torpaqlarındakı abidələrə yiyələnməyə qədər müxtəlif tələblər irəli sürüb. Təsəvvür edin ki, iddiaların birində Ağdamdakı abidənin erməni mirası kimi təsdiqlənməsinə dair tələb də yer alıb. Yəni, Azərbaycan ərazisində olan abidə üçün mülkiyyət hüququnun Ermənistana məxsusluğunu istəyib. Bəs bütün bunlar nə üçündür? Cavab birmənalıdır – erməni avantürizmi naminə tutacaq yer formalaşdırmaq.

Bəli, rəsmi İrəvanın təmsilçiləri düşünürlər ki, Azərbaycan ərazisindəki hansısa abidəyə mülkiyyət hüququ Ermənistana məxsus olsa, bu amil gələcəkdə həmin əraziyə iddia etmək üçün hüquqi presedent yaradacaq. Onların hesablamalarına görə, elementar məntiq işə düşəcək: Bir halda ki, torpaq üzərində olan tikili Ermənistanındır, deməli torpağın özü də onundur. Göründüyü kimi, ortada son dərəcə böyük həyasızlıq var.

İrəvanın hazırda BCM qarşısında qaldırmaq istədiyi iddiaya gəlincə, bu da onun ənənəvi anti-Azərbaycan fəaliyyətinin tərkib hissəsidir. Məlumdur ki, Ermənistan və onun xaricdəki havadarları Azərbaycanı işğalçı kimi təqdim edirlər. Onlar bildirirlər ki, guya, ölkəmiz 2022-ci ilin sentyabrında Ermənistan ərazilərini qəsb edib. İndi təsəvvür edin, Azərbaycanla Ermənistan arasında sərhədlər dəqiqləşməyib, delimitasiya və demarkasiya işləri aparılmayıb, ancaq rəsmi İrəvan BCM-ə ölkəmizin aqressor qismində tanınması üçün baş vurmaq niyyətini açıqlayır və bu zaman Roma Statutunu işə salmaqdan dəm vurur.

Hər halda, Ermənistanın BCM-ə üzvlüyünün tam hüquqi əsaslarının formalaşması müəyyən vaxt aparan prosesdir. Görünür, erməni iqtidarı vaxtı qısaltmağı düşünür. Vaxtı qısaltmaq isə delimitasiya və demarkasiya işlərinin aparılmayacağı təqdirdə mümkündür. Deməli, erməni iqtidarı bu işləri aparmağa yox, anti-Azərbaycan fəaliyyətinin əhatə dairəsini genişləndirməyə köklənib. Belə düşüncənin isə Bakı və İrəvan arasındakı barışıq prinsiplərinə tamamilə zidd tendensiya olduğu tam aydındır. Deməli, N.Paşinyanın əvvəldə diqqətə çatdırdığımız fikrindəki ilk baxışdan diqqət çəkən mütərəqqilik ruhu sabun köpüyüdür, erməni hökumət rəhbərinin beynəlxalq aləmə özünü və ölkəsini konstruktiv göstərmək cəhdindəki növbəti manipulyasiyadır.

Sonda bir daha bu nəticəyə gəlirik ki, Ermənistan Roma Statutunun qəbulunu və BCM-ə tamhüquqlu üzvlüyünün təsdiqlənməsini Azərbaycanla sülhdən yayınmağın alətinə çevirmək əzmindədir. Tam əminliklə demək mümkündür ki, bu, həm də ölkəni cənginə almış tipik erməni xəstəliyinin növbəti göstəricisidir. Rəsmi İrəvanın həmin xəstəliyin ayrı-ayrı təzahür formalarını BCM platformasına daşıyacağı da şübhəsizdir.

***Ə.RÜSTƏMOV***
***XQ***

# Ermənilər törətdikləri soyqırımları ilə əbədi lənət qazanıblar



(əvvəli 1-ci səhifədə)

Deportasiya prosesinə paralel olaraq, 1988-ci il fevralın 13-də keçmiş Dağlıq Qarabağ Muxtar Vilayətinin mərkəzi Xankəndi şəhərində 30 ildən çox davam edəcək qanlı hadisələrin əsası qoyuldu. Həmin gün şəhərin mərkəzində yerləşən vilayət partiya komitəsinin binası qarşısındakı Lenin adına meydanda Qarabağın Azərbaycandan ayrılaraq Ermənistana birləşdirilməsi tələbi ilə ilk mitinq keçirildi.

Yeri gəlmişkən qeyd edək ki, vilayət partiya komitəsinin binası və həmin meydan Azərbaycana və azərbaycanlılara qarşı mənfur planların hazırlandığı yerlər idi. Məhz həmin meydandan separatçıların tələbləri səsləndirilirdi. Binada oturan və onlarla həmfikir olanlar isə həmin tələblərin həyata keçirilməsi üçün praktiki addımlar atırdılar.

Onu da bildirək ki, hazırda həmin bina Azərbaycan Respublikası Prezidentinin Xankəndi şəhərində, Ağdərə və Xocalı rayonlarında xüsusi nümayəndəliyinin binasıdır. SSRİ-nin dağılmasından sonra separatçıların "intibah meydanı" adlandırdıqları meydan isə hazırda "Zəfər meydanı" adlanır. Martın 18-də Xankəndi şəhərindən Azərbaycan xalqını Novruz bayramı münasibətilə təbrik edən Prezident İlham Əliyev bu barədə də öz fikirlərini bölüşdü. Dövlətimizin başçısı dedi: "Uzun illər ərzində bu meydan və bu bina separatçıların yuvası idi. Ermənistan tərəfindən maliyyələşdirilən və silahlandırılan separatçılar faktiki olaraq Ermənistan ordusunun bir hissəsi idi. Məhz bu meydanda xalqımıza qarşı çirkin planlar hazırlanırdı. Məhz bu binada Xocalı soyqırımının törədilməsi üçün əmrlər verilmişdir. Bu gün isə biz bu meydanda dayanmışıq. Əziz xalqıma bildirmək istəyirəm ki, mən bu meydana "Zəfər meydanı" adı vermişəm, bundan sonra bura "Zəfər meydanı"-dır".

1988-ci il fevralın 22-də Xankəndi–Ağdam şosesi üzərində yerləşən Əsgəran qəsəbəsi yaxınlığında erməni yaraqlılarının DQMV Xalq Deputatları Sovetinin vilayətin Ermənistan SSR-ə birləşdirilməsi qərarına etiraz edən dinc azərbaycanlı nümayişçilərə atəş açmaları nəticəsində iki gənc soydaşımızın şəhid olması münaqişədə ilk qan tökülməsi idi. 1992-ci ilin yanvarından isə münaqişə Ermənistan və Azərbaycan arasında tammiqyaslı müharibəyə çevrildi. Bu müharibə zamanı ermənilər dəfələrlə sülh və bəşəriyyətin təhlükəsizliyi əleyhinə cinayətlər (soyqırımları, terrorçuluq, müharibə cinayətləri və sair) və insanlıq əleyhinə cinayətlər (adamöldürmə, əhalini məhv etmə, deportasiya, ayrı-seçkilik, insan hüquqlarının sistemli və kütləvi şəkildə pozulması) törədiblər.

Mülki əhaliyə qarşı ilk kütləvi qırğın 1992-ci il fevralın 10-12-də Şuşa rayonunun Malıbəyli və Quşçular kəndlərində qeydə alınıb. Həmin qırğın zamanı qeyri-qanuni erməni silahlı birləşmələri təxminən 50-yə yaxın dinc azərbaycanlını qətlə yetiriblər.

Gözlərini qan örtən erməni cəlladları 5 gün sonra Xocavənd rayonunun Qaradağlı kəndi üzərinə hücuma keçiblər. Qeyri-bərabər döyüşlərdə kəndin girov götürülən 118 sakinindən 101-i vəhşicəsinə qətlə yetirilib. Öldürülənlərdən 21-i ahıl, 10-u qadın, 8-i məktəbli olub.

1992-ci il fevralın 25-dən 26-sına keçən gecə Ermənistan azərbaycanlı əhaliyə qarşı Xocalıda soyqırımı törədib. Nəticədə 106-sı qadın, 63-ü uşaq olmaqla, 613 nəfər dinc sakin qətlə yetirilib.

1992-ci il aprelin 8-də Kəlbəcər rayonunun Ağdaban kəndində törədilmiş soyqırımı nəticəsində 130 evdən ibarət kənd tamamilə yandırılıb. 779 nəfər dinc sakinə müxtəlif cür işgəncə verilib, 67 nəfər isə amansızlıqla qətlə yetirilib. Bundan əlavə, 2 nəfər itkin düşüb, 12 nəfər ağır bədən xəsarətləri alıb.

Həmin il avqustun 28-də Goranboy rayonunun Ballıqaya kəndində törədilən qırğın 24 nəferin ölümünə, 5 nəfərin ağır yaralanmasına səbəb olub.

1993-cü il aprel ayının əvvəllərində Kəlbəcər rayonu ermənilər tərəfindən işğal edilərkən 2 minə yaxın əhalisi olan Başlıbel kəndinin 73 sakini evlərini vaxtında tərk edə bilməyib. Aprelin 2-də kənd sakinlərinin bir qrupu mühasirədən çıxmağa çalışsa da, onların cəhdi uğursuz olub. Bu zaman sakinlərdən 9 nəfər yolda qətlə yetirilib, 2 nəfər girov götürülüb. Digər 62 nəfər dağlara çəkilərək kahalara sığınmaqla özlərini qorumağa çalışıblar. Amma onlar cəmi 18 gün gizli yaşaya biliblər. Aprelin 18-də erməni silahlı birləşmələri dinc sakinlərin sığındığı kahaların yerini aşkarladıqdan sonra onların üzərinə hücuma keçiblər. Həmin gecə dinc sakinlərdən 14-ü girov götürülüb, 18-i qətlə yetirilib. Sağ qalan 30 nəfər isə sığınacaq yerlərini kəndin ərazisindəki digər kahalara dəyişərək mühasirə həyatını davam etdirib. Onlar yalnız gecələr hərəkət etməklə gizli dağ yolları vasitəsilə Ermənistan ordusunun mühasirəsindən çıxa biliblər.

Bu, erməni millətçilərinin XX əsrin sonlarında xalqımıza qarşı təkcə Qarabağda törətdikləri qətliamların qısa statistikasıdır. Onlar mənfur əməllərini 44 günlük Vətən müharibəsi zamanı da davam etdiriblər. Terror və soyqırımını dövlət siyasətinə çevirmiş Ermənistanın hərbi-siyasi rəhbərliyi Gəncə və Bərdə şəhərlərini raket atəşinə tutub. Gəncə şəhərinə 5 dəfə endirilən zərbələr nəticəsində 27 nəfər həlak olub, 125 nəfər yaralanıb.

Bərdə şəhərinə və rayonun Qarayusifli kəndinə endirilən raket zərbələri nəticəsində isə 27 nəfər həlak olub, 80 nəfər yaralanıb. Onu da bildirək ki, həm Gəncəyə, həm də Bərdəyə edilən hücumlar zamanı şəhər infrastrukturuna, yaşayış binaları da daxil olmaqla, digər tikililərə, avtomobillərə ziyan dəyib. Ermənistanın cəbhə xəttindən xeyli uzaqda yerləşən şəhərlərə raket hücumları nəticəsində həyatını itirənlər və yaralananlar arasında azyaşlılar da olub.

**Qafqaz Tarixi Mərkəzinin direktoru, tarixçi Rizvan Hüseynov** "XQ"yə açıqlamasında bildirdi ki, Azərbaycan xalqı XX əsrin əvvəlindən, konkret olaraq, 1905-ci ildən erməni millətçilərinin cinayətləri ilə üz-üzə qalıb. Xalqımıza qarşı çox böyük qırğınlar, qətliamlar törədilib. Azərbaycanlılar erməni millətçiliyindən böyük bəlalar görüblər: "Ancaq XX əsrin əvvəllərindəki əsas qırğınlar 1905-07 və 1918-20-ci illərdə baş verib. Sovet dövründə də erməni millətçilərinin təxribatçı hərəkətləri olurdu. Lakin ən qanlı hadisələr 1988-1994-cü illərdə yaşanıb. Birinci



Qarabağ müharibəsi vaxtı törədilən cinayətlər, soyqırımları böyük bir planın tərkib hissəsidir. Belə suallar yaranır: Ermənilər nə üçün azərbaycanlılara qarşı belə qəddarcasına davranıblar? Xalqımıza nə üçün vəhşicəsinə divan tutublar? Çünki dünyada indiyədək saysız-hesabsız müharibələr baş versə, elə XX əsrdə çoxlu qanlı qarşıdurmalar yaşansa da, onların heç də hamısında insanlıq əleyhinə cinayətlər, soyqırımları baş verməyib. Ancaq ermənilər plan əsasında, sistemli şəkildə Azərbaycan xalqına, eləcə də digər türk-müsəlman xalqlarına qarşı yüz ildən çox soyqırımları törədiblər".

R.Hüseynov hesab edir ki, bunun kökünü erməni düşüncəsində olan naqisliklərdə axtarmaq lazımdır: "Yəni, erməni millətçilərinin beyinlərinə yerləşmiş mifik "böyük Ermənistan" xülyasına görə, bu ərazilərdə ancaq haylar yaşamalıdır. Daşnaklar və onların xaricdəki havadarları belə bir konsepsiya işləyib hazırlayıblar. Həmin konsepsiya sonradan erməni xalqının düşüncəsinə yeridilib. Guya, qədimdən "böyük Ermənistan" mövcud olub və bura müasir Ermənistan, Qarabağ da daxil olmaqla, Azərbaycan əraziləri, Gürcüstan və İranın bəzi torpaqları və Türkiyənin 6 vilayəti daxildir. Guya, bu ərazilərdə yaşayan yeganə xalq ermənilər olublar. Haylar xəstə təxəyyülü ilə iddia edirlər ki, biz bura sonradan gəlmişik, onları qırmışıq, dövlətlərini yıxmışıq. Onlar bu mifdən "hüquqi əsas" kimi istifadə edərək, XIX əsrin sonlarında Türkiyədə, XX əsrin əvvəllərində isə Azərbaycanda türk-müsəlman xalqlarına qarşı soyqırımları törədiblər".

Müsahibimiz qeyd etdi ki, əgər haylarda zərrə qədər sağlam düşüncə olsaydı, başa düşərdilər ki, onlar bununla özlərinin deyil, xarici qüvvələrin maraqlarına xidmət ediblər: "Bunlar o xarici qüvvələrdir ki, onlar türk-müsəlman toplumlarını qıraraq, bizim dövlətçiliyimizi əlimizdən almaq, iradəmizi sındırmaq istəyiblər. Erməni millətçilərindən burada bir maşa kimi istifadə olunub. Hər dəfə də erməni terrorçuları törətdikləri cinayətlərə görə ağır cəzalarını alıblar".

Ancaq bütün bu əməllərə baxmayaraq, Ermənistan və onun xaricdəki havadarları öz məkrli məqsədlərinə nail ola bilmədilər. Ermənistan dövlətinin əsl terrorçulara xas əməlləri Azərbaycan xalqının əzmini qıra bilmədi, əksinə onu daha da mətinləşdirdi və "dəmir yumruğa" çevirərək düşmənin, necə deyərlər, başını əzdi. Nəticədə Ermənistan "ağ bayraq" qaldıraraq, təslim oldu. Qələbəyə gedən yolda həyatını itirmiş soydaşlarımızın əziz xatirəsi isə qəlblərdə əbədi yaşayacaqdır.

***Səxavət HƏMİD***
***XQ***

REPLİKA

**Yalanın dərəcəsindən söz düşəndə, adətən, "ağ yalan" ifadəsini işlədirlər. Hamının bildiyi və qəbul etdiyi həqiqəti məqsədyönlü şəkildə, qəsdən təhrif etməyə, onu ictimai rəyə tərs kontekstdə sırımağa çalışana inanmayanlar ona "gözünün içinə kimi qırmızı" yalan danışdığını deyirlər. Amma Ermənistan mediasından izlədiklərimizdən bu nəticə hasil olur ki, "ağ" və "qırmızı" yalanlar anatomik nöqteyi–nəzərdən "hay yalanı"nın yanında toya getməlidirlər.**

"Azərbaycan lap əvvəldən "Dağlıq Qarabağı" ermənisizləşdirmək məqsədini güdürdü. Əsas məqsəd isə insanların əcdadlarının min illər əvvəl (?) burada məskunlaşmasına baxmayaraq, onların bölgəni tərk etmək məcburiyyətində qalmasına nail olmaq idi". Bu sözləri İrəvanda aparılan panel müzakirələr zamanı Ermənistanın keçmiş ombudsmanı Arman Tonoyan

# Tonoyanın "hay yalanı"

deyib. Əgər insan haqları üzrə keçmiş müvəkkil hayların Qarabağa XIX əsrin ortalarından, sonra XX əsrin əvvəllərindən etibarən, daha sonra isə əllinci illərində köçürülən repatriant olduqları barədə məlumatı yoxdursa, onda bizim deyil, özlərinin tarixçi-alimlərinin həmin dövrlərə aid elmi araşdırmalarına göz yetirməsini məsləhət görərdik.



*

Bakının özünün "blokada siyasəti"nə 2022-ci ilin dekabrında, saxta (?) ekofəalların Qarabağın yeganə həyat yolunu bağladıqları vaxt başladığını ərz edən Tonoyana, deyəsən, Kəlbəcərdəki mis–molibden yataqlarımızdan sərvətimizi ərtaf mühitə zərər vurmaqla taladıqlarını xatırlatmağımıza ehtiyac var. Həmin talançılığa, təbiətə divan tutmalarına etirazını bildirən sahənin mütəxəssislərini və təşəbbüskarları "Azərbaycan hakimiyyətinin agentləri" adlandıran Tonoyanın rəngarəng yalanları bununla da bitmir: "Onlar (ekofəallar–red.) ya Heydər Əliyev Fondu, ya da İlham Əliyevin aparatı tərəfindən maliyyələşdirilib və əsasən Türkiyə təmsilçiləri kimi hazırkı hərbçilər idilər. Bunu ekofəalların bəzilərinin Türkiyənin bayrağını qaldırmaları sübut edir".

Hayların təbiətimizə tutduqları amansız divana etiraz edənlərə maliyə dəstəyinin hansı mənbədən edilməsinin eks-ombudsmanı nədən bu qədər əndişələndirdiyi heyrət doğurur. Bununla erməni vəhşiliyinə hansı tərəfdən haqq qazandırmağa çalışmasının izahını verməyən Tonoyan bu dəfə yalanın "qırmızı zirvəsinə" qalxır: "2020-ci il müharibəsindən sonra ermənilər dörd böyük yaşayış məntəqəsində qalmışdı. 2023-cü ilin sentyabrında edilən təcavüzün (?) məqsədi onları bir-birindən təcrid etmək, su təchizatını kəsmək olub. Stepanakertdə (Xankəndidə– red.) insanlar dağlardan axan suyu içməyə məcbur edilib".

Daha bu qədər də həyasızlıq olmaz! Rəsmi İrəvanın 2010-cu il noyabrın 10-da imzaladığı bəyanatda silahlı qüvvələrinin tör-töküntüsünün Qarabağ iqtisadi rayonumuzdan çıxarılması ilə bağlı öhdəliyini üç il ərzində yerinə yetirmədiyindən Azərbaycan 2023-cü il sentyabrın 19-20-də lokal antiterror tədbirinə əl atmağa məcbur oldu. O vaxta qədər separatçı xunta rejiminin əlində girov kimi saxladığı erməni sakinlərin çay-çörəyi, o cümlədən suyu yetərincə olub. Çatışmayanı isə ya Beynəlxlaq Qırmızı Xaç Komitəsinin "volontyorları", ya da rus sülhməramlıları təmin ediblər.

*

Bu isə tərtəmiz "hay yalanı"dır: "Hərbi təcavüz (?) insanlar işdə, yemək axtarışında, uşaqlar məktəbdə olanda, ayrı düşmüş ailələrin bir-birini tapmağa çalışdığı, ətraf aləmdən təcrid olunduğu vaxt başlayıb".

Azərbaycan hərbçiləri rayonların əhalisini bir kənddən digərinə qovduğu zaman Tonoyan xəritələrdə, guya, Azərbaycan qüvvələrinin hərəkətlərini "əyani şəkildə" təqdim edib. "Azərbaycanlılar Stepanakertdən (Xankəndidən– red.) bütün çıxışları, "Artsax" paytaxtına aparan yolları da bağladılar. Bundan xəbərsiz sakinlər evlərinə qayıtmağa cəhd edəndə qəfildən Azərbaycan hərbçiləri ilə üzləşiblər və ən zəruri əşyalarını belə götürmək imkanından məhrum olublar. Azərbaycanlıların bilərəkdən dinc əhaliyə atəş açması ilə bağlı faktlar (?) da var", - deyən Tonoyan bu zaman, guya, üç mülki şəxsin olduğu avtomobilin atəşə tutulmasını "misal" çəkib.

İndi qəribə səslənsə də, qədim dövrlərdə çox düz eləyib yalan danışanın dilini kəsirdilər. Kənardan verilən əmr əsasında tam dinc şəraitdə və könüllü şəkildə Qarabağı tərk edən ermənilərə bizim hərbçilərimiz nəinki zor tətbiq edib, tam əksinə, postlarda gedənləri geri qaytarmaq üçün dilə tutmaları, onlara su və yemək təklif etmələri sənədləşdirilmiş faktlardır. Belə kadrlar telekanallarda, sosial şəbəkədə kifayət qədərdir. Əgər Arman Tonoyanın, doğrudan da, bunlardan xəbəri yoxdursa, ünvanını sosial şəbəkədə yazsın, ona video–materialları göndərək...

***İ.HƏSƏNQALA***
***XQ***

# Tarix qırğınları ittiham edir



**Erməni millətçilərinin xalqımıza qarşı XX əsr boyunca həyata keçirdiyi soyqırımı və deportasiya ilə bağlı Azərbaycan Turizm və Menecment Universitetində də anım mərasimi keçirilib.**

Universitetin rektoru İlham Mədətov XIX əsrin əvvəllərindən başlayaraq Qafqazda kütləvi şəkildə məskunlaşdırılan ermənilərin "böyük Ermənistan" adlı qondarma ideyanın gerçəkləşməsi yolunda azərbaycanlılara qarşı törətdikləri soyqırımı aktlarının zaman-zaman təkrarlandığından söz açıb.

Ali məktəbin "Heydər Əliyev" lektoriyasının rəhbəri, tarix elmləri doktoru, professor Məhərrəm Zülfüqarlı 1918-ci ilin mart ayında silahlı erməni millətçilərinin Bakıda, Şamaxıda, Qubada, Göyçayda, Lənkəranda, Salyanda, Zəngəzurda, Qarabağda, Naxçıvanda və digər bölgələrdə kütləvi qətliamlar törətdiyini, on minlərlə soydaşımızın qəddarlıqla öldürüldüyünü qeyd edib. O, Prezident İlham Əliyevin 30 dekabr 2009-cu il tarixli sərəncamı ilə soyqırımı qurbanlarının xatirəsini əbədiləşdirmək məqsədilə Qubada Memorial Kompleks yaradılmasının əhəmiyyətini vurğulayıb.

İctimai fənlər kafedrasının professoru Minəxanım Əsədli isə 1918-ci ilin iyununda qardaşı Azərbaycanın köməyinə gələn Qafqaz İslam Ordusunun qəhrəmanlığından bəhs edib.

***Zərifə HÜSEYNOVA***
***XQ***

# AMEA – müstəqil dövlətçiliyin xidmətində

III MƏQALƏ

**Vaxt gələcək, insan öz fikirlərini ən uzaq məsafələrə göndərə biləcək.**
**Nikola TESLA**

## Yeni vəzifələr və istiqamətlər

2023-cü ildə həyata keçirilən fəaliyyət istiqamətlərinin təqdimatı və qərar layihəsində 2024-cü il üçün nəzərdə tutulan fəaliyyətin punktlar üzrə ifadəsi bizi çox maraqlı və yeni tarixi mərhələdə Azərbaycan dövlətçiliyi üçün aktual olan bir məqama yönəldir. Onun aktuallığını gerçəkdən anlamaq üçün iki ümumi faktı yada salmaqda fayda vardır.

AMEA-nın dövlət başçısı tərəfindən təsdiq olunmuş yeni nizamnaməsində təşkilatın 21 vəzifəsi müəyyən olunmuşdur. Onlardan 5-i aşağıdakı kimidir:

– Elm sahəsində normativ hüquqi aktların, dövlət proqramlarının, strategiyaların, milli fəaliyyət planlarının, konsepsiyaların hazırlanmasında, bu sahənin prioritet inkişaf istiqamətlərinin və inkişaf strategiyasının müəyyənləşdirilməsində iştirak etmək;

– Azərbaycan dilinin qorunmasında, azərbaycançılıq və milli dövlətçilik ideologiyasının elmi əsaslarının işlənib hazırlanmasında iştirak etmək, bu istiqamətdə ardıcıl və sistemli tədqiqatlar aparmaq;

– Azərbaycan ədəbi-ictimai fikrinin, mədəniyyətinin, tarixi-mədəni irsinin, adət-ənənələrinin, milli-mənəvi dəyərlərinin qorunmasına və inkişaf etdirilməsinə dair elmi tədqiqatlar həyata keçirmək;

– görkəmli elm, mədəniyyət və incəsənət xadimlərinin elmi irsini, şəxsi arxivlərini, əlyazmalarını, tarixi əhəmiyyət kəsb edən digər materialları qoruyub saxlamaq və istifadə üçün təqdim etmək, elmi məktəbləri inkişaf etdirmək;

– apardığı elmi tədqiqat işlərini elmin prioritet inkişaf sahələrinə və istiqamətlərinə uyğunlaşdırmaq.

Bu vəzifələrdən fəlsəfi xarakterli müəyyən nəticələr çıxarmaq olar:

Birincisi, nizamnamə AMEA-nın üzərinə elmi vəzifə kimi dövlətin elm siyasətinə xidmət etməyi qoyur. Bu, o deməkdir ki, AMEA-nın vəzifəsi hazırda dövlət başçısının müəyyən etdiyi kurs üzrə elm siyasətinə ciddi dəstək verməkdən ibarətdir. Təşkilatın ümumi yığıncağında AMEA rəhbərliyinin irəli sürdüyü fikirlərdə bu özəllik ciddi yer tutmuşdur.

İkincisi, AMEA üçün məsələ ümumi halda elm siyasətinə uyğun fəaliyyət göstərməyi deməklə qətiyyən məhdudlaşmır. Bu fəaliyyətin əməli tərəfi konkret məzmunda müəyyən edilmişdir və praktiki tətbiqdədir! Onların sırasında yuxarıda vurğuladığımız 5 vəzifənin hər biri vardır. Burada "dövlət proqramlarının, strategiyaların, milli fəaliyyət planlarının, konsepsiyaların hazırlanmasında, bu sahənin prioritet inkişaf istiqamətlərinin və inkişaf strategiyasının müəyyənləşdirilməsində iştirak etmək", "azərbaycançılıq və milli dövlətçilik ideologiyasının elmi əsaslarının işlənib hazırlanması" və "Azərbaycan ədəbi-ictimai fikrinin, mədəniyyətinin, tarixi-mədəni irsinin, adət-ənənələrinin, milli-mənəvi dəyərlərinin qorunması və inkişaf etdirilməsi" xüsusi vurğulanmışdır.

Üçüncüsü, burada əksini tapmış ümumi tezis – ideyanın qarşılıqlı əlaqədə həyata keçməsi əlavə vəzifə kimi məntiqi olaraq alınır.

Bəs həmin məqamları tədqiqat prosesində və mövzularında hansı ümumi parametrə görə vahid məntiqi əsasda reallaşdırmaq mümkündür? Bunun üçün nizamnamədə yer almış 6 fəaliyyət istiqamətindən 3-nün məzmununa diqqət yetirək. Onlarda deyilir:

–Azərbaycanın iqtisadi, sosial, mədəni və innovativ inkişafına xidmət göstərmək AMEA-nın fəaliyyətinin əsas məqsədidir;

–elm sahəsində dövlət siyasətinin formalaşdırılmasında və həyata keçirilməsində iştirak etmək;

–həyata keçirdiyi elmi tədqiqatların Azərbaycan Respublikasının sosial-iqtisadi inkişafına dair milli prioritetlərə və inkişaf strategiyasına uyğun təşkilini və inkişafını təmin etmək.

Aydın görünür ki, AMEA rəhbərliyi dövlət başçısı tərəfindən qarşıya qoyulmuş əsas vəzifələri fəaliyyət istiqamətlərində dəqiq və konkret ifadə etmişdir. Burada "Azərbaycan Respublikasının sosial-iqtisadi inkişafına dair milli prioritetlərə və inkişaf strategiyasına uyğunluq", "iqtisadi, sosial, mədəni və innovativ inkişafına xidmət" və "elm sahəsində dövlət siyasətinin formalaşdırılmasında və həyata keçirilməsində iştirak etmək" kimi vəzifələr aparıcıdır.

Vurğulanan vəzifələrlə konkret fəaliyyət istiqamətlərinin seçdiyimiz punktları ideya, yanaşma və reallaşma aspektlərində bir-birini tamamlayırlar. Fikrimcə, onların qarşılıqlı əlaqəsində AMEA üçün vacib olan bir tezis də yaranmışdır. O tezis yeni tarixi mərhələdə milli ideyanın konseptual, fəlsəfi, siyasi-nəzəri, hüquqi hazırlanmasında və təkliflər paketi kimi təqdim olunmasında AMEA-nın aparıcı rol oynaması ilə əlaqəlidir. Niyə məhz milli ideya?

## Akademiya strateji orqan kimi

Ölkənin baş elmi təşkilatı kimi AMEA strateji dövlət orqanıdır. Onun geniş və güclü elmi kadrlar sistemi mövcuddur. Buna görə də AMEA müasir mərhələdə və gələcək dövrlərdə dövlətçilik, elm, mədəniyyət, ideologiya, təhsil, sosial-mədəni, iqtisadi tərəqqi, hərbi-müdafiə, kosmik tədqiqatlar, texnologiya, fundamental elmlərin hər bir sahəsi üzrə malik olduğu imkanlarla dövlətin yanında olmalıdır.

AMEA indi məhz bu funksiyanı tam məsuliyyəti ilə yerinə yetirməkdədir. Ümumi desək, dövlət üçün strateji əhəmiyyət daşıyan hər bir məsələnin nəzəri-elmi cəhətdən araşdırılması və onun praktiki reallaşma yollarının müəyyən edilməsi AMEA-nın missiyasına daxildir.

Strateji xarakterli ümumdövlət əhəmiyyətli məsələlər sırasında yeni tarixi mərhələdə milli ideyanın yeri və rolu haqqında Prezident İlham Əliyev kifayət qədər aydın və dəqiq mövqe bildirmişdir. Eyni zamanda, dövlət başçısı, bütövlükdə, cəmiyyəti milli ideyanın hazırlanması prosesində geniş iştiraka səsləmişdir. Bu müraciətdən sonra AMEA əsaslı şəkildə milli ideyanın həm yeni mərhələ üçün təhlilinə, həm də onun müzakirəsinə baş vurmaqdadır. Bunun sadəcə söz olmadığını konkret fəaliyyət göstərir. Onları bir neçə səviyyədə qruplaşdırmaq olar.

## Təhlili müzakirələr səviyyəsi

Bu funksiya AMEA Rəyasət Heyətinin uyğun elmi seminarlarında AMEA prezidentinin koordinasiyası və birbaşa rəhbərliyi ilə həyata keçirilir. O cümlədən, milli ideya ilə əlaqəli müxtəlif xarakterli mövzular həmin seminarlarda müzakirə edilir və konkret yekun tezislər müəyyənləşdirilir. Bu proses nəticəsində milli ideya ilə bağlı fəlsəfi, tarixi, sosial, kulturoloji, iqtisadi, texnoloji və digər aspektlərə aid tezislər formalaşdırılır, onların vahid ideoloji məntiq çərçivəsində sistemləşdirilməsi aparılır. İdeoloji məntiq azərbaycançılıq ideologiyasının ruhuna və məqsədinə uyğun məntiqi yanaşmanı ehtiva edir. Burada azərbaycançılıq çərçivəsində multikultural dəyərlərin cəmiyyətin bütövlüyünü təmin etmək kimi strateji hədəf kontekstində nəzərə alındığı müşahidə edilir.

AMEA-nın ümumi yığıncağının qərarlarında ifadə edilmiş "ölkənin hərbi, texnoloji, ideoloji, enerji, informasiya, nəqliyyat və iqtisadi təhlükəsizliyinin qorunmasında, ərazi toxunulmazlığının təmin edilməsində elmin daha yaxından iştirakını təmin etmək üçün kompleks tədbirlər hazırlanıb həyata keçirilsin" və "Azərbaycançılıq ideologiyasının və multikulturalizm konsepsiyasının elmi-nəzəri əsaslarının tədqiqi və fundamental istiqamətlərinin müəyyənləşdirilməsi, sosial proseslərə tətbiqi ilə bağlı araşdırmalar daha da genişləndirilsin" punktlarının birbaşa həm də millli ideyanın hazırlanması fəlsəfəsinə aid olduğunu anlamaq çətin deyildir.

Milli ideyanın hazırlanması aspektində burada AMEA rəhbərliyinin ciddi nəzərə aldığı və konspetual xarakterə malik bir faktı da vurğulamalıyıq. Biz, milli ideyanın elmi seminarlarda nəzəri təhlili müzakirələrinin konseptual baxımdan sərhədlərini qərarda



yer almış iki müddəanın müəyyən etdiyini nəzərdə tuturuq. Onlardan birincisi təhlilin ümumi fəlsəfi və elmi-siyasi "çətiri" ilə bağlıdır. Qərarda həmin məqam aşağıdakı kimi ifadə edilmişdir: "Dünyada və regionda geosiyasi və iqtisadi arxitektonikanın müəyyənləşməsində Azərbaycanın əsas faktora çevrildiyi müasir dövrdə respublikada fundamental və tətbiqi tədqiqatların prioritetləri "Güclü Azərbaycan Konsepsiyası"nın elmi əsaslarının hazırlanmasına yönəldilsin". Deməli, milli ideya güclü dövlətin milli ideyası olmalıdır.

Təhlili konseptual fəaliyyətin müasir elmi əsaslandırılmasının başlıca tezisi də qərarda belə ifadə edilmişdir: "texnoloji inkişaf, rəqəmsallaşma, kibertəhlükəsizlik, süni intellektin tətbiq edilməsi və s. kimi istiqamətlər üzrə elmi araşdırmaların daha da gücləndirilməsi, bu sahələr üzrə respublikada və xaricdə mütəxəssislərin hazırlanması üçün tədbirlər həyata keçirlsin".

AMEA Rəyasət Heyətinin tədbirlərində təhlili, konseptual, nəticəverici müzakirələr faktiki olaraq II məqalədə vurğuladığımız üç başlıca vəzifə – blokun sintez halında konkret reallaşma mexanizmidir. Rəyasət Heyətinin milli ideya ilə bağlı seminarlarının predmet istiqamətli olması da təmin edilmişdir. O artıq ikinci səviyyə ilə – tədqiqat institutlarının fəaliyyəti ilə bağlıdır.

## Milli ideyanın araşdırılması

Bu, AMEA-da milli ideyanın araşdırılması prosesinin bazasını təşkil edir. Bu prosesdə sosio-humanitar elmlərə aid hər bir institut kollektivi iştirak edir. Təbiət elmləri, riyaziyyat, kibernetika, informasiya, texniki elmlər də bu prosesdən kənarda qalmırlar. Onların hər biri öz layihələri üzrə milli ideyanın araşdırılmasında iştirak edirlər.

Məsələn, informasiya texnologiyaları institutu ciddi bir funksiyanı – elmi fəaliyyətin riyazi-kibernetik-informasion modelləşdirilməsi, o cümlədən, süni intellektin bu prosesdə iştirakı istiqamətində əhəmiyyətli araşdırmalarını davam etdirir. Həmin bağlılıqda yeni alqoritmlərin tətbiqi çox maraqlı hadisədir. Bu istiqamətdə akademik Rasim Əliquliyevin rəhbərlik etdiyi tədqiqat institutunda mütəmadi olaraq elmi seminarların təşkil edilməsi faydalıdır.

Bunlarla yanaşı, milli ideyanın araşdırılmasında Fəlsəfə və Sosiologiya, Filologiya,-Tarix, Folklor kimi institutların üzərinə ayrıca məsuliyyət düşür. Fəlsəfə və Sosiologiya İnstitutunda bu istiqamətdə intensiv araşdırmalar aparılır. Fəlsəfənin müxtəlif aspektləri üzrə milli ideyanın təhlili aparılır və onlar konkret əsərlərdə, müxtəlif elmi tədbirlərdə ifadəsini tapır. Bu zaman Fəlsəfə və Sosiologiya, Tarix, Filologiya və Folklor institutlarının birgə tədbirlər təşkil etməsi faydalı gedişatdır. Həmin istiqamətdə Azərbaycanın görkəmli elm, mədəniyyət və incəsənət xadimlərinin, yazıçı və şairlərinin yaradıcılıqlarının institutlararası mühitdə təhlili ilə bağlı tədbirlərin çəkisinin getdikcə artması lazımlıdır.

Beləliklə, AMEA geniş şəkildə, elmi əsaslı və müxtəlif araşdırma səviyyələrinin qarşılıqlı əlaqəsində yeni tarixi mərhələdə milli ideyanın hazırlanmasında artıq aparıcı rol oynamaqdadır. Bu təbii və məntiqi prosesin daha yüksək səviyyəyə çatacağını gözləmək olar.

*Füzuli QURBANOV,*
*XQ-nin analitiki,*
*fəlsəfə elmləri doktoru*

---

# Qərbi Zəngəzur – babaların ulu yurdu

**Rusiya və Türkiyədə yaşayan ermənilər patriarx Nerses başda olmaqla Qafqaz canişininə müraciət edirlər ki, 1877-ci il sülh müqaviləsinin müzakirəsi zamanı onlara yardımçı olsunlar. San--Stefan sülh müqaviləsinə bir bənd əlavə olunur. Bu bəndə əsasən, Türkiyə ermənilər yaşayan vilayətlərdə lazımi islahatların aparılmasını üzərinə götürür və bu islahatlar keçirilənə qədər rus qoşunları Türkiyənin Asiya vilayətlərinin işğalını davam etdirəcək.**

Lakin Berlin konqresində İngiltərə bu bəndin digər bəndlə əvəzlənməsinə nail oldu. Düzəlişə əsasən bu prosesin nəzarəti Berlin konqresinin iştirakçıları olan altı ölkəyə həvalə olunurdu. İngilis diplomatiyası ermənilərə "böyük Ermənistanı" vəd etmişdi, lakin Türkiyədən Kipr adasını aldıqdan sonra vədini "unudub", erməniləri öz himayəsindən məhrum etdi. Beləliklə, tarixin bütün dönəmlərində hər bir ölkənin dövlət maraqları digər amillərə üstün gəlir.

Qərbi Azərbaycan ərazisinə ermənilərin köçürülməsi XVIII əsrin sonu XIX əsrin əvvəlrinə təsadüf edir. Məhz o dövrdə, ələlxüsus, 1828-ci il Türkmənçay müqaviləsindən sonra, bu, kütləvi xarakter alır. Rus mənbələrinin məlumatına görə, bu dövrdə Cənubi Qafqaza İrandan 40 min, Türkiyədən 83600 erməni köçürülür. Onlar Yelizavetpol (Gəncə) və İrəvan quberniyalarının, eyni zamanda, Tiflis, Borçalı, Axalsıxı, Axalakalaki qəzalarının ermənilərin azlıq təşkil etdikləri ən münbit dövlət torpaqlarına köçürülür. Məskünlaşmaq üçün onlara 200 min desyatin dövlət torpaqları və 2 mln rubl civarında müsəlmanlardan alınan şəxsi torpaq sahələri ayrılır. Bu ermənilər Yelizavetpol quberniyasının dağlıq hissəsinə və Göyçə gölünün sahillərinə yerləşdirilir. Rəsmi olaraq, buraya 124 min erməni köçürülür, lakin qeyri-rəsmi köçürülənlər də var. Beləliklə, köçənlərin sayı 200 mini üstələyir". (Шавров Н.И. Новая угроза русскому делу в Закавказье. Предстоящая рапродажа Мугани инородцам. Изв.АН Аз.ССР. Серия история, философия и права, 1988 г., №3).

1877-1879-cu illər rus-türk müharibəsindən sonra general Ter-Qukasov Türkiyədən Sürməli qəzasına 35 min araba erməni gətirir. 1893-1894-cü illərdən sonra köçürülmə daha geniş miqyas alır ki, bunun əsas səbəbi ermənilərin Türkiyədə törətdikləri ixtişaşlar olur. Qafqaza yeni canişin knyaz Q.S.Qolitsinin təyin olunduğu 1897-ci ildə artıq gəlmə ermənilərin sayı 900 minə çatır. Gəlmələr Rusiya vətəndaşlığını qəbul edib və əvvəl köçürülənlərə qarışırlar.

N.İ.Şavrov yazırdı: "Bu gün Zaqafqaziyada yaşayan 1 milyon 300 min ermənidən 1 milyonu köklü, yerli əhali deyil, bizim tərəfimizdən köçürülənlərdir. Saxta sənədlərdən geniş istifadə edərək ermənilər iri dövlətin torpaq sahələrini ələ keçiriblər".

Qriboyedovun dediyinə görə, ermənilərin böyük əksəriyyəti müsəlman mülkədar torpaqlarında məskunlaşdırılıb. O qeyd edirdi ki, "müsəlmanları inandırmaq lazımdır ki, ermənilər bu torpaqlarda müvəqqəti olaraq yerləşdirilib və bu, çox çəkməyəcək. Beləliklə, müsəlmanları ermənilərin bu torpaqları həmişəlik tutduqları fikrindən daşındırmaq lazımdır". Köçürülmə belə geniş miqyas almışdı ki, dövlət məmuru V.L.Veliçko yazırdı: "Qafqazın erməniləşdirilməsinin qarşısı radikal tədbirlərlə alınmalıdır".

Ermənilərin Qafqaza kütləvi köçürülməsi ilə yanaşı, azərbaycanlıların bu ərazilərdən sıxışdırılıb çıxarılması prosesi gedirdi. V.L.Veliçko yazırdı: "Zaqafqaziyanın müsəlman əyalətlərində yerli əhalinin Türkiyə, İrana köçürülməsi haqqında söhbətlər gəzir və tədricən bu baş verir... Bunda erməni münaqişəsinin də təsiri az deyil. Müsəlman əhali oturuşduğu yerlərdən sistemli şəkildə rus məmurlarının əmri ilə çıxarılır və onların yerini gəlmə ermənilər tuturlar...". Məhz bu üsulla ermənilərin azlıq təşkil etdiyi Rusiya imperiyasının sırf müsəlman əyalətlərində ermənilərin say çoxluğu təmin edilir.

Ruslar Ahalsıxını tutduqdan sonra müsəlmanların böyük əksəriyyəti Türkiyəyə köçür və 5-6 ay ərzində onların yerini 106 min erməni tutur. Veliçko yazır ki, ermənilərin böyük əksəriyyəti burada XIX əsrin birinci yarısında Türkiyə qaçqın qismində peyda olub. Onlar buranın köklü əhalisi deyil.(Величко И.Л. Кавказ. Русское дело и междуплеменные вопросы. Баку, 1990 г.)

Məhz bu vasitələrlə ermənilər bizim torpaqlarda möhkəmlənirdilər və sonra Rusiya mətbuatı vasitəsilə Rusiyanın ictimai şüurunda ermənilərin Cənubi Qafqazda ən qədim, sivil, sülhsevər, mədəni və Rusiyaya sadiq xalq olduğu haqqında fikir formalaşdırırdılar. Eyni zamanda, vaxtaşırı regionun yerli, köklü xalqı olan azərbaycanlıları sıxışdırıb çıxarır, tarixi torpaqlarından qovur, mədəni irsini, orta əsr qəbiristanlıqlarını, memarlıq abidələrini, tarixini mənimsəyir, məhv edir və həyasızcasına "yazıq, köməksiz, zavallı" erməni xalqının müsəlmanlar tərəfindən məhv edildiyini bütün dünyaya car çəkirdilər.

Rus imperiyasında ermənilərə olan xüsusi münasibət onlarda məhz bu dövlətdə erməni muxtariyyətinin yaradılması arzusunu alovlandırırdı. V.L.Veliçko bununla əlaqədar yazırdı: "Türkiyədə ərazi yox idi və bu ərazi süni şəkildə Zaqafqaziyada yaradılır. Erməni siyasətbazları müsəlmanları ərazidən çıxartmaq məqsədilə onlar haqqında mənfi fikir formalaşdırırdılar".

Haylar zəbt etdikləri torpaqlarda erməniləşdirmə siyasəti həyata keçirirdilər. Bütün Cənubi Qafqaz ərazisində azərbaycanlıların mədəni irsi: məscidlər, Orta əsr qəbiristanlıqları, Alban xristian abidələri planlı şəkildə ya məhv edilir, ya da erməniləşdirilirdi.

Bu gün Azərbaycanın tarixi ərazisi olan Qərbi Azərbaycan dediyimiz Zəngəzurda, İrəvanda bir nəfər də olsun azərbaycanlı qalmayıb. Sonuncu 200 min nəfər 1988-ci ildə məlum hadisələrdən sonra vəhşicəsinə dədə-baba yurdlarından qovulub, maddi-mədəniyyət abidələri dağıdılıb, erməniləşdirilib. Ermənilərin ərazini işğaldan sonra toponimlərin erməniləşdirilməsi prosesi ifrat dərəcəyə çatıb. Orta əsr sənədlərində bu yerlərin əzəli türk mənşəli adları qalmaqdadır. Sənədləri tədqiq etdikdə yer adlarının məruz qaldığı dəhşətli fəlakətin miqyasının şahidi oluruq.

Erməni "bərpaçıları" türbənin bünövrəsində arxeoloji qazıntılar aparmış və belə bir qənaətə gəlmişlər ki, bu türbə guya erməni ustaları tərəfindən inşa olunub. Onlar iddia edirlər ki, Qaraqoyunlular dövləti İran dövləti olub və Qaraqoyunlu əmirləri türkmən olmuşlar (müasir türkmənlər nəzərdə tutulur). Ermənilərin maraqlı məntiqindən belə çıxır ki, türkmənlərin idarə etdiyi İran dövlətində erməni abidəsi ucaldılıb.

Xüsusi vurğulamalıyıq ki, Qaraqoyunlu əmirlərini müasir türkmənlərlə eyniləşdirmək elmi səhvdir. Onlar XIII əsrdə Anadoluda yaşamış oğuz türkləri və yarımköçəri türkmən tayfaları idi. Mərkəzi vilayəti Arciş Van gölünün şimalında yerləşirdi. Bundan əlavə memarlıq-konstruktiv quruluşuna görə türbə Naxçıvanda yerləşən Möminə xatun, Yusib bini Kəbir türbələri ilə eynilik təşkil edir və Əcəmi memarlıq məktəbinin davamıdır.

1828-ci ildə Azərbaycanın Rus imperiyası tərəfindən işğalından sonra bu ərazi quberniyalar və qəzalara bölünür. Yaradılmış İrəvan quberniyasına İrəvan, Aleksandropol, Şərur-Dərələyəz, Eçmiədzin, Sürməli, Novobəyazit qəzaları daxil oldu. 1918-ci ildə həmin ərazilərdə yaradılmış Ararat respublikasında ərazi erməni daşnak terror quldur birləşmələri tərəfindən silahlı hücumlara, soyqırımlarına məruz qalmış, azərbaycanlılar dədə-baba torpaqlarından amansızcasına qovulmuşdur. Türkiyədən qacaq düşmüs ermənilər bu ərazilərə yerləşdirilmişdir.

Zəngəzurda yerləşən digər möhtəşəm abidə Səlim keçidində olan karvansaradır. Tarixə Səlim kərvansarası kimi düşüb. Karvansara dəniz səviyyəsindən 2410 metr hündürlükdə yerləşir. Abidənin qapısının üstündə ərəb qrafikası ilə yazı həkk olunub. Həmin yazıda karvansaranın h. 729 – 1328/29 ildə Elxani hökmdarı Əbu Səid dövründə inşa olunduğu haqqında məlumat verilir. Abidənin içində, şərq divarında ermənilər abidəni özününküləşdirmək məqsədi ilə sonradan daş löfhədə bir yazı yerləşdiriblər. Bu yazının mətni qapının üzərindəki yazının mətni ilə üst-üstə düşmür. Erməni yazısını Lazar Universitetinin müəllimi Xr.İv.Kuçuk İonnasov oxuyub. Ermənilərin yerləşdirdiyi yazıda abidənin tarixi h. 781 – 1332-ci il kimi qeyd olunub və Orbelyan nəslindən olan Çesar və bir sıra onun qohumları VII Lipartın nəvəsi tərəfindən tikilmişdir.

Qeyd etməliyik ki, qapının üzərində olan ərəb-fars dilli yazılı daş karvansara inşa olunanda oraya yerləşdirilib. Erməni dilində olan yazılı daş tikilinin içərisinə divara sonradan vurulub. Qapının üzərinə hörülən ərəb-fars dilli yazılı daşın forması, yazının cızma üsulu, paleoqrafik xüsusiyyətləri Zəngilanın Məmmədbəyli kəndində yerləşən Yəhya bin Məhəmməd türbəsinin üzərindəki yazılı daş ilə eynilik təşkil edir (h.704 – 1305 il). Bu yazıda Qarabağ memarlıq məktəbinin banisi Məcd əd-Din Əlinin adı çəkilir.

Beləliklə, Azərbaycan xalqının mədəni irsi saxtakarlıqla erməniləşdirilir. Belə nümunələrdən biri də Zəngəzurun Urud kəndində yerləşən və bu gün tamamilə dağıdılıb məhv edilən orta əsr qəbiristanlığıdır. Bu nekropol 1961-ci ildə Azərbaycan Elmlər Akademiyasının Ermənistan Elmlər Akademiyası ilə birgə Qarabağda və Zəngəzurda aparılan tədqiqatlar zamanı epiqrafçı-alim Məşədixanım Nemət tərəfindən aşkarlanan abidə kompleksidir. Orta əsr qəbiristanlığında Məşədixanım Nemət zəngin tarixi məlumat daşıyıcısı olan çox sayda sənduqə formalı və qoç heykəlli məzar daşlarını tədqiq etmişdir. XVI – XVII əsrlərə aid olan sənduqə formalı, qoç heykəlli məzar daşlarında müsəlman adları, Quran ayələri birdə ən maraqlısı qədim türk tayfalarına məxsus onqonların – tanrıların təsvirinə rast gəlinir. Qoç heykəlli məzar daşının birinin üzərində "min evladi avğvan" yəni "alban nəslindən" sözləri həkk olunub. Məşədixanımın bu tədqiqatı və gəldiyi nəticələr sovet tarixşünaslığında formalaşmış, mövcud olmuş Cənubi Qafqazın tarixi konsepsiyasını alt-üst edir. O zamana qədər gürcü və erməni tarixçiləri yazırdılar ki, İslam gələndə xristian olan albanlar İslamı qəbul etmədilər, gürcü, erməni xaçını qəbul etdilər. Gürcülər və ermənilər Cənubi Qafqazın aborigen, köklü xalqlarıdır və alban mədəni irsinin varisləridir. Guya azərbaycanlılar bu regiona gəlmədirlər.

Rəhmətlik akademik Ziya Bunyadov "Azərbaycan VII – IX əsrlərdə" əsərində yazırdı: "Görəsən, bunların İslamı qəbul edəni, türkləşəni olmadımı?". Urud abidələri bu suala cavab verdi. Məzar daşlarının üzərindəki təsvirlər, qədim türk tayfalarının inancları və alban nəslindən ifadəsi albanların türk olduqlarına işarədir. Alban türk tayfalarının qədim inancları onların təsviri incəsənətinə köçmüş və məzar daşlarında əksini tapmışdır. Bu abidələr azərbaycanlıların Cənubi Qafqaza gəlmə xalq olduğu konsepsiyasını rədd edir və onların da bu regionun köklü xalqı və alban mədəni irsinin varisi olduğunu təsdiqləyən ən tutarlı tarixi sənəddir. Bu elmi kəşfə cavab olaraq ermənilər bu Orta əsr nekropolunu traktorun ağzına verib dağıtdılar.

Bu mənəvi soyqırıma toponimlər, yəni, Azərbaycan-türk mənşəli yer adları da məruz qalmışdır. Toponimlər müəyyən etnosun konkret coğrafi məkanda formalaşma prosesini təsdiqləyən ən tutarlı sənədlərdir. Bütün abidələr dağıdılsa belə yer adları bu ərazinin kimə məxsusluğunu sübuta yetirən ən tutarlı dəlillərdir. Ona görə ermənilər ərazini işğal edən kimi şəhərlərin, kəndlərin, dərələrin, çayların, bulaqların adlarını dəyişir, erməniləşdirirlər. Amma Orta əsr sənədlərində bu yerlərin əzəli türk mənşəli adları qalmaqdadır. Bu sənədlərlə tanış olduqca yer adlarının məruz qaldığı dəhşətli fəlakətin miqyasının şahidi oluruq.

Azərbaycan Prezidentinin yüksək peşəkarlıqla apardığı balanslaşdırılmış xarici siyasətin nəticəsi kimi bu gün Azərbaycan ərazi bütövlüyünü bərpa etmiş, Cənubi Qafqazın lider dövlətinə çevrilmişdir. İnanırıq ki, tarixi ədalət qələbə çalacaq və azərbaycanlılar Qərbi Azərbaycana, əzəli dədə-baba yurdlarına qayıdacaqlar.

*Vəfa QULİYEVA,*
*tarix elmləri doktoru*

# Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı

**№ 177** **Bakı şəhəri, 27 mart 2024-cü il**

***"Azərbaycan Respublikasında ixrac-idxal əməliyyatları üzrə gömrük rüsumlarının dərəcələri haqqında" Azərbaycan Respublikası Nazirlər Kabinetinin 1998-ci il 22 aprel tarixli 91 nömrəli Qərarında dəyişiklik edilməsi barədə***

Azərbaycan Respublikası Konstitusiyasının 119-cu maddəsinin səkkizinci abzasını rəhbər tutaraq, "Gömrük tarifi haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi haqqında" Azərbaycan Respublikasının 2023-cü il 5 dekabr tarixli 1039-VIQD nömrəli Qanununun icrasını təmin etmək məqsədilə Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

"Azərbaycan Respublikasında ixrac-idxal əməliyyatları üzrə gömrük rüsumlarının dərəcələri haqqında" Azərbaycan Respublikası Nazirlər Kabinetinin 1998-ci il 22 aprel tarixli 91 nömrəli Qərarının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 1998, № 4, maddə 299 (Cild I); 2024, № 1, maddə 78) 4.4-cü, 4.6-cı, 4.11-ci, 4.13-cü, 4.21-ci bəndləri və 6-cı hissəsi ləğv edilsin.

***Əli ƏSƏDOV,***
***Azərbaycan Respublikasının***
***Baş naziri***

# Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı

**№ 178** **Bakı şəhəri, 27 mart 2024-cü il**

***"Bakı şəhərətrafı dəmiryol nəqliyyatı ilə sərnişindaşıma fəaliyyəti üzrə subsidiya verilməsi Qaydaları"nın təsdiq edilməsi haqqında***

"Azərbaycan Dəmir Yolları" Qapalı Səhmdar Cəmiyyətinin yaradılması haqqında" Azərbaycan Respublikası Prezidentinin 2009-cu il 20 iyul tarixli 383 nömrəli Sərəncamında dəyişikliklər edilməsi və Səhmdar Cəmiyyətinin fəaliyyətinin təkmilləşdirilməsi ilə bağlı əlavə tədbirlər barədə" Azərbaycan Respublikası Prezidentinin 2015-ci il 18 sentyabr tarixli 622 nömrəli Fərmanının 2.1-1-ci bəndinin icrasını təmin etmək məqsədilə Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

"Bakı şəhərətrafı dəmiryol nəqliyyatı ilə sərnişindaşıma fəaliyyəti üzrə subsidiya verilməsi Qaydaları" təsdiq edilsin (əlavə olunur).

***Əli ƏSƏDOV,***
***Azərbaycan Respublikasının***
***Baş naziri***

*Qeyd: Qərara edilmiş əlavələrin tam mətni ilə www.nk.gov.az və www.xalqqazeti.com saytlarında tanış ola bilərsiniz.*

# Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı

**№ 182** **Bakı şəhəri, 27 mart 2024-cü il**

***"Ödəniş xidmətləri və ödəniş sistemləri haqqında" Azərbaycan Respublikasının 2023-cü il 14 iyul tarixli 987-VIQ nömrəli Qanununun icrası ilə əlaqədar Azərbaycan Respublikasının bəzi qanunlarında dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının 2023-cü il 5 dekabr tarixli 1048-VIQD nömrəli Qanununun icrasını təmin etmək məqsədilə Azərbaycan Respublikası Nazirlər Kabinetinin bəzi qərarlarında dəyişiklik edilməsi haqqında***

Azərbaycan Respublikası Konstitusiyasının 119-cu maddəsinin səkkizinci abzasını rəhbər tutaraq, "Ödəniş xidmətləri və ödəniş sistemləri haqqında" Azərbaycan Respublikasının 2023-cü il 14 iyul tarixli 987-VIQ nömrəli Qanununun icrası ilə əlaqədar Azərbaycan Respublikasının bəzi qanunlarında dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının 2023-cü il 5 dekabr tarixli 1048-VIQD nömrəli Qanununun icrasını təmin etmək məqsədilə Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

**1.** Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2000-ci il 11 sentyabr tarixli 167 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2000, № 9, maddə 693 (Cild I); 2024, № 1, maddələr 110, 111) ilə təsdiq edilmiş "Azərbaycan Respublikasında notariat hərəkətlərinin aparılması qaydaları haqqında Təlimat"da aşağıdakı dəyişikliklər edilsin:

1.1. 12-1-ci hissənin birinci cümləsində "bank" sözü "əməliyyat" sözü ilə əvəz edilsin;

1.2. 33-1-ci hissənin birinci abzasına "bankda" sözündən sonra "və digər ödəniş xidməti təchizatçılarında" sözləri əlavə edilsin.

**2.** "Vergi ödəyicilərinin inventarlaşdırılması və onlara yeni eyniləşdirmə nömrələrinin verilməsi işinin yekunlaşdırılması haqqında" Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2005-ci il 17 may tarixli 91 nömrəli Qərarının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2005, № 5, maddə 456 (Cild I) 2-ci hissəsinin ikinci cümləsinə "bank və" sözlərindən sonra "digər ödəniş," sözləri əlavə edilsin və həmin cümlədə "bank idarələri" sözləri "ödəniş xidməti təchizatçıları" sözləri ilə əvəz edilsin.

**3.** "Azərbaycan Respublikasında pul nişanlarının nominal dəyərinin və qiymətlər miqyasının dəyişdirilməsi (denominasiyası) ilə bağlı tədbirlər barədə" Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2005-ci il 22 iyun tarixli 116 nömrəli Qərarının (Azərbaycan Respub-likasının Qanunvericilik Toplusu, 2005, № 6, maddə 552 (Cild I) 18-ci hissəsinin dördüncü abzasında "icra sənədlərinin" sözləri "icra sənədləri əsasında verilən ödəniş sərəncamlarının" sözləri ilə əvəz edilsin.

**4.** Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2006-cı il 28 yanvar tarixli 27 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2006, № 1, maddə 56 (Cild I) ilə təsdiq edilmiş "Elektron sənədlərin mübadiləsi Qaydası"na aşağıdakı məzmunda 1.4-cü bənd əlavə edilsin:

"1.4. Bu Qaydanın 2.1-ci bəndinin üçüncü abzasında, 3.1-ci bəndinin ikinci abzasında, 4.1-ci, 7.2-ci, 7.3-cü və 8.3-cü bəndlərində elektron imza ilə bağlı qeyd olunan tələblər hüquqi aktlarda və ya elektron sənəd dövriyyəsi subyektləri arasında bağlanmış müqavilələrdə elektron imzadan istifadə nəzərdə tutulduğu halda tətbiq edilir.".

**5** Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2006-cı il 27 mart tarixli 89 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2006, № 3, maddə 308 (Cild I); 2024, № 1, maddə 122) ilə təsdiq edilmiş "Xarici ölkələrin diplomatik və konsulluq nümayəndəliklərinin, beynəlxalq təşkilatların nümayəndəliklərinin rəsmi istifadəsi, həmçinin bu nümayəndəliklərin diplomatik və inzibati-texniki işçilərinin, o cümlədən onlarla yaşayan ailə üzvlərinin şəxsi istifadəsi üçün nəzərdə tutulan mal və xidmətlərə görə əlavə dəyər vergisinin sıfır (0) dərəcə ilə tutulması Qaydaları"nın 4.1-ci bəndinin səkkizinci abzasından "bank" sözü çıxarılsın.

**6** Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2007-ci il 30 dekabr tarixli 219 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2007, № 12, maddə 1354 (Cild I) ilə təsdiq edilmiş "Vergi ödəyicisinə verilmiş elektron qaimə-faktura üzrə alınmış malların (iş və xidmətlərin) dəyəri ödənilərkən ƏDV-nin ödənilməsi, ƏDV-nin depozit hesabında uçotun aparılması, ƏDV-nin hərəkəti, bu hesab üzrə aparılan əməliyyatlardan ƏDV-nin əvəzləşdirilməsi və dövlət büdcəsinə köçürülməsi Qaydaları"nda aşağıdakı dəyişikliklər edilsin:

6.1. 1.3-cü bəndin birinci və ikinci cümlələrinə, 1.4-cü, 1.6-cı bəndlərə, 1.8-ci bəndin ikinci cümləsinə, 2.1-ci bəndin ikinci və üçüncü abzaslarına, 4.10-cu bəndə (hər iki halda) və Qaydaların 4 nömrəli əlavəsinə "bank" sözündən sonra "və digər ödəniş" sözləri əlavə edilsin;

6.2. 2.2-ci bənddə "sənədləri" sözü "sərəncamları" sözü ilə əvəz edilsin;

6.3. 2.4-cü bənddə "bank" sözü "ödəniş xidməti təchizatçısı" sözləri ilə əvəz edilsin.

**7** Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2012-ci il 1 mart tarixli 48 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2012, № 3, maddə 249 (Cild I) ilə təsdiq edilmiş "Azərbaycan Respublikası Dövlət Gömrük Komitəsinin apardığı reyestrə daxil olmaq üçün banklar və bank olmayan kredit təşkilatlarının müraciətlərinə baxılması Qaydası"nın 3 nömrəli əlavəsində "sənədi təqdim edildiyi gündən 3 (üç) iş günü müddətində" sözləri "sərəncamı icraya qəbul etdiyi vaxtdan növbəti iş günündən gec olmayaraq" sözləri ilə əvəz edilsin.

**8** Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2013-cü il 19 iyul tarixli 190 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2013, № 7, maddə 885 (Cild I); 2024, № 1, maddə 122) ilə təsdiq edilmiş 1 nömrəli əlavə - "Vergi partnyorluğu Sazişinin forması"nın 6-ci hissəsində "bank" sözü "ödəniş hesabının" sözləri ilə əvəz edilsin.

**9** Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2017-ci il 4 may tarixli 196 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2017, № 5, maddə 967 (Cild I) ilə təsdiq edilmiş "Vergi ödəyicisinin siyahıya alınmış əmlakının satışı məqsədi ilə elektron hərracın təşkili və keçirilməsi Qaydaları"nda aşağıdakı dəyişikliklər edilsin:

9.1. 2.2-ci bəndin üçüncü cümləsinə "bank" sözündən sonra "və digər ödəniş" sözləri əlavə edilsin və dördüncü cümləsində "bank təşkilatlarından" sözləri "ödəniş xidməti təchizatçılarından" sözləri ilə əvəz edilsin;

9.2. 2.18-ci bənddə "banka" sözü "ödəniş xidməti təchizatçısına" sözləri ilə, "3 bank günü ərzində" sözləri "tapşırığın icraya qəbul edildiyi vaxtdan növbəti iş günündən gec olmayaraq" sözləri ilə əvəz edilsin;

9.3. 2.18.1-ci yarımbənddə hər üç halda "bank" sözündən sonra "və digər ödəniş" sözləri əlavə edilsin.

9.4. 2.18.2-ci yarımbəndin birinci cümləsinə "bank" sözündən sonra "və digər ödəniş" sözləri əlavə edilsin, "banka" sözü "ödəniş xidməti təchizatçısına" sözləri ilə əvəz edilsin, ikinci cümləsində "bank təşkilatına" sözləri "ödəniş xidməti təchizatçısına" sözləri ilə əvəz edilsin;

9.5. 2.23-cü bəndin ikinci cümləsində "bank" sözü "əməliyyat" sözü ilə əvəz edilsin.

**10.** Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2017-ci il 16 iyun tarixli 260 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2017, № 6, maddə 1235 (Cild I) ilə təsdiq edilmiş "Vergi ödəyicisinin siyahıya alınmış əmlakının ticarət şəbəkələrində (o cümlədən satışını elektron şəkildə həyata keçirən ticarət şəbəkələrində) satışının təşkili Qaydaları"nın 2.5-ci bəndində birinci halda "bank" sözü "əməliyyat" sözü ilə əvəz edilsin və həmin bəndə ikinci halda "bank" sözündən sonra "və ya digər ödəniş" sözləri əlavə edilsin.

**11.** Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2018-ci il 10 oktyabr tarixli 434 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2018, № 10, maddə 2149 (Cild I); 2024, № 1, maddə 112) ilə təsdiq edilmiş "Rezidentlər və qeyri-rezidentlər tərəfindən milli valyutanın nağd şəkildə və milli valyutada ifadə olunmuş qiymətli kağızların Azərbaycan Respublikasından çıxarıl-ması və Azərbaycan Respublikasına gətirilməsi zamanı bəyan edilməsi Qaydası"nda aşağıdakı dəyişikliklər edilsin:

11.1. 1.2-ci bənddə "və "qeyri-rezident" sözləri "qeyri-rezident" və "müvəkkil bank" sözləri ilə əvəz edilsin, ", "poçt rabitəsinin milli operatoru" anlayışı isə "Poçt haqqında" Azərbaycan Respublikasının Qanununda" sözləri çıxarılsın;

11.2. 2.4-cü bənddən "və ya poçt rabitəsinin milli operatoru" sözləri çıxarılsın.

**12.** Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2018-ci il 11 oktyabr tarixli 440 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2018, № 10, maddə 2155 (Cild I); 2024, № 1, maddə 84; Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2024-cü il 8 fevral tarixli 77 nömrəli, 23 fevral tarixli 97 nömrəli və 9 mart tarixli 130 nömrəli qərarları) ilə təsdiq edilmiş "Azərbaycan Respublikasının büdcə gəlirlərinin təsnifatı"nda aşağıdakı dəyişikliklər edilsin:

12.1. 1.1.1.2.5.2-ci yarımmadədə "bank, xarici bankın Azərbaycan Respublikasındakı filialı və ya poçt rabitəsinin milli operatoru" sözləri "ödəniş xidməti təchizatçısı və ya xarici ödəniş xidməti təchizatçısının yerli filialı" sözləri ilə əvəz edilsin;

12.2. 1.1.4.3.3.0-cı, 1.1.4.3.3.1-ci, 1.1.4.3.3.2-ci, 1.1.4.3.3.3-cü və 1.1.4.3.3.4-cü yarımmadələrə "bank" sözündən sonra "və digər ödəniş" sözləri əlavə edilsin;

12.3. 1.4.3.4.9.4-cü yarımmaddəyə "bank" sözündən əvvəl ", elektron pul təşkilatlarına" sözləri əlavə edilsin.

**13.** Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2019-cu il 1 avqust tarixli 338 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2019, № 8, maddə 1445 (Cild I); 2024, № 1, maddə 122; Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2024-cü il 5 fevral tarixli 68 nömrəli Qərarı) ilə təsdiq edilmiş "Nəzarət-kassa aparatlarının istismarı Qaydaları"nın 3.1.1-ci yarımbəndinə "bank" sözündən sonra "və ya digər ödəniş" sözləri əlavə edilsin.

**14.** Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2020-ci il 12 mart tarixli 88 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2020, № 3, maddə 349 (Cild I) ilə təsdiq edilmiş "Azərbaycan Respublikası Vergi Məcəlləsinin 106.1.18-ci maddəsinə uyğun olaraq, vergidən azadolunma məqsədləri üçün elm, təhsil, səhiyyə, idman və mədəniyyət sahələrində fəaliyyət göstərən müəssisə, idarə və təşkilatların Meyarları"nda aşağıdakı dəyişikliklər edilsin:

14.1. 7.2-ci bəndin birinci abzasında "sənədində" sözü "sərəncamında" sözü ilə əvəz edilsin və həmin bəndə hər iki halda "bank" sözündən sonra "və digər ödəniş" sözləri əlavə edilsin;

14.2. 7.3-cü bənddə "bank" sözü "ödəniş xidməti təchizat-çılarının" sözləri ilə əvəz edilsin.

**15** Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2020-ci il 30 sentyabr tarixli 365 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2020, № 9, maddə 1237 (Cild I); Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2024-cü il 6 mart tarixli 122 nömrəli Qərarı) ilə təsdiq edilmiş "Vergi ödəyicilərində nağd pul vəsaitinin uçotu və kassa əməliyyatlarının aparılması Qaydası"nda aşağıdakı dəyişikliklər edilsin:

15.1. 2-ci hissənin adına, 2.2-ci bəndə, 2.3-cü bəndin birinci cümləsinə, 2.4-cü bəndə (hər üç halda), 2.6-cı bəndin ikinci cümləsinə, 2.9-cu və 2.10-cu bəndlərə "bank" sözündən sonra "və digər ödəniş" sözləri əlavə edilsin;

15.2. 2.1-ci bəndə "Bank" sözündən sonra "və digər ödəniş" sözləri əlavə edilsin və həmin bənddə "bankın" sözü "ödəniş xidməti təchizatçısının" sözləri ilə əvəz edilsin;

15.3. 3.10-cu bənddə "Bankdan" sözü "Ödəniş xidməti təchizatçısından" sözləri ilə əvəz edilsin;

15.4. 3.12-ci bəndin birinci cümləsində "banka" sözü "ödəniş xidməti təchizatçısına" sözləri ilə əvəz edilsin;

15.5. 3.19-cu bənddən "bank" sözü çıxarılsın.

**16** Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2020-ci il 14 dekabr tarixli 492 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2020, № 12 (V kitab), maddə 1595 (Cild I) ilə təsdiq edilmiş "Standartlaşdırma üzrə dövlət fondunun təşkili, saxlanması, aktuallaşdırılması və mühafizəsi Qaydası"nın 2.15.1-ci yarımbəndinin üçüncü cümləsində "bank sənədi" sözləri "sənəd" sözü ilə əvəz edilsin.

**17** Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2021-ci il 2 fevral tarixli 26 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2021, № 2, maddə 191 (Cild I) ilə təsdiq edilmiş "Elektron qaimə-fakturanın forması, tətbiqi, uçotu və istifadəsi Qaydaları"nın 1.4.1-ci yarımbəndində "bank əməliyyatlarını həyata keçirən şəxslər" sözləri "ödəniş xidməti təchizatçıları" sözləri ilə əvəz edilsin.

**18** Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2023-cü il 20 fevral tarixli 64 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2023, № 2, maddə 327 (Cild I) ilə təsdiq edilmiş "Yüksək riskli zonalara münasibətdə tətbiq edilə bilən məhdudiyyətlərin və xüsusi tələblərin Siyahısı"nın 5-ci hissəsinə "bankda" sözündən sonra "və digər ödəniş xidməti təchizatçılarında" sözləri əlavə edilsin.

***Əli ƏSƏDOV,***
***Azərbaycan Respublikasının***
***Baş naziri***

# Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı

**№ 183** **Bakı şəhəri, 27 mart 2024-cü il**

***"Müntəzəm və taksi minik avtomobili ilə sərnişin daşımalarında istifadə olunan avtonəqliyyat vasitələrinin texniki göstəriciləri, daxili və xarici tərtibatına dair tələblər"in təsdiq edilməsi haqqında***

"Avtomobil nəqliyyatı haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının 2023-cü il 14 iyul tarixli 973-VIQD nömrəli Qanununun tətbiqi və Azərbaycan Respublikası Prezidentinin "Avtomobil nəqliyyatı haqqında" Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə" 2008-ci il 4 iyul tarixli 792 nömrəli, "Yol hərəkəti haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişikliklər edilməsi barədə" Azərbaycan Respublikasının 2018-ci il 23 fevral tarixli 1016-VQD nömrəli Qanununun tətbiqi və "Yol hərəkəti haqqında" Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 1998-ci il 22 noyabr tarixli 24 nömrəli Fərmanında dəyişikliklər edilməsi haqqında" 2018-ci il 17 aprel tarixli 1926 nömrəli, "Azərbaycan Yerüstü Nəqliyyat Agentliyinin fəaliyyətinin təmin edilməsi və Azərbaycan Respublikası Prezidentinin "Azərbaycan Respublikasının Nəqliyyat, Rabitə və Yüksək Texnologiyalar Nazirliyi yanında Dövlət Avtomobil Nəqliyyatı Xidmətinin fəaliyyətinin təmin edilməsi haqqında" 2011-ci il 20 iyul tarixli 472 nömrəli, "Sumqayıt şəhərində avtomobil nəqliyyatı ilə sərnişin daşınması sahəsində idarəetmənin təkmilləşdirilməsi haqqında" 2015-ci il 7 dekabr tarixli 704 nömrəli və "Gəncə şəhərində avtomobil nəqliyyatı ilə sərnişin daşınması sahəsində idarəetmənin təkmilləşdirilməsi haqqında" 2016-cı il 25 yanvar tarixli 750 nömrəli fərmanlarında dəyişiklik edilməsi barədə" 2022-ci il 8 sentyabr tarixli 1842 nömrəli fərmanlarında dəyişiklik edilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2023-cü il 18 avqust tarixli 2300 nömrəli Fərmanının 2.1.3-cü yarımbəndinin icrasını təmin etmək məqsədilə Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

"Müntəzəm və taksi minik avtomobili ilə sərnişin daşımalarında istifadə olunan avtonəqliyyat vasitələrinin texniki göstəriciləri, daxili və xarici tərtibatına dair tələblər" təsdiq edilsin (əlavə olunur).

***Əli ƏSƏDOV,***
***Azərbaycan Respublikasının***
***Baş naziri***

*Qeyd: Qərara edilmiş əlavələrin tam mətni ilə www.nk.gov.az və www.xalqqazeti.com saytlarında tanış ola bilərsiniz.*

# Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı

**№ 179** **Bakı şəhəri, 27 mart 2024-cü il**

***"Azərbaycan Respublikası Prezidentinin "Vətəndaşların müraciətləri haqqında" Azərbaycan Respublikasının 2015-ci il 30 sentyabr tarixli 1308-IVQ nömrəli Qanununun tətbiqi barədə" 2015-ci il 12 noyabr tarixli 672 nömrəli, "Aqrar tədarük və təchizat" Açıq Səhmdar Cəmiyyətinin yaradılması haqqında" 2018-ci il 14 dekabr tarixli 400 nömrəli, "Azərbaycan Respublikası Dövlət Turizm Agentliyinin Qoruqları İdarəetmə Mərkəzinin yaradılması haqqında" 2018-ci il 20 dekabr tarixli 417 nömrəli, "Azərbaycan Respublikasında bir sıra dövlət orqanlarının strukturunun optimallaşdırılması və idarə edilməsinin təkmilləşdirilməsi ilə bağlı əlavə tədbirlər haqqında" 2019-cu il 17 yanvar tarixli 479 nömrəli, "Azərbaycan Respublikası İqtisadiyyat Nazirliyinin fəaliyyətinin təmin edilməsi və "Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi haqqında Əsasnamə"nin təsdiqi və "Azərbaycan Respublikası İqtisadiyyat Nazirliyinin fəaliyyətinin təmin edilməsi və "Azərbaycan Respublikası İqtisadi İnkişaf Nazirliyinin fəaliyyətinin təkmilləşdirilməsi ilə bağlı tədbirlər haqqında" Azərbaycan Respublikası Prezidentinin 2006-cı il 28 dekabr tarixli 504 nömrəli Fərmanında dəyişikliklər edilməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 2014-cü il 20 fevral tarixli 111 nömrəli Fərmanında dəyişiklik edilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2019-cu il 30 dekabr tarixli 911 nömrəli Fərmanında dəyişiklik edilməsi barədə" 2020-ci il 12 may tarixli 1017 nömrəli və "Azərbaycan Respublikasının Əqli Mülkiyyət Agentliyinin tabeliyində "Texnologiyaların Kommersiyalaşdırılması və Transferi Mərkəzi"nin yaradılması haqqında" 2021-ci il 6 aprel tarixli 1308 nömrəli fərmanlarında dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 2023-cü il 15 dekabr tarixli 2392 nömrəli Fərmanının icrası ilə əlaqədar Azərbaycan Respublikası Nazirlər Kabinetinin bəzi qərarlarında dəyişiklik edilməsi haqqında***

"Azərbaycan Respublikası Prezidentinin "Vətəndaşların müraciətləri haqqında" Azərbaycan Respublikasının 2015-ci il 30 sentyabr tarixli 1308-IVQ nömrəli Qanunun tətbiqi barədə" 2015-ci il 12 noyabr tarixli 672 nömrəli, "Aqrar tədarük və təchizat" Açıq Səhmdar Cəmiyyətinin yaradılması haqqında" 2018-ci il 14 dekabr tarixli 400 nömrəli, "Azərbaycan Respublikası Dövlət Turizm Agentliyinin Qoruqları İdarəetmə Mərkəzinin yaradılması haqqında" 2018-ci il 20 dekabr tarixli 417 nömrəli, "Azərbaycan Respublikasında bir sıra dövlət orqanlarının strukturunun optimal-laşdırılması və idarə edilməsinin təkmilləşdirilməsi ilə bağlı əlavə tədbirlər haqqında" 2019-cu il 17 yanvar tarixli 479 nömrəli, "Azərbaycan Respublikası İqtisadiyyat Nazirliyinin fəaliyyətinin təmin edilməsi və "Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi haqqında Əsasnamə"nin təsdiqi və "Azərbaycan Respublikası İqtisadiyyat Nazirliyinin fəaliyyətinin təmin edilməsi və "Azərbaycan Respublikası İqtisadi İnkişaf Nazirliyinin fəaliyyətinin təkmilləş-dirilməsi ilə bağlı tədbirlər haqqında" Azərbaycan Respublikası Prezidentinin 2006-cı il 28 dekabr tarixli 504 nömrəli Fərmanında dəyişikliklər edilməsi barədə" Azərbaycan Respublikası Preziden-tinin 2014-cü il 20 fevral tarixli 111 nömrəli Fərmanında dəyişiklik edilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2019-cu il 30 dekabr tarixli 911 nömrəli Fərmanında dəyişiklik edilməsi barədə" 2020-ci il 12 may tarixli 1017 nömrəli və "Azərbaycan Respublikasının Əqli Mülkiyyət Agentliyinin tabeliyində "Texnolo-giyaların Kommersiyalaşdırılması və Transferi Mərkəzi"nin yaradılması haqqında" 2021-ci il 6 aprel tarixli 1308 nömrəli fərmanlarında dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 2023-cü il 15 dekabr tarixli 2392 nömrəli Fərmanının icrasını təmin etmək məqsədilə Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

**1.** Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2016-cı il 1 sentyabr tarixli 338 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2016, № 9, maddə 1566 (Cild I) ilə təsdiq edilmiş "İctimai əhəmiyyətli funksiyaları yerinə yetirən hüquqi şəxslərin Siyahısı"nın "Qeyd" hissəsi ləğv edilsin.

**2.** Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2016-cı il 1 sentyabr tarixli 339 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2016, № 9, maddə 1567 (Cild I) ilə təsdiq edilmiş "Telefon müraciət xidməti vasitəsilə şifahi müraciətlərin edilməsi, qəbulu, qeydiyyatı və cavablandırılması Qaydası"nın "Qeyd" hissəsi ləğv edilsin.

**3.** "Aqrar tədarük və təchizat" Açıq Səhmdar Cəmiyyətinin Nizamnaməsinin təsdiq edilməsi barədə" Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2019-cu il 4 iyul tarixli 289 nömrəli Qərarının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2019, № 7, maddə 1312 (Cild I) 2-ci hissəsi ləğv edilsin.

**4.** "Azərbaycan Respublikası Dövlət Turizm Agentliyinin Qoruqları İdarəetmə Mərkəzinin Nizamnaməsi"nin təsdiq edilməsi haqqında" Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2019-cu il 15 iyul tarixli 305 nömrəli Qərarının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2019, № 7, maddə 1328 (Cild I) 2-ci hissəsi ləğv edilsin.

**5** "Azərbaycan Respublikası Əqli Mülkiyyət Agentliyinin tabeliyindəki "Texnologiyaların Kommersiyalaşdırılması və Transferi Mərkəzi"nin fəaliyyətinin təmin edilməsi haqqında" Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2022-ci il 18 mart tarixli 99 nömrəli Qərarının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2022, № 3, maddə 276 (Cild I) 5-ci hissəsi ləğv edilsin.

***Əli ƏSƏDOV,***
***Azərbaycan Respublikasının***
***Baş naziri***

# Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı

**№ 181** **Bakı şəhəri, 27 mart 2024-cü il**

***Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2020-ci il 10 yanvar tarixli 5 nömrəli Qərarı ilə təsdiq edilmiş "İcbari tibbi sığorta üzrə Xidmətlər Zərfi"ndə dəyişiklik edilməsi haqqında***

Azərbaycan Respublikası Konstitusiyasının 119-cu maddəsinin səkkizinci abzasını rəhbər tutaraq, Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2020-ci il 10 yanvar tarixli 5 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2020, № 1, maddə 63 (Cild l) ilə təsdiq edilmiş "İcbari tibbi sığorta üzrə Xidmətlər Zərfi"nə əlavə - "Xidmətlər Zərfinə daxil olan tibbi xidmətlərin siyahısı və tarifləri"nin 2.1.546-cı yarımbəndinin "Tibbi xidmətin adı" sütununa "övladlığa götürmə" sözlərindən sonra "və himayədar ailə (himayədar valideyn) olma" sözləri əlavə edilsin.

***Əli ƏSƏDOV,***
***Azərbaycan Respublikasının***
***Baş naziri***

# Dövlət dəstəyi kəndi tərəqqi yoluna çıxarır

**BMT-nin Ərzaq və Kənd Təsərrüfatı Təşkilatının (FAO) və Kənd Təsərrüfatı Nazirliyi yanında Aqrar Kredit və İnkişaf Agentliyinin təşkilatçılığı ilə Quba rayonunda keçirilən III Aqrobiznesin İnkişafı Forumunda respublikada aqrobiznesin inkişafına əhəmiyyətli təsir göstərən beynəlxalq və yerli təcrübə barədə ətraflı danışılıb, kənd təsərrüfatının mövcud vəziyyəti geniş müzakirə edilib, o cümlədən aqrobiznesə maliyyə dəstəyi, həmçinin dövlət güzəştlərindən daha çox fermer-sahibkarın faydalanması üçün lazım olan məsələlər diqqətə çatdırılıb. Tədbirdə, eyni zamanda, aqrobiznes sektorunun hazırkı vəziyyəti və gələcək perspektivləri, habelə iqlimə davamlı maliyyələşdirmə, subsidiyalar vasitəsilə kənd təsərrüfatının maliyyələşdirilməsi və dövlət–özəl tərəfdaşlıq yönümlü bir sıra məqamlar da müzakirə olunub.**



Forumda son illər ərzində kənd təsərrüfatında islahatların daha da dərinləşdirildiyi, aqrar sahəyə dövlət dəstəyi mexanizminin davamlı şəkildə təkmilləşdirildiyi və çoxşaxəli dövlət dəstəyi sistemi yaradıldığı, kənd təsərrüfatı istehsalçılarına verilən birbaşa subsidiyaların əhatə dairəsinin genişləndirildiyi də diqqətə çatdırılıb. Eyni zamanda, bildirilib ki, yanacaq və motor yağlarının, mineral gübrələrin, pestisidlərin, pambıq və şəkər çuğundurunun satışına, toxum və tinglərin istehsalına görə subsidiyaların verilməsinə başlanılıb.

Son illər aqrar sahədə istehsal vasitələrinin əldə olunmasına tətbiq olunan güzəştlərə böyük əhəmiyyət verilib. Bu güzəştlər çərçivəsində bir sıra texnika və texnoloji avadanlıqların ölkəyə idxalı rüsumdan azad edilib, satışı subsidiyalaşdırılıb. Məsələn, fermer tərəfindən texnikanın ilkin dəyərinin 20 faiz ödənildikdə, büdcə vəsaiti hesabına idxal dəyərinin 40 faizi həcmində güzəşt edilib. Eləcə də müasir suvarma sistemləri dəsti və avadanlığının, soyuducu anbar və avadanlıqlarının alışına dövlət büdcəsi hesabına 40 faiz güzəşt olunub.

Hazırda ölkəyə idxal edilən, həmçinin yerli damazlıq təsərrüfatlardan satılan safqanlı cins damazlıq heyvanların qiymətinin 60 faizi dövlət büdcəsi hesabına subsidiyalaşdırılır, lizinq yolu ilə güzəştli satışı həyata keçirilir, yerli heyvanların cins tərkibinin yaxşılaşdırılması məqsədilə süni mayalanma yolu ilə alınan hər buzova görə 100 manat, hər arı ailəsinə görə 10 manat məbləğində subsidiya verilir.

Həmçinin torpaq-iqlim potensialından və su ehtiyatlarından daha səmərəli istifadəni stimullaşdırmaq, ərzaqlıq buğda ilə özünütəminetmə səviyyəsini yüksəltmək üçün Azərbaycan Respublikası Prezidentinin 2022-ci il iyulun 9-da imzaladığı "Ərzaqlıq buğda ilə özünütəminetmə səviyyəsinin yüksəldilməsinə dair bir sıra tədbirlər haqqında" Fərmanla yeni dəstək mexanizmi yaradılıb. Bu mexanizmə görə, artıq cari ildən pivot suvarma tətbiq edilməklə istehsal olunaraq Dövlət Ehtiyatları Agentliyinə və un dəyirmanlarına təhvil verilən ərzaqlıq buğdaya görə məhsul subsidiyasının da ödənilməsinə başlanılıb.

Aqrar sahəyə göstərilən dövlət dəstəyinin nəticəsi olaraq son illərdə texnika parkının yenilənməsi və aqrotexniki xidmətlərə əlçatanlığın, toxum, gübrə və pestisid kimi istehsal vasitələri ilə təminat səviyyəsi artıb, kənd təsərrüfat sahəsinin infrastruktur və təchizat bazası genişlənib.

Həyata keçirilən bütün bu tədbirlərin nəticəsidir ki, aqrar sektorda istehsal göstəricilərinin yüksəlməsi davamlı xarakter alıb. Dövlət Statistika Komitəsinin məlumatına əsasən, ötən il ölkəmizdə 11 milyard manatdan çox kənd təsərrüfatı məhsulu istehsal edilib. Bu, 2022-ci ilin eyni dövrü ilə müqayisədə 3,1 faiz çoxdur.

Forumda kənd təsərrüfatının davamlı inkişafını şərtləndirən digər amillərin də bu gün diqqətdə saxlanılması zərurəti vurğulanıb. Bu baxımdan aqrar sığorta mexanizminin tətbiqi, suvarma suyu ilə bağlı çətinliklər, keyfiyyətli aqronom və digər məsləhət xidmətlərinə əlçatanlıq, subsidiya və digər maliyyələşdirmə mexanizmlərinin təkmilləşdirilməsinə ehtiyac, qida təhlükəsizliyi sahəsində sənədləşdirmə prosedurlarında çətinlik, texnoloji avadanlıqların köhnəlməsi və bazarlara çıxış aqrar sahədə fəaliyyət göstərən sahibkarları narahat edən başlıca məsələlər kimi qeyd edilib.

İqtisadiyyat Nazirliyinin tabeliyindəki Kiçik və Orta Biznesin İnkişafı Agentliyinin (KOBİA) İdarə Heyətinin sədri Orxan Məmmədov forumda bildirib ki, aqrar iqtisadiyyat iqtisadi sistemin çox vacib bir sahəsi olmaqla iqtisadi siyasətin strateji istiqamətidir və ərzaq təhlükəsizliyinin əsasını təşkil edir. Təbii ki, bu yöndə respublikamızda ciddi işlər görülür və nəticədə aqrar bölmənin inkişafında yüksək göstəricilər əldə olunur.

O.Məmmədov vurğulayıb ki, ölkə Prezidentinin 2021-ci il 2 fevral tarixli "Azərbaycan 2030: sosial-iqtisadi inkişafa dair Milli Prioritetlər"in təsdiq edilməsi barədə Sərəncamından irəli gələrək hazırlanmış "2022-2026-cı illərdə sosial-iqtisadi inkişaf Strategiyası"nda əsas fəaliyyət istiqamətlərindən biri də "dayanıqlı və rəqabətli kənd təsərrüfatı və aqrobiznesin inkişaf etdirilməsi"-dir: "Bu sənəddə müəyyən olunmuş fəaliyyətlərin icrası nəticəsində kənd yerlərində rifahın yüksəlməsinə töhfə verən rəqabətqabiliyyətli aqrar istehsal, emal, satış, o cümlədən müasir texnologiyaların tətbiqi ilə kənd təsərrüfatında məhsuldarlıq daha da artacaq, həmçinin yeni iş yerləri yaradılacaq. Rəqabətqabiliyyətli, qabaqcıl infrastrukturla təmin edilmiş aqrar istehsal və aqrar emal formalaşdırılacaq".

KOBİA-nın rəhbəri qeyd edib ki, kiçik və orta biznes subyektlərinin (KOB) aqrobiznesdə satış imkanlarının genişləndirilməsi, məhsul və xidmətlərinin tanıdılmasına dəstəyin göstərilməsi zəruridir: "2018-ci ildən etibarən KOB subyektlərinin müxtəlif ixtisaslaşmış yerli və xarici sərgilərdə və yarmarkalarda iştirakına KOBİA tərəfindən davamlı önəm verilir. KOBİA bu sektorda fəaliyyət göstərən KOB subyektlərini müxtəlif xidmətlər və mexanizmlər çərçivəsində hər zaman dəstəkləyir".

O.Məmmədovun sözlərinə görə, indiyədək KOBİA tərəfindən Bakı və regionlar üzrə kənd təsərrüfatı fəaliyyəti ilə bağlı 4 minə yaxın sahibkarın iştirakı ilə 154 sahəvi görüş və maarifləndirmə tədbiri keçirilib. Bunlardan 20 sahəvi görüş, o cümlədən maarifləndirilmə tədbirləri məhz Quba–Xaçmaz iqtisadi rayonunda gerçəkləşdirilib. Bu görüşlərdə diqqətə yönəldilən problemlər və onların həllinə dair səsləndirilən çoxsaylı təkliflər ciddi təhlil edilib və həmin sahə problemlərinin həllinə yönəlik müvafiq addımlar atılıb.

Forumda müzakirə edilən məsələlərdən biri də aqrar sektorun inkişafında kreditləşmənin əhəmiyyəti ilə bağlı olub. Azərbaycan Mərkəzi Bankı (AMB) sədrinin müavini Əliyar Məmmədyarov 2023-cü ilin sonuna ölkə banklarının kənd təsərrüfatına verdiyi kreditlərin qalıq məbləğinin 1,5 milyard manatdan çox olduğunu, bunun ¼ hissəsinin dövlət fondlarının, ¾ hissəsinin isə bankların öz vəsaitlərinin hesabına verildiyini bildirib. AMB sədrinin müavini daha sonra qeyd edib: "Bu ilin yanvar ayında təsdiqlənən "2024-2026-cı illərdə maliyyə sektorunun inkişaf Strategiyası" maliyyə sektorunun effektivliyi, dayanıqlılığı və şəffaflığı kimi məqsədlərlə yanaşı, sektorun əlçatanlığını özündə ehtiva edir. Sənəd aqrar sektorun dəstəklənməsi üçün alternativ maliyyələşmə mexanizmlərinin genişləndirilməsi, mikro, orta və kiçik müəssisələrə xüsusi diqqət yetirilməsi ilə aqrar sahədə fəaliyyət göstərən şirkətlərin maliyyələşmə imkanlarının genişləndirilməsini hədəfləyir".

Yeri gəlmişkən, həmin strategiya, eyni zamanda, aqrar sığorta sisteminin yenidən dizayn edilməsini, bu əsasda alternativ əməliyyat modellərinin müəyyənləşdirilməsini nəzərdə tutur. Ümumilikdə, maliyyə sektoru üzrə həyata keçirilən tədbirlər maliyyə sektorunun inkişafını şərtləndirir. 2023-cü ilin sonuna bankların kredit qoyuluşunun qeyri-neft-qaz ümumi daxili məhsuluna (ÜDM) nisbətdə 30 faizə çatması, bankların biznes krediti portfelinin 16,2 faiz artması da bunun bariz ifadəsidir.

Sonda qeyd edək ki, biznes portfelində kənd təsərrüfatı sektoruna verilən kreditlərin payı əvvəlki illərlə müqayisədə artıb və ötən ilin sonuna 12 faizə çatıb. Son 3 ildə isə bankların aqrar portfeli 62 faiz və yaxud 500 milyon manatdan çox yüksəlib.

***Vaqif BAYRAMOV***
***XQ***

## "Azərbaycan" gəmi-bərəsi Xəzərə qayıdır



**"Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi" QSC-nin (ASCO) Dəniz Nəqliyyatı Donanmasına məxsus Ro-Pax tipli "Azərbaycan" gəmi-bərəsinin tərsanə təmiri yekunlaşıb.**

ASCO-dan verilən məlumata görə, təmir işləri Zığ Gəmi Təmiri və Tikintisi Zavodunda aparılıb. Təmir işləri çərçivəsində gəmidə boru işləri görülüb, müxtəlif təyinatlı nasoslar saz vəziyyətə gətirilib. Bərənin sualtı və suüstü hissəsi, vaqon və avtomobil göyərtəsi təmizlənərək rənglənib. Həmçinin gəmi heyətinin yaşayış şəraitini yaxşılaşdırmaq üçün kayutlarda lazımi işlər görülüb. Təmir işləri başa çatdıqdan sonra gəmi-bərə yenidən istismara qaytarılıb.

Qeyd edək ki, "Azərbaycan" gəmi-bərəsinin uzunluğu 154,50, eni 17,7, bortunun hündürlüyü isə 7,5 metrdir. Hazırda yükgötürmə qabiliyyətinə görə Xəzərdəki mövcud bərələrdən böyük olan bu gəmi 100 nəfər sərnişin, 56 sistern tipli vaqon və ya 50 yük avtomobili daşımaq imkanına malikdir.

## "Trading Economics"in ümidli proqnozları




**Beynəlxalq iqtisadi statistika portalı olan "Trading Economics" Azərbaycanda makroiqtisadi göstəriciləri ilə bağlı proqnozlarını açıqlayıb. Portal 2024-cü ilin ikinci rübündə respublikada iqtisadi artımın 3,4 faizə qədər yüksələcəyini, ilin sonuncu rübündə isə 1,5 faizə qədər enəcəyini proqnozlaşdırıb.**

"Trading Economics", həmçinin cari il üzrə Azərbaycanda inflyasiyanın pik həddinin III rübdə olacağını, 5,3 faizə qədər yüksələcəyini, ilin sonunda isə 5 faizə kimi enəcəyini və işsizlik səviyyəsini 5,8 faiz həddində proqnozlaşdırıb.

Qeyd edək ki, Maliyyə Nazirliyinin 2024-cü ildə Azərbaycanda ÜDM-in real artımı ilə bağlı gözləntiləri 2,4 faiz, Mərkəzi Bankın proqnozu isə 3-3,5 faiz həddindədir.

**XQ**



## Füzuli-Şuşa yolu sürətlə çəkilir

**Azərbaycanın işğaldan azad edilmiş Füzuli, Xocavənd, Xocalı və Şuşa rayonlarını birləşdirən 81,6 kilometrlik Əhmədbəyli–Füzuli–Şuşa avtomobil yolunun böyük hissəsinin inşası başa çatıb. Qarabağda inşaat işləri həyata keçirən Türkiyənin "Proyapı" şirkəti İdarə Heyətinin sədr müavini Akif Aygenin mediaya məlumatında cari ilin sonuna qədər həmin yolun inşasının tamamlanacağının nəzərdə tutulduğu bildirilib.**

Xatırladaq ki, Əhmədbəyli–Füzuli–Şuşa avtomobil yolu 1-ci texniki dərəcəyə uyğun 4-6 hərəkət zolaqlı olmaqla inşa edilir. Yolboyu 137 müxtəlif diametrli suötürücü boru, 30 yeraltı keçid, 7 körpü və 7 tunel tikilir.

## Ötən il xaricə 3 milyard dollar sərmayə qoyulub

**2023-cü ildə Azərbaycandan xarici ölkələrə yatırılan birbaşa investisiyaların məbləği 3,1 milyard ABŞ dolları təşkil edib. Bunu Azərbaycan Mərkəzi Bankında keçirilən brifinqdə qurumun Statistika Departamentinin direktoru Samir Nəsirov bildirib.**

Onun dediyinə görə, Azərbaycandan birbaşa investisiyaların məbləğinə görə ilk üçlükdə Türkiyə (1,8 milyard dollar), ABŞ (311 milyon dollar) və Böyük Britaniya (157 milyon dollar) qərarlaşıb.

Bununla yanaşı, ötən il Azərbaycan iqtisadiyyatına birbaşa xarici investisiyaların məbləği 6,7 milyard ABŞ dolları təşkil edib. Birbaşa xarici investisiyalar üzrə ilk 5 ölkə isə Böyük Britaniya (1,9 milyard dollar), Türkiyə (1,3 milyard dollar), Kipr (792 milyon dollar), Rusiya (617 milyon dollar) və İran (396 milyon dollar) olub.

***XQ***

# Köhnə yataqların yeni həyatı

**Azərbaycanda neftin sənaye üsulu ilə çıxarılmasına başlandığı ötən 180 ilə yaxın müddətdə quruda aparılmış geoloji-kəşfiyyat işləri nəticəsində çoxsaylı neft yataqları istismara daxil edilib. Ayrı-ayrı illərdə həmin yataqlarda neftçıxarmanın müxtəlif üsullarından, yeni texnologiyalardan istifadə edilərək on minlərlə quyu qazılıb. Bununla da, respublikanın neft sənayesinin sürətli inkişafı üçün etibarlı baza yaradılıb. Təkcə onu qeyd etmək kifayətdir ki, ötən əsrin ortalarında açıq dənizdə hasilata başlanıldığı dövrədək çar Rusiyasının və keçmiş SSRİ-nin, eləcə də respublikamızın neft və neft məhsullarına olan tələbatının ödənilməsi məhz həmin quyular hesabına təmin edilib.**




Ölkəmizin qurudakı yataqları uzun illərdir istismar olunmasına baxmayaraq, buradakı neft-qaz ehtiyatları tükənməyib. Mütəxəssislərin rəyinə görə, köhnə yataqlarda çıxarılması mümkün olan ehtiyatlar hələ çoxdur. Bu səbəbdən də hazırda dünya neft sənayesinin ən mütərəqqi texnologiyalarının tətbiqi ilə həmin yataqların fəaliyyəti yenidən canlandırılır, müxtəlif illərdə fəaliyyəti dayandırılmış köhnə quyular bərpa olunaraq istismara qaytarılır. Eyni zamanda, köhnə yataqların məhsuldar laylarında olan qalıq ehtiyatlarının işlənməyə cəlb edilməsi məqsədilə yeni quyular qazılaraq istismara daxil edilir.

Azərbaycanın ilk özəl enerji şirkəti olan GL-in fəaliyyəti bu baxımdan diqqət çəkir. Qeyd edək ki, şirkət hazırda Salyan rayonunda "Kürsəngi" və "Qarabağlı", Abşeron yarımadasında "Buzovna–Maştağa", "Qala" və "Zirə" olmaqla Azərbaycanın qurudakı 5 yatağında neft-qaz əməliyyatları həyata keçirir. Qurumun biznes portfelinə "Salyan Oil Limited", "Taghiyev Operating Company" əməliyyat şirkətləri və sənaye üzrə çoxsaylı xidmətlər təqdim edən "GL Technical Services" MMC daxildir.

2023-cü ildə qurumun tabeliyindəki "Taghiyev Operating Company" (TOC) əməliyyat şirkəti tərəfindən istismar edilən "Buzovna–Maştağa" yatağında 4 yeni quyunun qazılması zamanı ölkəmizin neftçıxarma sənayesi üçün mühüm ilklərə imza atılıb. Bununla da, quruda qazma əməliyyatlarının yeni standartlarını müəyyənləşdirən şirkət istismarda olan yataqların bərpası strategiyasına keyfiyyət etibarı ilə yeni yanaşma gətirib. Eyni zamanda, 2023-cü ildə TOC tərəfindən istismar edilən yataqlarda 15 faizdən artıq hasilat enməsinin qarşısı alınaraq ilin əvvəli ilə müqayisədə gündəlik hasilatın 10 faizdən çox artırılmasına nail olunub. Neft Araşdırmaları Mərkəzinin rəhbəri İlham Şabanın sözlərinə görə, şirkətin "Buzovna–Maştağa" yatağında yeni quyuların qazılması zamanı əldə etdiyi nəticə, həqiqətən də, ölkəmizin neft-qaz sənayesi üçün önəmli hadisədir. Bu, bariz şəkildə göstərir ki, məsələyə kompleks yanaşmanın nəticəsi olaraq yeni texnologiyaların tətbiqi ilə quyuların qazılmasında, eləcə də mənimsənilməsində və layların neftveriminin artırılmasında yüksək nailiyyətlər əldə etmək mümkündür.

Bu yaxınlarda isə GL şirkəti minimum məcburi iş proqramı çərçivəsində "Buzovna–Maştağa", "Qala" və "Zirə" neft yataqlarında planlaşdırılan 6 yeni quyuda qazma işlərini təhlükəsiz, ətraf mühitə heç bir zərər vermədən ən qısa müddətdə uğurla başa çatdırıb. Bundan əlavə, GL-in daha bir şirkəti olan "Salyan Oil Limited" tərəfindən istismar edilən "Kürsəngi" və "Qarabağlı" neft yataqlarında 19 il ərzində müşahidə olunan hasilat enməsinin qarşısı alınıb. Bir müddət sonra isə həmin yataqlarda hətta artıma da nail olunub. Özü də bu uğurların hamısı böyük məbləğdə kapital investisiya edilmədən, yalnız səmərəli hasilat proqramlarının tətbiqi ilə əldə edilib.

2024-cü ildə GL şirkəti "Kürsəngi" və "Qarabağlı" yataqlarında dərinliyi 4 min metrdən çox olacaq 2 yeni quyunun və eyni sayda yan lülənin qazılması ilə bağlı tender elan etməyi planlaşdırır. Qeyd edək ki, özünün texniki xüsusiyyətlərinə görə bu quyular Xəzər regionunda mövcud olan bir çox mürəkkəb quyudan geri qalmayacaq. Eyni zamanda, Salyan sahəsində planlaşdırılan bu işlər həmin yataqlarda 13 il davam edən qazma fasiləsini aradan qaldırmağa imkan yaradacaq. Heç şübhəsiz, qısa müddətdə əldə olunan nailiyyətlər GL şirkətinin mükəmməlliyə və yüksək nəticələr göstərməyə sadiqliyinin təzahürüdür.

Yeri gəlmişkən, şirkət fəaliyyətə başladığı qısa müddət ərzində Azərbaycanın quru ərazisində ilk dəfə olaraq "GeoTap" sistemindən istifadə edərək yatağın lay təzyiqi, neftlə doyumluluğu, məhsuldarlığı və neftin mobilliyi haqqında əhəmiyyətli texniki məlumatların əldə edilməsinə müvəffəq olub. Bu məlumatlar qazma və tamamlama əməliyyatları zamanı yüksək dəqiqliklə qərarların qəbul edilməsi prosesini dəstəkləməklə hər mənimsənilən quyudan ilkin olaraq planlaşdırılandan iki dəfə çox hasilata nail olunmasına gətirib çıxarıb. Qeyd olunan məlumatlar yataqda quyuların əsaslı təmiri və növbəti qazma əməliyyatları zamanı görülən işlərin uğurla tamamlanmasına töhfə verəcək.

Bununla yanaşı, şirkət quruda 2 min metr dərinlikdə qazma əməliyyatını ən qısa müddətdə reallaşdırmaqla da rekorda imza atıb. Belə ki, yüksək icra göstəricisi ilə qazma işləri ilk quyuda 28 günə, sonrakı iki quyunun hər birində 22 günə, dördüncü quyuda isə cəmi 18 günə tamamlanıb. Bununla da, "Buzovna–Maştağa" yatağında son 30 il ərzində ilk dəfə GL-in operatorluğu ilə Qırmaki altı lay dəstinin alt laylarından neft əldə edilib.

Daha bir maraqlı məqam ondan ibarətdir ki, yatağın tarixində ilk dəfə olaraq GL qazma zamanı 180 metr yana istiqamətləndirmə ilə maili qazma texnologiyasını tətbiq etməklə yanaşı, neft əsaslı məhluldan istifadə edib və qazma prosesini çınqıllı süzgəc üsulu ilə tamamlayıb. Şirkətdə hesab edirlər ki, səriştəli idarəetmə komandası, quyuların düzgün texniki-mühəndis layihələndirilməsi, müasir texnologiyaların tətbiqi, dəqiq planlaşdırma və podratçılarla işin düzgün qurulması şirkətin üç ay əvvəl başladığı qazma layihəsinin uğurla və təhlükəsiz başa çatdırılmasına töhfə verən əsas amillərdir.

Xatırladaq ki, GL International LTD ilə SOCAR arasında "Buzovna–Maştağa, Qala və Zirə neft yataqlarının daxil olduğu blokun bərpası və işlənməsi ilə əlaqədar" risk xidmət sazişi 2021-ci il dekabrın 14-də imzalanıb. Sazişə əsasən, hazırda yataqların bərpası və işlənməsi GL-in "Taghiyev Operating Company" əməliyyat şirkəti tərəfindən həyata keçirilir.

Göründüyü kimi, Azərbaycanın quruda yerləşən yataqlarının işlənilməsinin davam etdirilməsi ölkəmizdə neft hasilatının artırılmasına əlavə imkanlar yarada bilər. Elə mütəxəssislər də bu yataqları hasilatın sabit saxlanılması üçün sabit etibarlı mənbə hesab edirlər.

***Mirbağır YAQUBZADƏ***
***XQ***

# Azərbaycanın bölgələrində erməni qətliamları

**1918-ci ilin əvvəllərində Azərbaycanın bölgələrində vəziyyət mürəkkəb olaraq qalırdı. Bakı şəhəri və eləcə də Zəngəzur və İrəvan bölgələri istisna olmaqla (Naxçıvanda proseslər bir qədər fərqli şəkildə inkişaf edirdi – K.İ.) Şimali Azərbaycanın əksər əraziləri milli qüvvələrin nəzarəti altında qalmaqda idi. Bu isə bütün Cənubi Qafqazı ələ keçirməyə can atan Rusiyanın bolşevik hakimiyyətinin və onun Bakıdakı təmsilçisi roluna iddia edən Bakı Sovetinin planlarına ciddi təhlükə yaradırdı. Belə şəraitdə Bakı bolşevikləri bütün anti-Azərbaycan qüvvələri, xüsusən erməni-daşnak birləşmələrini səfərbər edərək Azərbaycanın milli hərəkatını və onun aparıcı qüvvəsi olan Müsavat Partiyasını məhv etmək üçün 1918-ci ilin mart ayının sonu – aprel ayının əvvəllərində kütləvi qırğınlar törətdilər. Bakı şəhərində azərbaycanlıların soyqırımını törədən bolşevik-daşnak qüvvələri öz hakimiyyətlərini Azərbaycanın bölgələrinə də yaymaq niyyəti ilə fəal hərəkətə keçdilər.**

Bakıdan sonra bolşevik –daşnak hücumlarının ilk ünvanı Şamaxı şəhəri və qəzası oldu. Onlar bu bölgəyə bütün Azərbaycanı ələ keçirmək üçün bir plasdarm kimi baxırdılar. Buna görə də qəzanın tezliklə ələ keçirilməsi üçün onun erməni və molokan əhalisini silahlandırılmağı qərara almışdı. Həmin dövrdə Şamaxı qəzasında 229 kənd var idi ki, bu kəndlərdən 196-da azərbaycanlılar, 21-də ermənilər, 11-də rus və molokanlar, 1-də isə yəhudilər yaşayırdılar. Şamaxı şəhəri də daxil olmaqla, kəndlərlə birlikdə, bütövlükdə, Şamaxı qəzasının əhalisi 161552 nəfər idi. Bunun da 72,9 faizini (117706 nəfər) müsəlmanlar, 13,78 faizini (22350) ermənilər, 12 faizini (19393) molokanlar, 1,32 faizini isə Qafqaz dağlıları və yəhudilər təşkil edirdi.

Şamaxı qəzasını ələ keçirmək üçün Bakı sovetinin bolşevik-daşnak rəhbərliyi buraya külli miqdarda silah-sursat göndərmişdi. Bunu həmin dövrün materialları və şahid ifadələri də təsdiq edir. S. Şaumyan RSFSR XKS-ə göndərdiyi 13 aprel 1918-ci il tarixli məktubunda Şamaxıya artilleriyanın və pulemyotların onun göstərişi ilə göndərildiyini təsdiq edir. Bundan əlavə olaraq mart ayının ortalarında Bakı Soveti Şamaxıya ermənilərdən ibarət 2 min nəfərlik hərbi dəstə və 60 araba silah da göndərmişdi.

Ə.Xasməmmədovun Zaqafqaziya Komissarlığına göndərdiyi teleqramda bildirilirdi ki, martın 18-də bolşeviklər Bakıdan 2 min yaxşı silahlanmış, artilleriya və pulemyotlara malik dəstə göndərmiş və dəstə öz yolu üzərindəki 15 müsəlman kəndini məhv etmiş, Şamaxı şəhərini isə dağıtmışdı. Martın sonlarında isə S.Lalayevin başçılığı ilə daha bir dəstə Şamaxıya gələrək burada qurbanlarının sayına və üsullarına görə daha dəhşətli qırğınlar törətdi.

Şamaxı müsəlmanlarının dəhşətli soyqırımına məruz qalmalarını rus, hətta erməni millətindən olan şahidlər (N. Asriyants) öz xatirələrində etiraf etmişlər. Dörd gün davam etmiş erməni talanları ərzində şəhərin ən abad və zəngin hissəsi olan “Piran-Şirvan” məhəlləsi tamamilə dağıdılmış, 14 məscid, o cümlədən Qafqazın ən qədim məscidi olan 800 illik Cümə məscidi yandırılmışdı. Fövqəladə Təhqiqat Komitəsinin heç də tam olmayan hesablamalarına görə, təkcə Şamaxı şəhərində ermənilər tərəfindən 10 min insan öldürülmüş, şəhər tamamilə dağıdılmışdı. Qəzanın 110 müsəlman kəndi yandırılmış və talan edilmiş, 10 min nəfərdən artıq müsəlman öldürülmüşdü. FTK-nın materialları Şamaxı hadisələrində qəzanın molokan əhalisinin ermənilərin tərəfində iştirakını da tam təsdiq edir. Molokanlar ermənilərin şəhərə hücumlarını nəinki dəstəkləmiş, elə özləri müsəlman kəndlərini dağıtmış, onların əhalisinə divan tutmuşlar. 24 kəndin sakinlərinin təsdiq etdiklərinə görə bu kəndlərə erməni-molokan birləşmiş qüvvələri, 4 kəndə isə ancaq molokan dəstələri hücum etmişdilər. Xüsusən Əngəxaran sakinlərinə qarşı molokanlar dəhşətli zorakılıqlar törətmiş, kəndi yandırmış və talan etmiş, yüzdən çox müsəlmanı öldürmüş, qalanlarını Mədrəsədə ermənilərə təhvil vermişlər. İvanovka kəndinin molokanlarının Şamaxı hadisələrində nisbətən neytral mövqeyinə gəldikdə isə bunu o zaman Göyçay qəzasının tərkibinə daxil olan bu kəndin Şamaxı hadisələrinin episentrindən uzaqda, Azərbaycan kəndləri ilə əhatədə yerləşməsi və buna görə də onların mümkün intiqamlarından çəkinmələri ilə izah edilə bilər. Bütövlükdə, Şamaxı qəzasında 22295 nəfər öldürülmüş, 276 nəfər ağır yaralanmışdı.

Şamaxı qəzasını ələ keçirdikdən sonra daşnak və bolşevik dəstələri Göyçay qəzasına doğru hərəkət etmiş, burada da kütləvi vəhşiliklər törətmişlər.

Göyçay qəzasının müsəlman əhalisinə qarşı zorakılıqların növbəti mərhələsi 1918-ci ilin iyununda Qafqaz Qırmızı ordusunun Gəncə istiqamətində hücumu zamanı baş verdi. Qəzanın digər kəndləri, xüsusən dəmir yolu boyunca yerləşmiş stansiya və məntəqələr çox dağıntılara məruz qalmışdı. FTK-nın materiallarına görə bu qəzada 8 kənddə 119 nəfər öldürülmüşdü.

1918-ci ilin martın sonunda Bakıdan “Evelina” gəmisində Lənkərana yola düşən müsəlman alayının heyətinin tərk-silah edilməsi ilə başladıqları soyqırımı erməni-bolşevik qüvvələri digər bölgələrdə olduğu kimi, Lənkəran-Muğan bölgəsində də davam etdirmiş, yerli müsəlman əhaliyə amansız divan tutmuşdular. Çox təəssüf ki, Azərbaycan tarixçiləri indiyə qədər Bakıda 1918-ci ilin martında baş vermiş soyqırımı hadisələri ilə Azərbaycanın cənubunda cərəyan etmiş proseslər arasında birbaşa əlaqənin olduğunun fərqinə varmayıblar. Tarixçilər “Evelina” gəmisində Lənkərana getməyə hazırlaşan bir qrup müsəlman zabitinin tərk-silah edilməsini azərbaycanlıların soyqırımına başlamaq üçün bəhanə olduğunu göstərirlər. Lakin bu bəhanənin nə üçün məhz martın sonunda, özü də Lənkərana gedən bir qrup müsəlman zabitinə qarşı törədildiyinin (əslində, bu, bəhanə deyil, planlaşdırılmış hərbi aksiya idi) səbəbini göstərmirlər. Bakı Sovetinin bolşevik-daşnak rəhbərliyinin “Evelina” gəmisinin tərk-silah edilməsi haqqında qərarının qəbul edilməsinə Lənkəran-Muğan bölgəsində baş verən hərbi proseslər haqqında məlumatlar və oradan anti-Azərbaycan qüvvələrin müraciətləri də əsas rol oynamışdı.

Şaumyan və onun ətrafı üçün Lənkəran bölgəsi mühüm strateji əhəmiyyət kəsb edən bölgə idi və bu bölgənin əldə saxlanılması aclığın hökm sürdüyü Bakıdakı hakimiyyət üçün ölüm-dirim məsələsi idi. Bunu Şaumyanın Moskvaya göndərdiyi məktublar da təsdiq edir. Ona görə də Şaumyan Lənkəran bölgəsində siyasi-ideoloji baxımdan bolşevizmə yad olan istənilən anti-Azərbaycan qüvvəni (onlar arasında sağ eserlər, ağqvardiyaçılara rəğbət bəsləyənlər, hətta monarxistlər belə var idi – K.İ.) müdafiə etməyi və ona yardım göstərməyi təmsil etdiyi qüvvələrin maraqları üçün yolverilən, məqbul hesab edirdi. Ona görə də Bakıdan azərbaycanlıların kifayət qədər böyük bir silahlı dəstəsinin bolşevik-daşnak hakimiyyətinin də taleyinin həll olunduğu müharibə zonasına (qeyd edildiyi kimi, Lənkəran qəzasının şimalında Bakıya yol açmağa çalışan milli qüvvələrlə “rus maraqlarının” ifadəçiləri olan qüvvələr arasında əsl müharibə gedirdi – K.İ.) buraxılması Şaumyan üçün bağışlanılmaz səhv olardı. “Evelina” gəmisini saxlamaqla Bakı Sovetinin rəhbərliyi cənubda gedən mübarizənin də taleyini həll etmiş oldu.

Əlbəttə, başqa məsələdir ki, Lənkərandakı müsəlman diviziyasının 50-yə yaxın zabiti tamamilə məsuliyyətsiz





hərəkət edərək öz komandirlərinin dəfnində iştirak etmək üçün kollektiv şəkildə döyüş bölgəsini tərk etmiş və faktiki olaraq cinayət törətmişdilər. Bu məsuliyyətsizlik isə ağır nəticələrə gətirib çıxarmışdı. Lənkəran qəzasında müsəlmanlara divan tutulmasında Bakıdan göndərilmiş ermənilər xüsusi rol oynamışlar. Bunu müasir rus müəllifləri T. Yermolenko və O. Morozova da etiraf edirlər.

Bəzi mənbələrə görə, təkcə Lənkəran şəhərində 300-ə yaxın müsəlman öldürülmüşdü. Bu hadisələrdən sonra Lənkəranda hakimiyyət antimilli qüvvələrin əlinə keçmiş, burada Sovet hakimiyyəti orqanları – HİK, İnqilabi Müdafiə Komitəsi, Fəhlə, Əsgər Deputatları Sovetinin İcraiyyə Komitəsi, milis yaradılmışdı.1918-ci il aprelin 25-də Bakıda Xalq Komissarları Soveti yarandıqdan iki gün sonra Lənkəran qəzasında da HİK-nin qərarı ilə eyni adlı hakimiyyət qurumu təşkil edildi. Lakin, Bakıdan fərqli olaraq burada əsas yeri bolşeviklər deyil, eserlər tutdular.

Bakıdan Cavad qəzasına göndərilmiş silahlı dəstələr aprelin 24-də Salyan şəhərini ələ keçirərək burada Sovet hakimiyyətinin qurulduğunu elan etdilər. Aprelin son ongünlüyündə qəzanın əksər kəndlərinin əhalisi daşnak-bolşevik dəstələrinin vəhşiliklərinə məruz qaldı. Ermənilər 200 evdən və 500 sakindən ibarət olan Ərəbşahverdi kəndinin 37 sakinini xüsusi amansızlıqla öldürmüş, Hilə-Mirzəli kəndinin 28, Bəydilli kəndinin 30, Ərəb Qardaşbəyli kəndinin 33, Aşağı Surra kəndinin 13 sakinini qətlə yetirmişdi. FTK-nın topladığı materiallara əsasən, Cavad qəzasında daşnak-bolşevik qüvvələri tərəfindən 30-dan çox kənd soyqırımına məruz qalmış, 157 nəfər xüsusi amansızlıqla öldürülmüşdü.

Bakı Sovetinin rəhbərliyi Quba qəzasını ələ keçirmək və Şimali Qafqazla əlaqələri bərpa etmək üçün buraya D. Gelovaninin rəhbərliyi altında xüsusi döyüş dəstəsi və zirehli qatar göndərmişdi. Aprelin 10-da (yeni stillə aprelin 23-də) Qubaya gələn Gelovaninin silahlı təhdidləri altında şəhərin sakinləri məcburən Sovet hakimiyyətini tanıdıqlarını bildirmiş, Gelovani isə özünü qəza komissarı elan etmişdi. Bir neçə gündən sonra Qubaya poruçik Ağacanyanın (Oqonozovun) başçılığı altında əsasən ermənilərdən ibarət daha bir dəstə göndərilmişdi. Buna baxmayaraq Bakıdan gəlmiş işğalçı qüvvələr yalnız Quba şəhərində, Xaçmaz, Yalama və dəmiryolu boyu əraziləri nəzarətdə saxlayırdılar. Qəzanın əksər əraziləri milli qüvvələrin əlində idi. Aprelin 16-da (yeni stillə aprelin 29-da) Zizikskinin başçılığı ilə tərkibində keçmiş türk əsirlərin də olduğu yerli könüllü dəstələr və Dağıstandan onların köməyinə gəlmiş süvarilər Qusar tərəfindən Quba şəhərinə hücuma keçərək, bolşevik-daşnak qüvvələrini şəhəri tərk etməyə məcbur etdilər.

Quba əhalisinə divan tutmaq üçün Şaumyan bu dəfə Hamazaspın başçılığı ilə daha böyük silahlı dəstə göndərməyi qərara aldı. Məhz S. Şaumyanın göstərişi və HİK-nin sədri Q. Korqanovun əmri ilə Hamazaspın komandanlığı altında 2 minlik cəza dəstəsi Qubaya göndərilərək azərbaycanlılara qarşı növbəti soyqırımı aktı həyata keçirdi. Şaumyandan şəxsən göstəriş alan Q. Korqanov Hamazaspın dəstəsinin yalnız daşnak partiyasının üzvlərindən təşkil olunması, onların pulemyot və toplarla təchiz edilməsi barədə tapşırıq vermişdi.

Hələ Quba şəhərinə çatmamış erməni quldur dəstələri yol boyunca dinc əhalinin yaşadığı kəndləri yandıraraq dağıtmağa başlamış, kütləvi qırğınlar törətmişdilər. Qubaya silahlı müdaxilə etmiş Hamazaspın rəhbərlik etdiyi daşnak silahlı birləşmələrinin dinc əhaliyə təcavüzü nəticəsində Quba şəhəri tamamilə dağıdılmış, 2800 türk-müsəlman öldürülmüşdü. Qəzanın 168 kəndi ermənilər tərəfindən dağıdılmış, 1361 nəfər dinc sakin öldürülmüşdü. FTK-nın verdiyi məlumatlara əsaslanaraq bütövlükdə Quba qəzası üzrə 4261 nəfər müsəlmanın öldürüldüyünü, əhaliyə 186.621.059 rubl maddi ziyan vurulduğunu göstərmək olar.

FTK müəyyən obyektiv və subyektiv səbəblərdən Quba qəzasında baş vermiş faciəni müfəssəl şəkildə araşdıra bilməmişdir, ona görə də onun təqdim etdiyi rəqəmlər heç də tam deyildir. Lakin sənədlərdə öz əksini tapmış rəqəmlər belə Quba bölgəsində dinc əhaliyə qarşı törədilmiş soyqırımın miqyasını tam təsəvvür etməyə imkan verir.

Bakı şəhərində və Bakı quberniyasında dinc müsəlmanların ermənilər tərəfindən soyqırımına məruz qalmaları Azərbaycanın bölgələrində dərin hiddət doğurmuşdu.

1918-ci ilin mart-aprel ayları ərzində Bakı şəhərində və quberniyasında azərbaycanlı əhalinin soyqırımını həyata keçirmiş erməni-bolşevik dəstələri Bakı, Şamaxı, Lənkəran, Quba, Cavad qəzalarını və Dağıstan vilayətinin xeyli hissəsini ələ keçirərək, bu bölgələrin müsəlman əhalisinin kütləvi qətliamını törətdilər. Ələ keçirdikləri ərazilərdə Bakı XKS öz səlahiyyətli nümayəndələrini – komissarları təyin etmişdi. XKS-nin dekretləri ilə bütün qəzalarda köhnə hakimiyyət orqanları ləğv edilərək yeni sovet orqanları yaradılmışdı. Sovet hakimiyyətini möhkəmlətmək və ən əsası müsəlman kəndlilərini öz tərəfinə çəkmək üçün ələ keçirilmiş qəzalarda kəndli qurultayları keçirildi və bolşeviklərin aqrar proqramı təbliğ edildi.

Bakı quberniyasında öz məqsədlərinə nail olan bolşevik-daşnak güruhu tez bir zamanda bütün Azərbaycanda və Cənubi Qafqazda, xüsusən Gəncədə hakimiyyəti ələ keçirmək niyyəti güdürdü. Bunun üçün qərb istiqamətində hücum planı da hazırlanmışdı. Bu planı siyasi-ideoloji cəhətdən əsaslandırmaq üçün Şaumyan mifik “türk, müsəlman təhlükəsi”ni qabardır və göstərirdi ki, bolşeviklər dözümsüzlük göstərib hücuma keçməsəydilər və onlar (Azərbaycanın milli qüvvələri - K.İ.) Bakıda üstün gəlsəydilər, şəhər Azərbaycanın paytaxtı elan edilərdi, bütün qeyri-müsəlman ünsürləri tərk-silah edib qırardılar.

Şaumyan Leninə yazdığı 23 iyun 1918-ci il tarixli məktubda təəssüflə bildirirdi ki, biz Bakıdakı vətəndaş müharibəsindən sonra az qüvvə ilə Gəncəyə hərəkət etmiş olsaydıq daha yaxşı olardı. Onda vəziyyət çox yüngül idi. O bildirirdi ki, hələ 1918-ci ilin yanvarında Gəncəyə hücum edilməli idi. O zaman Azərbaycan milli qüvvələrinin Türkiyə ilə əlaqələri zəif idi. Və Gəncəni cəbhədən qayıdaraq Bakıda toplaşmış rus alaylarının köməyi ilə almaq olardı.

Bolşeviklər regionda hakimiyyəti ələ keçirmək üçün əsas ümidlərini Sovet Rusiyası ilə yanaşı, ermənilərin üsyanı ilə bağlayırdılar. Bakı Sovetinin liderlərindən biri olan Q. Korqanov yazırdı ki, Ermənistanda və Gürcüstanda kütlələr Bakı qoşunlarının gəlişini gözləyirlər, onların ümidləri yalnız kənara bağlıdır. O ümid edirdi ki, “sovet qoşunlarının irəliləməsi ilə Ermənistanda və Gürcüstanda üsyan baş verəcək və onlar öz məqsədlərinə çatacaqlar”.

Bakı Sovetinin rəhbərliyində hücumu davam etdirərək Gəncəni ələ keçirməklə bağlı mövcud olan fikir ayrılığı aradan qalxmışdı. Bakı Sovetinin lideri S. Şaumyan RSFSR XKS göndərdiyi 24 may 1918-ci il tarixli məktubunda Yelizavetpola hücuma hazırlaşdıqlarını bildirir, lakin türk qoşunlarının Cənubi Qafqaza gəlmələrindən təşvişə düşdüyünü gizlətmirdi. Şaumyan tez bir zamanda Gəncəyə yeriməyi vacib hesab edirdi ki, “orada, sonra isə başqa yerlərdə ermənilər üsyan etsinlər”. “Əgər bu üsyan baş verməsə və türklər Gürcüstanla Tiflisi öz əllərində saxlayarlarsa, onda biz tamamilə təklənərik və yalnız Abşeron yarımadasını müdafiə etməli olarıq”.

Əlbəttə, Azərbaycan milli hərəkatının liderləri yaranmış təhlükəni aydın dərk edir və vəziyyətdən çıxış yolları axtarırdılar. M.Ə. Rəsulzadə yazırdı ki, təhlükə artıq Gəncəyə gəlmişdi. Bir tərəfdən Gəncə təhdiddə ikən, digər tərəfdən də, Qarabağ erməniləri Bakı bolşevikləri ilə birləşmək üzrə bir plan təsdiq edirlər. Azərbaycanın atəş və qılıncdan keçirilməsi planı. Belə vəziyyətdə M.Ə. Rəsulzadə yeganə xilas yolunu Türkiyənin yardımını əldə etməkdə görürdü.

Bu dövrdə Qarabağ bölgəsində yaşayan ermənilər arasında ciddi fəallaşma hiss olunur, onlar sürətlə silahlanırdılar.

Azərbaycan Cümhuriyyəti hökumətinin yaratdığı FTK-nın üzvü Mixaylovun Gəncə quberniyasının Cavanşir, Şuşa, Cəbrayıl və Zəngəzur qəzalarının ermənilərin qırğınlarından və digər zorakı əməllərindən zərər çəkmiş müsəlman kəndlərinin vəziyyətinin təhqiqi ilə bağlı məruzəsində qeyd edilirdi ki, cəbhələrdən fərarilik edən erməni əsgərlər öz kəndlərinə qayıdarkən özləri ilə çox sayda tüfəng, pulemyot və digər döyüş sursatları gətirirdilər. Mixaylov yazır ki, Rusiyada dövlət çevrilişindən sonra erməni kəndlərinə silah gətirilməsi halları dəfələrlə artmış və o vaxtdan etibarən ermənilər müsəlmanlara açıq düşmən münasibəti göstərməyə başlamışdılar.

Cavanşir qəzasında erməni və müsəlman kəndlərinin yerləşdiyi coğrafi şərtlər də ermənilərə üstün mövqe yaradırdı. Belə ki, qəzanın müsəlman kəndlərinin əksəriyyəti düzənlik ərazidə yerləşsələr də Kolanı və Avaryan cəmiyyətlərinin kəndləri dağətəyi və dağ zonalarında idi və erməni kəndləri ilə əhatə olunmuşdular. 1917-ci ilin sonlarından başlayaraq Kolanı icmasına daxil olan 12 kəndin müsəlman əhalisi erməni silahlı dəstələrinin mütəmadi hücumlarına məruz qalmış, onların digər müsəlman kəndləri ilə əlaqələrini kəsmiş və nəticədə bəzi müsəlman kəndlərinin sakinləri öz kəndlərini tərk etməyə məcbur olmuşdular. Cavanşir qəzası müsəlman komitəsinin ermənilərlə azərbaycanlılar arasında mehriban münasibətlər yaratmaq cəhdləri də bir nəticə verməmişdi. Ermənilər qəzanın düzən kəndlərini də daim terror altında saxlayırdılar. Azərbaycan Cümhuriyyəti yarandıqdan sonra ermənilərin aqressivliyi daha da artdı, müsəlmanlara qarşı hücumlar genişləndi. 1918-ci ilin yayından başlayaraq müsəlmanlara qarşı qətl və qarətlərin sayı da artdı.

Cavanşir qəzasında olduğu kimi, Şuşa qəzasında da azərbaycanlıların yaşadıqları kəndlər erməni kəndləri ilə əhatə olunmuşdu. Bu isə ermənilərə əlavə üstünlüklər yaradırdı. FTK üzvü Mixaylovun yazdığına görə, Oktyabr çevrilişindən sonra Şuşa qəzasının erməniləri sürətlə silahlanmağa başlamışdılar. Buradakı silahlı bandaların sayı cəbhədən qaçmış silahlı əsgər və zabitlərin hesabına daim artırdı. Müsəlmanların passivliyindən istifadə edən daşnaklar qəzada əsas vəzifələri əllərinə keçirməyə nail olmuşdular. 1918-ci ilin əvvəllərindən başlayaraq erməni silahlı dəstələri Şuşa-Əsgəran, Şuşa-Karyagin yolunu tutaraq buradan keçən müsəlmanları qarət edir, silahlarını, ərzaqlarını əllərindən alırdılar. Xankəndində yerləşən rus ordusunun qarnizonunun silah-sursatını, bütün ləvazimatını ələ keçirdikdən sonra ermənilər azərbaycanlılarla müqayisədə Şuşa qəzasında hərbi üstünlüyə malik oldular. 1918-ci ilin martında qəzanın erməni kəndlərində yuva salmış silahlı dəstələr müsəlman kəndlərinə hücum edərək onları dağıtmış, əhalisini didərgin salmışdılar.

Lakin Cəbrayıl qəzasında ermənilərin sayca azlıq təşkil etməsi ilk vaxtlar onları daha tədbirli olmağa vadar edirdi. Onlar məkrli və hiyləgər siyasət yürüdərək qonşu müsəlmanlarla sözdə dinc yanaşı yaşamaq istədiklərini ifadə edirdilər. Müqayisə üçün qeyd edək ki, o zaman Şuşa qəzasında 92, Zəngəzur qəzasında 84 erməni kəndi var idisə, Cəbrayıl qəzasında 174 kəndin cəmi 32-də ermənilər yaşayırdılar. Qəzanın 15 kənd cəmiyyətinin yalnız 3-ü erməni kəndlərindən ibarət idi. Karyagin qəzasında azərbaycanlılar yaşayan kəndlərin əksəriyyəti düzən ərazidə yerləşdiyindən və türk qoşunları burada yerləşdiyindən ermənilər 1918-ci ilin sonuna qədər bu kəndlərə hücum etməyə cəsarət etməmiş, yalnız dağətəyi və dağlıq zonada yerləşmiş kəndlər erməni hücumlarına məruz qalmışdı. Əslində, 1918-ci ilin yazında Yelezavetpol quberniyasının dağlıq ərazilərində - Şuşa, Cavanşir, Karyagin və Zəngəzur qəzalarında yaşayan ermənilərin fəallığının artması, onların gələcək hadisələrə ciddi hərbi hazırlıqlar aparması Bakıdakı bolşevik-daşnak qüvvələri, Tiflisdəki, İrəvandakı erməni mərkəzləri və yerli ermənilər arasında ciddi koordinasiyanın olmasından xəbər verirdi. Lakin Azərbaycan Cümhuriyyətinin elan edilməsi, Qafqaz İslam Ordusunun (QİO) uğurlu döyüş əməliyyatları bu planların həyata keçməsinə imkan vermədi.

1918-ci ilin mart-may ayları ərzində Bakı Sovetinin daşnak-bolşevik qüvvələrinin Bakı quberniyası ərazisində həyata keçirdikləri soyqırımı cinayətləri nəticəsində on minlərlə günahsiz türk-müsəlman həlak olmuş, onların yaşadıqları yaşayış məntəqələri xarabalığa çevrilmişdi. Bu cinayətlər erməni siyasi dairələrinin bolşevizm bayrağı altında gizlənərək öz mənfur niyyətlərini gerçəkləşdirmək planlarının tərkib hissəsi idi. Eyni zamanda, Cənubi Qafqaz hakimiyyətinin regionun müsəlman əhalisini bolşevik-daşnak zülmündən xilas edə bilməməsi də Azərbaycan əhalisində və elitasında xilas üçün yeganə ümid yerinin Osmanlı dövləti olduğu fikrini möhkəmləndirirdi.

Bakı quberniyasında öz məqsədlərinə nail olan bolşevik-daşnak qüvvələri Azərbaycan milli hərəkatını məhv etmək, bütün Cənubi Qafqazda hakimiyyəti ələ keçirmək üçün Gəncəyə, sonra isə Tiflisə hücum planı hazırlamış və həyata keçirməyə başlamışlar. Nəticədə Bakı quberniyasından başqa digər bölgələrin müsəlman əhalisi də erməni silahlı dəstələrinin vəhşiliklərinə məruz qalmışlar. Bu planın əsas həlqələrindən biri də Azərbaycanın Qarabağ, Zəngəzur, Naxçıvan bölgələrində yaşayan ermənilərin hərbi hərəkatı olmalı idi. Şaumyan və kampaniyası öz məkrli planlarının uğurla başa çatmasında bu bölgələrdə yaşayan ermənilərin üsyanına böyük ümidlər bəsləyirdilər.

Lakin Azərbaycan Cümhuriyyətinin yaranması, Qafqaz İslam Ordusunun uğurlu əks-hücum əməliyyatları erməni-bolşevik məkrli planlarının həyat keçməsinə imkan vermədi.

***Kamran İSMAYILOV,***
***AMEA Tarix və Etnologiya İnstitutunun şöbə müdiri, dosent***

Sözün yaddaşı

# Sətirlərindən daman qan...

**Xalqımızın keşməkeşli taleyinin ağrılı səhifələrindən olan 1918-ci ilin mart soyqırımı bədii ədəbiyyatda da geniş əksini tapıb. Ermənilərin əli ilə Bakı, Şamaxı və Qubada Azərbaycan türklərinə qarşı misli görünməmiş qəddarlıqla həyata keçirilən kütləvi qırğınların ağrı-acısı, səbəb və nəticələri, düyünlü məqamları, sovet rejiminin sərt qadağalarına baxmayaraq, bədii ifadələr vasitəsi ilə mümkün qədər işıqlandırılıb.**




Azərbaycanda XX əsrin əvvəllərində, eyni zamanda, əsrin sonlarında mülki əhaliyə qarşı həyata keçirilən erməni soyqırımına ilk siyasi-hüquqi qiyməti görkəmli dövlət xadimi Heydər Əliyev verib. Ölkəmiz dövlət müstəqilliyini bərpa etdikdən sonra beynəlxalq hüququn qəbul etdiyi "Genosid cinayətinin qarşısının alınması və onun cəzalandırılması haqqında" BMT Konvensiyasına qoşulub. Amma, təəssüf ki, bütövlükdə, son 200 ildə erməni vəhşiliklərinin zirvəsi sayılan soyqırımı cinayətlərini (o cümlədən, Xocalı soyqırımını) beynəlxalq ictimaiyyət biganəliklə qarşılayıb. Konvensiyada qeyd olunan "cəzalandırılma" BMT və digər beynəlxalq təşkilatlar tərəfindən cinayətkar Ermənistana hələ də tətbiq olunmur.

Azərbaycanlıların 1918-ci il mart soyqırımı XX əsr Azərbaycan-türk ictimai fikrinin ən görkəmli nümayəndələrindən biri olan böyük mütəfəkkir – yazıçı, publisist və ədəbiyyat tənqidçisi Əlibəy Hüseynzadənin dediyi kimi, "qırmızı qaranlıqlar"da görünməz olsa da, faktları, dəlilləri inkar və təkzib etmək cəhdləri alınmayıb. Xalqımıza qarşı törədilən soyqırımı siyasətinə bədii etirazların təməlini isə Mir Mövsüm Nəvvab ("1905–1906-cı illərdə erməni-müsəlman davası") və Məmməd Səid Ordubadi ("Qanlı sənələr") qoyublar. Cəfər Cabbarlının "1905-ci ildə" dramı da bu sıradadır.

Mart hadisələri qələm sahiblərimizin həyatında da silinməz izlər qoyub. Tanınmış ədəbiyyatşünas Asif Rüstəmli yazır: "Cəfər Cabbarlı ailəsi ilə erməni bandalarının hücumuna məruz qalmış, döyüşlər evlərindən azacıq yuxarı, "Ceyran bağçası" deyilən yerdə getdiyindən o, qadınları, uşaqları və qocaları "Qar anbarı" adlanan sığınacaqda gizlətmişdi. Bir gün sonra isə daha təhlükəsiz yerə – Xızıya aparmaq məqsədilə anası Şahbikə xanımı, əmisi qızı Sona xanımı, böyük qardaşı Hüseynqulunun qızlarını və qonşuları şəhərdən çıxararkən güllə yağışına düşmüş, nəticədə qonşuları Məşədi Əbdülkərim kişi ağır yaralanmış, ailə üzvləri təsadüf nəticəsində ölüm kabusundan xilas olmuşlar".

Tənqidçi, nasir, jurnalist Seyid Hüseyn yazırdı ki, "Mart hadisələri zamanı İsmailliyə binasından çox da uzaq olmayan bir məhlədə erməni əsgərləri tərəfindən mühasirə edilmişdim... Pulemyotların dırıltısını, topların gurultusunu eşidirdim. Erməni bandalarının həbs edərək 3 gün Mailov teatrında saxladığı və yandırmaq istədiyi 4 min nəfər azərbaycanlının içərisində böyük dramaturq Hüseyn Cavid də olmuşdur. Özünümüdafiə dəstələrinin ermənilərin bəd niyyətlərindən xəbər tutması və hadisəyə müdaxiləsi nəticəsində qanlı aksiya həyata keçirilməmişdir".

Üzeyir Hacıbəyli, Məhəmməd Hadi, Mirzəbala Məmmədzadə, İbrahim Xəlil və digər böyük ziyalıların, söz adamlarının mart faciəsinin şahidləri olduqları, bu barədə müxtəlif səpkili əsərlər yazdıqları məlumdur. Cəfər Cabbarlı əsasən Çəmbərəkənd qəbiristanlığında (indiki Şəhidlər Xiyabanında) dəfn olunan mart faciəsi qurbanlarının xatirəsini anmaq üçün "Dur, ey xar olan millət" adlı mərsiyə də yazıb. Həmin mərsiyə təkcə şəhidlərin yas məclislərində günahsız qurbanlar üçün göz yaşı tökmək üçün deyil, həm də xalqı maskalı düşmənə qarşı səfərbər etmək məqsədilə oxunub:

***Gülzari-vətən soldu,***
***Millət xari-zar oldu,***
***Hamı payimal oldu,***
***Dur, ey xar olan millət…***

Göründüyü kimi, mərsiyə yas mərasimlərində oxunmaq məqsədilə yazılsa da, dərin ictimai məzmun daşıyır. Böyük dramaturqun "Əhməd və Qumru" hekayəsi də eyni mövzuya həsr olunub. Müəllif, valideynləri erməni quldurları tərəfindən qətlə yetirilmiş, evləri dağıdılmış Əhməd və Qumrunu "Böyük pəncərələri qara kömürlərə dönmüş, altun divarları matəmlərə bürünmüş", "əti tökülmüş baş skeletinə bənzəyən möhtəşəm" İsmailiyyə binasının önündə dilənçi vəziyyətində qarşılaşdırır. Asif Rüstəmlinin yazdığına görə, Cəfər Cabbarlının "Bakı müharibəsi" adlı dramının mətni əldə edilməsə də, afişa və qəzet məlumatlarından aydın olur ki, əsərin ilk pərdələri mart faciəsindən, Bakıda törədilən ağlasığmaz dəhşətlərdən bəhs edir. O zamankı qəzetlərdə hiyləgər Stepan Şaumyanın və digər ermənilərin əsl iç üzünü açan obrazlarını "Bakı müharibəsi"ndə müəllifin peşəkarlıqla yaratdığı bildirilir.

Mart soyqırımının ədəbiyyatda bədii əksindən danışarkən "Əli və Nino" romanının da adı mütləq çəkilməlidir. Ötən əsrin 20-ci illərində yazılan bu əsərdə Cümhuriyyət dövrünün siyasi hadisələrinə də toxunulub. Əsərdə bir sıra kölgəli məsələlərə işıq salınıb və Bakı qırğınlarının dəhşətli səhnələri təsvir edilib. Romanın qəhrəmanları Əli xan, Nino, Məhəmməd Heydər, Seyid Mustafa, Əsədulla, İlyas bəy qırğın ərəfəsində şəhəri müdafiə edib, əhalini erməni bandalarının hücumlarından qoruyublar.

Məhəmməd Hadi "Şühədayi-hürriyyətimizin ərvahinə ithaf" şeirində Mart hadisələrinə münasibətini belə bildirir:

***Sizin məzarınız iştə qülubi-millətdir,***
***Bu sözlərim ürəyimdən qopan həqiqətdir,***
***Sizi unutmayacaq şanlı millətim əsla,***
***Əmin olun buna, ey zinəti-cəhani-fəna.***

Mir Mövsüm Nəvvab, Seyid Hüseyn, Abdulla Şaiq, Ömər Faiq Nemanzadə, Əhməd bəy Ağaoğlu, Məmməd Əmin Rəsulzadə, Mirzə Bağır Əliyev və başqa ziyalılar da soyqırımı mövzusunu bədii ədəbiyyatda geniş şəkildə ifadə ediblər. Mirzəbala Məhəmmədzadə "Bakı uğrunda müharibə" faciəsinin ilk pərdələrini dostu Cəfər Cabbarlı kimi, mart soyqırımına həsr edib. Məhz o, Bakı faciəsini ilk dəfə öz adı ilə – qətliam adlandırıb, caniləri adbaad göstərib. O yazırdı: "Bu gün Bakının ətrafında axan neft çeşmələri qan çeşmələrinə mübəddəl olmuşdur. Bu gün Bakı sahilini yuyan Quzğun dəniz qan dənizinə çevrilmişdir. Bu gün şaumyanlar, suxartsyevlər... oyanmış türk mənliyini... öldürmək üçün daşnak qüvvələrinə müraciətən unudulmayacaq qanlı günlər vücudə gətirmişdilər". Müəllifin "Əksinqilabçılar" hekayəsi də mart qətliamı mövzusunda maraqlı və ibrətamiz əsərdir...

Ən dəhşətli bəşəri soyqırımı aktlarından olan Xocalı faciəsinin bədii ədəbiyyatda əks etdirilməsi istiqamətində uğurlu əsərlərin yaranması ciddi milli-mənəvi vəzifə və zəruri mənəvi ehtiyac olub. Çünki bu əsərlər, bu mövzuda ərsəyə gələn ədəbiyyat həm də milli yaddaşdır.

Nəriman Həsənzadənin "Beynəlxalq məhkəməyə, bütün millətlərə", Fikrət Qocanın "Hər gecə Xocalıda", Zəlimxan Yaqubun "O qızın göz yaşları", İltifat Salehin "Şəhid Xocalı", Şahmar Əkbərzadənin "Ölü torpaqlara məzar qazılmır", Söhrab Tahirin "Xocalı qırğını", "Dörd yaşında gəlin", "Öldür məni", Qəşəm Nəcəfzadənin "Xocalı mövsümü – fevral", Nurəngiz Günün "Xocalı simfoniyası", Elxan Elatlının "Cəhənnəmdən gələn səs", italiyalı şair-bəstəkar Davide Qualtierinin "Xocalı" əsərlərində, eləcə də başqa çoxsaylı kiçik və irihəcmli nümunələrdə Əsrin faciəsi bütün ağırlığı ilə təqdim və təhlil olunur. Mübarizə ruhu və qələbə idealları bu əsərlərdə xüsusi yer alır. Nəriman Həsənzadə öz şeirində Xocalı dəhşətlərindən tək bir hissəni – 2 aylıq bir çağanın ölümünü aparıcı hadisəyə, məğzə çevirir, onunla bütün hadisənin, vəhşilik və qeyri-insaniliyin dərəcəsini göstərməyə müvəffəq olub.

Nəhayət, qeyd edək ki, arxivlərdə, mətbu orqanlarda soyqırımı ilə bağlı kifayət qədər faktlar var. Hadisələrin bədii ədəbiyyatda ifadəsi isə hər zaman aktual olub. Amma yenə də azdır. Təsadüfi deyil ki, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev alimlərimizin erməni faşizmini hərtərəfli ifşa etməli olduqlarını xüsusi vurğulayıb: "Hesab edirəm ki, tarixi paralellər əsasında çox böyük əsərlər yaradılmalıdır". Dövlət başçısının bu sözləri tariximizin qaranlıq səhifələrinə gur işıq salmaq, aydınlıq gətirmək, xüsusilə azərbaycanlıların soyqırımı faciəsi haqqında daha ətraflı, yeni məlumatların əldə olunması məqsədilə tədqiqatçıları, yazıçıları bu istiqamətdə daha da fəallaşmağa səfərbər edir.

***Ə.ƏLİYEV***
***XQ***

## Dünyanı qoruyaq soyqırımlardan



*Soyqırım haqqında düşünəndə mən,*
*Dilimdə söz donur, damarımda qan.*
*Bir ağrı, inilti keçir içimdən,*
*Bəlalar çəkmişik soyqırımlardan.*

*Kədərdi, əzabdı, qorxuncdu, bəddi,*
*Sinədə qovrulan dərddi soyqırım.*
*Gözləmir qanunu, gözləmir həddi,*
*Gavur ermənidi – şərdi soyqırım.*

*Adı Şaumyandı, soyadı Vazgen,*
*Yurdumda daş üstə daşı qoymadı.*
*Təkqulaq cəlladdı – geni həmin gen,*
*Türk qanı tökməkdən dinsiz doymadı.*

*Talandı neçə yol Naxçıvan, Gəncə,*
*Od tutdu Şamaxı Bakıya qədər.*
*Uşağı, qocanı öldürüb öncə,*
*Tarixə əbədi əkdi qəm-kədər.*

*Döndü qasırğaya torpağımızda,*
*Evlərin, qəlblərin çırağı söndü.*
*Yaman qəddar oldu Xocalımızda,*
*Bütün soyqırımlar yalana döndü.*

*Soyqırım haqqında danışanda mən,*
*Dilimdə söz coşur, damarımda qan.*
*İçimə bir haray dolur qeybdən:*
*– Dünyanı qoruyaq soyqırımlardan!*

***İbrahim YUSİFOĞLU***

## Soyqırımı

*26 fevral, o qanlı gecə,*
*Böyük bir faciə gördü Xocalı.*
*Yer-göy də ağladı onun halına,*
*Viranə şəhərə döndü Xocalı.*

*Bu cür faciəni unutmaq olmaz,*
*Bu bir soyqırımdır, dünya sussa da.*
*Misli görünməmiş bu vəhşiliyi,*
*Bizlər unutmarıq, kim unutsa da.*

*Cəzasız qalmadı bunu edənlər,*
*Mərd oğullarımız hesab sordular.*
*Qisas qiyamətə qalmayacaqdı,*
*Bunu o qatillər unudurdular.*

***Elvin ELXANOĞLU***

## Tarix unutmaz sizi

*Xocalı qisasını*
*Alıbdır igidlərim.*
*Artıq Zəfər marşını*
*Çalıbdır igidlərim.*

*Xocalı soyqırımı,*
*Yaddan çıxmaz heç zaman.*
*Günahsız insanlara,*
*Düşmən verməmiş aman.*

*Alındı 44 günə,*
*Xocalının qisası.*
*Qazandığımız Zəfər,*
*Babaların mirası.*

*İgid oğullarımız,*
*Tarix unutmaz sizi.*
*Bizə Zəfər yaşadıb,*
*Tarixdə qoydunuz izi.*

***Nicat İSMAYILOV***

# Ədalət ünvanlı, qələbə soraqlı şeirlər



## Şəhidlər

*Qatil gülləsinə qurban gedərkən,*
*Gözünü sabaha dikdi Şəhidlər.*
*Üçrəngli bayrağı öz qanlarıyla,*
*Vətən torpağına çəkdi Şəhidlər…*

*Zalım öyünməsin zülmləriylə,*
*Min bir böhtanıyla, min bir şəriylə.*
*Həqiqət uğrunda ölümləriylə,*
*Ölümü kamına çəkdi Şəhidlər…*

*O şənbə gecəsi, o qətl günü,-*
*Mümkünə döndərdik çox namümkünü.*
*Xalqın qəlbindəki qorxu mülkünü*
*O gecə dağıdıb sökdü Şəhidlər…*

*Tarixi yaşadıb diləyimizdə,*
*Bir yumruğa döndük o gecə biz də.*
*Yıxıb köləliyi ürəyimizdə*
*Cəsarət mülkünü tikdi Şəhidlər…*

*Onlar susdurulan haqqı dindirər,*
*Qaraca torpağı qiymətləndirər.*
*Donan vicdanları qeyrətləndirər,*
*Axı, el qeyrəti çəkdi Şəhidlər…*

*Bilirik, bu bəla nə ilkdi, nə son,*
*Ölürkən uğrunda bu Ana yurdun –*
*Quzu cildindəki o qoca qurdun,*
*Doğru, düz cildini çəkdi Şəhidlər…*

*Dözdü hər zillətə, dözdü hər şeyə,*
*" Dünyada mənim də haqqım var", – deyə*
*Kütləni xalq edən müqaviləyə,*
*Qanıyla qolunu çəkdi Şəhidlər…*

*İnsan insan olur öz hünəriylə.*
*Millət, millət olur xeyri, şəriylə,*
*Torpağın bağrına cəsədləriylə,*
*Azadlıq tumunu əkdi Şəhidlər.*

***Bəxtiyar VAHABZADƏ***

## Xocalım, ay Xocalım!



*Bu dağların qoynunda yaşıl bir kənd varıydı,*
*Əlvan saray, güllü bağ, gen aynabənd varıydı.*
*Neçə dodağı şəkər, söhbəti qənd varıydı,*
*Neçə incəbel gözəl, zülfü kəmənd varıydı.*
*Yoxdu daha, nağıldı,*
*İtdi, batdı, dağıldı.*
*Mənim şirin qafiyəm, mənim üççə hecalım,*
*Xocalım, ay Xocalım!*

*Ağzından alov saçan silahlar yedi səni,*
*İştahalar, nəfslər, tamahlar yedi səni.*
*Bağışlanmaz, yuyulmaz günahlar yedi səni,*
*Göydə Allahı danan "allah"lar yedi səni,*
*Heç Allah götürərmi qisasımı gec alım?*
*Xocalım, ay Xocalım!*

*Neçə ki yer üzündə yamanlar, pislər yaşar,*
*İçi dolu qurd olan nankor xəbislər yaşar,*
*Dumanlı beyinlərdə dumanlı hisslər yaşar,*
*Neçə ki bu şeytanlar, cinlər, iblislər yaşar,*
*Gərək hər gün, hər saat yağılardan öc alım,*
*Xocalım, ay Xocalım!*

*Quruyub cadar olmuş dodaqlara nə deyim?*
*Kəsilmiş biləklərə, barmaqlara nə deyim?*
*Qar içində buz olmuş ayaqlara nə deyim?*
*Yaxınlar eşitmirsə, uzaqlara nə deyim?*
*Tanrı rəva bilməsin, mən bu dərdlə qocalım,*
*Xocalım, ay Xocalım!*

*Sənə yas verənlərə yas dalınca yas gərək,*
*İgidlərim öyməli, oğullarım xas gərək.*
*Dəmirdən geyim gərək, poladdan libas gərək,*
*Ölümə ölüm gərək, qisasa qisas gərək,*
*Gərək səndən ötəri qala yıxım, bürc alım,*
*Xocalım, ay Xocalım!*

***Zəlimxan YAQUB***

## Silahlan

*Bu sərt, ağır günlərdə mən –*
*Ali Baş Komandan*
*olsam, olmasam belə*
*Azərbaycan adından əmr edirəm: – Silahlan!*

*Silahsız dayanmağa bir*
*qırpım da haqqın yox.*
*Gözlərin – qoşalülə... Kirpiklərin güllə, ox.*
*Bilirəm düşmənlərin bərk durub keşiyində,*
*Alınmışdır əlindən hətta ov tüfəngi də.*

*Nə qəm, kinlə silahlan!*
*Topdan, tüfəngdən üstün,*
*Tankdan, raketdən güclü*
*Qeyrətinlə silahlan!*

*Arxalı köpəklərə nifrətinlə silahlan!*
*Xiyabani ruhunu alışdır nəfəsinlə,*
*cürətinlə silahlan!*

*Bilirəm, Elbrusdan, Savalandan ağırdı*
*çiynində sənin yükün.*
*Telegüzgü, radio, mətbuat çoxdan ölgün.*

*Yox, sən ölməməlisən!*
*Hələ ki, gedib-gələn nəfəsinlə silahlan!*
*Qəfəsdəsənmi? Qır, sök, qəfəsinlə silahlan!*

*Sən bizim şeirimizdən, nəsrimizdən güclüsən.*
*Əsrimiz qəhrəmandır, əsrimizdən güclüsən.*

*37-də batmış, 46-da vurulmuş*
*Nəslimizdən güclüsən.*
*Dodaqlarından qopan neçin amandır, ahdır?*
*Alçaqlara qəzəbli bir baxış da silahdır.*

*Baxışınla, qanınla, vücudunla silahlan!*
*Dön Səməndər quşuna...Yan...*
*Odunla silahlan!*



*Dəyənəklə, kürəklə, daş-kəsəklə silahlan.*
*Nuş et ildırımları bir şimşəklə silahlan!*

*Onlar səni silahsız, pənahsız görmək istər,*
*Sən nəğməylə, marş ilə, nümayişlə silahlan!*
*Bayraq elə özünsən,*
*Qalx, döyüşlə silahlan!*

*Silahlan insanlığa sonsuz məhəbbətinlə.*
*Humanizm adlanan ən böyük sərvətinlə!*

*Hələ heç bir fitvaya, felə, məkrə uymayan,*
*Bircə qarışqanı da tapdamağa qıymayan,*
*Qəlbi ümmandan dərin,*
*Bənövşədən də kövrək,*
*Hətta düşmənlərinə*
*duz-çörək verən xalqım!*

*Çəkinmə bu döyüşdə aləm sənə pənahdır,*
*Sənin gül təmizliyin, saflığın da silahdır.*

*Qanında saflıq adlı daşqın ilə silahlan!*
*Dünyaya məhəbbətin, eşqin ilə silahlan!*

*Vur çatlasın içində, elə bilmə ki, təksən:*
*Yer də, göy də sənindir. Sən qalib gələcəksən!*

***Xəlil Rza Ulutürk***

## 614-cü şəhid



*Qoy, odlasın bu dünyanı*
*Acı dilim, od nəfəsim.*
*Ölüm mənim vüsalımdı,*
*Həyat mənim daş qəfəsim.*

*Qılıncını qından sıyır,*
*Qumbaranı tax kəmərə.*
*Alçaq düşmən əl qaldırıb*
*Ağbirçəyə, südəmərə.*

*İçimizdən, çölümüzdən*
*Başımızı qatan qatdı.*
*Bir gecədə şəhidlərim*
*613-ə çatdı.*

*Vətənimi fitnə boğdu,*
*Millətimi söz aldatdı.*
*Yerdə qalan bu qan bizi*
*İliyəcən sızıldatdı.*

*Ağlayanın kini olmur,*
*Ağrıyanın daş səbri yox.*
*Külə dönən Xocalıda*
*Şəhidlərin bir qəbri yox...*

*Vətənimin bağlı qalan*
*Yollarına qurbanım var.*
*614-cünün*
*Qollarına qurbanım var.*

*Yağılara göstərəcək*
*Vətən oğlu öz gücünü,*
*Hansı ana doğub görən*
*614-cünü?*

***Ələmdar QULUZADƏ***

**Səhifəni hazırladı: Əli NƏCƏFXANLI**
**XQ**

# Qarabağ sevdalı qazax bacımız

**Tanınmış qazaxıstanlı şairə-publisist Nəsihə Gumarqızı xalqımıza dərin sevgisi olan ziyalıdır. Alma-Ata şəhərində yaşayıb-yaradır, ixtisasca mühəndisdir. Amma son onillər daha çox bədii yaradıcılıqla məşğuldur. Tanınmış araşdırmaçı publisistdir.**

Nəsihə xanım Turan sevdalısıdır, dəfələrlə Bakını, Qarabağı və ölkəmizin digər bölgələrini ziyarət edib, bu səfərlərin nəticəsində onun imzası ilə dəyərli yol qeydləri, oçerklər, kitablar ərsəyə gəlib. İki il əvvəl Azərbaycan, qazax və rus dillərində nəşr etdirdiyi "Qarabağ–evə gedən yol" sənədli-publisistik kitabında əsasən Azərbaycan xalqının mərd, igid oğullarının 44 günlük savaşda göstərdikləri qeyri-adi şücaət və qəhrəmanlıqlar təsvir olunub.

Birinci Qarabağ müharibəsinin şəhid və qaziləri barədə faktlar və bilgilər toplayarkən bəlli olur ki, 1990-cı illərdə Yerbol Barımbetov adlı bir qazax hərbçi könüllü olaraq Qarabağda döyüşərək qəhrəmancasına həlak olub. Məzarı isə İkinci Şəhidlər xiyabanındadır.

Nəsihə xanım Yerbolun döyüş dostlarını axtarıb taparaq cəsur həmyerlisi barədə maraqlı məlumatlar toplayıb. Sonra isə Yerbolun itkin düşdüyünü zənn edən valideynləri ilə görüşüb, onları övladlarının Qarabağdakı şücaətləri barədə məlumatlandırıb. Bütün bunlar onun "Yerbol – Qarabağ şəhidi" adlanan növbəti parlaq publisistik kitabın yazılması ilə nəticələnib.

Yerbol haqqında kitabın Azərbaycanın Qazaxıstandakı səfirliyində, Astana və Alma-Atadakı diaspor təşkilatlarında, eləcə də Bakıda təqdimatları keçirilib. Bu sətirlərin müəllifi bir müddət əvvəl Azərbaycan AMEA-nın elmi kitabxanasında keçirilən görüşün iştirakçısı olub.

Tədbir çox səmimi və işgüzar bir şəraitdə keçdi. Görüşün ən maraqlı məqamlarından biri tanınmış şair Ramiz Qusarçaylının Nəsihə xanımın yaradıcılığından tərcümə etdiyi bir neçə şeiri oxuması olub. Ramiz müəllim dedi ki, qazaxıstanlı şairənin poeziyasında xalqımızın tarixinə, mədəniyyətinə sevgi mövzusu xüsusi bir yer tutur.

AMEA-nın Tarix və Arxeologiya İnstitutunun şöbə müdiri, tarix elmləri doktoru Şahin Fazil çıxışında məmnunluq hissi ilə belə bir fikri vurğuladı: "Son illər böyük bir coğrafi məkanda yerləşən türkdilli xalqlar arasında mədəni əlaqələr güclənir. Düşünürəm ki, Nəsihə xanım kimi dəyərli ziyalılar Turanın sülh elçiləridir. Bunlar hələlik erkən yazda yurdumuza uçub gələn ilk qaranquşlardır. Zərrə qədər şübhə etmirəm ki, onların sayı getdikcə artacaq".

Nəsihə xanım sonda çıxış edərək bir gün əvvəl yenidən Şuşa və Laçında olduğunu, bu unudulmaz səfərdən gözəl təəssüratlarla qayıtdığını söylədi. Bir də onu etiraf etdi ki, nə qədər yazsa da, "Şuşanın sıldırım qayalarına dırmaşaraq şəhəri düşməndən qəhrəmancasına azad edən igidlərin şücaətini təsvir və vəsf etməyə onun qələminin gücü çatmır". Bu səmimi sözlər tədbir iştirakçıları tərəfindən məmnunluq hissi ilə qarşılandı.

Yadımdadır, bir neçə gün sonra qazaxıstanlı şairə Alma-Ataya yola düşdü. Lakin o, Bakını, Azərbaycandakı ürək dostlarını, xüsusilə şəhid analarını, ailələrini heç vaxt yaddan çıxarmır, bir qayda olaraq onları ad günlərində, bayramlarda xoş sözlərlə təbrik edir.

Nəsihə Gumarqızı sosial şəbəkələrdə də çox fəaldır və vaxtaşırı ölkəmizin ictimai-siyasi, mədəni həyatında baş verən dəyişikliklər barədə maraqlı paylaşımlar edir. "Facebook" səhifəsindəki son qeydləri diqqətimi cəlb etdi. Yazıb ki, "Bu gün (dünən-red) Astana şəhərindəki "Sülh və Həmrəylik sarayı"nda tanınmış qazax müğənnisi Əlişir Kərimovun konserti baş tutub. Tədbirdə Əlişirin böyük şövqlə ifa etdiyi "Laçın" mahnısı onu xəyalən yenidən Qarabağın bu gözəl şəhərinə aparıb. Bəli, Qarabağ Azərbaycandır!"



XQ

# Türk musiqisi



**VI YAZI**

Türkiyə Respublikası Avropa ilə Asiyanın qovşağında yerləşir. Ərazisinin 97 faizi Asiyada, 3 faizi isə Avropadadır. Çox əlverişli coğrafi və geosiyasi mövqeyə malik olan bu ölkə əhalisinin sayına görə (85 milyon) Ön Asiyanın ən böyük dövlətidir. Sahəsinə görə türk dövlətləri və qurumları arasında yalnız Saxa və Qazaxıstan Respublikasından geri qalır.

Əsrlər boyu türklərin etnik musiqi mədəniyyətində xalq yaradıcılığı, yəni folklor musiqisi və şifahi ənənəli peşəkar musiqi janrları (ənənəvi və ya klassik) paralel olaraq inkişaf etmişdir. Folklor musiqisi digər türkdilli xalqların musiqisinə yaxın olduğu halda, şifahi ənənəvi peşəkar musiqidə ərəb-fars ənənələri aydın müşahidə edilir.

Türk musiqi mədəniyyəti zəngin Türkiyə tarixinin təzahürü olaraq mürəkkəb və maraqlı şəraitdə formalaşmışdır. Antik dövr, Bizans, ərəb musiqi ənənələri bu ərazilərdə məskunlaşmış səlcuq türkləri tərəfindən assimilyasiyaya uğramışdır. Qədim türk şəhərlərindən olan Konya artıq XI əsrdə iri musiqi mərkəzi idi. Bu şəhərin Dəməşq və Bağdadla sıx əlaqələri vardı. XII əsrdən etibarən türk sultanlarının sarayında peşəkar musiqinin intensiv və fəal inkişafı başlamışdı.

Xalq mahnılarının əsasında duran pentatonika, təqribən, 17 və 24 pərdəli məqamlarla əvəz olunmuşdu. Musiqi təcrübəsində 25 əsas və 60 əlavə məqam istifadə olunurdu. Dəstgahı xatırladan klassik musiqinin iri formaları yaranırdı. Sonrakı dövrlərdə hərbi-orkestr musiqisi – mehtər musiqisi çiçəklənməyə başladı. Avropada yanıçar musiqisi kimi tanınan bu orkestrlərdən avropalılar piatti və böyük barabanları əxz etdilər. Ritmik ostinato prinsipi də məhz türk marşından götürülmüşdür.

XVI əsrdə Türkiyə sultanlarının sarayına Avropa musiqisi nüfuz etməyə başladı. Hətta 1831-ci ildə İstanbula italyan bəstəkarı Cüzeppe Donisetti (məşhur bəstəkar Qaetano Donisettinin qardaşı) dəvət olunmuşdu. Sultan sarayında musiqi məktəbi açılmışdı. Beləliklə, Türkiyədə musiqi saray və xalq musiqisi kimi iki istiqamətdə inkişaf etdi. Onu da qeyd edək ki, türk folklor musiqisinin toplanması ilk dəfə olaraq Rauf Yekta Bəy tərəfindən həyata keçirilmişdir.

Türk xalq musiqi yaradıcılığı özündə digər xalqların folklor musiqisini, vokal, instrumental, mahnı-rəqs musiqisini cəmləşdirir.

Türklər xalq musiqisinə türkü, melodiyaya isə ezgi deyirlər. Türkü sözünün kökü, göründüyü kimi, "türk" sözüdür. "Türk" sözünə "i" şəkilçisi əlavə edilərək türkə xas, türkvari mənasını verən "türki" sözü əmələ gəlmişdir. Belə ehtimal olunur ki, bu ifadəni türk xalqlarının musiqi nümunələrinə əcnəbi xalqlar vermiş, yəni özlərinə aid olmayanı ən qısa sözlə "türki" kimi ifadə etmişlər. Bu söz xalq arasında ağızdan-ağıza keçərək "türkü" kimi tələffüz olunmağa başlamışdır.

Türkülərdə xalqın həyatı, dünyagörüşü, acısı və sevinci öz parlaq əksini tapıb. Unison ifa edilən türkülər obraz zənginliyi, melodiya, ritm və məqam müxtəlifliyi ilə fərqlənir. Əslində, türkü termini vaxtilə Azərbaycanda da işlək olmuş, lakin tədricən bütövlükdə mahnı termini ilə əvəzlənmişdir.

Anadolu türküləri mövzu baxımından belə təsnifatlandırılır: lirik, satirik, olay (tarix), törən və mövsüm, iş və məslək, pastoral, didaktik və oyun türküləri.

Türk xalq musiqisini üslubuna görə iki yerə – kırık və uzun havalara ayırırlar. Kırık havalar türk xalq musiqisində bəhrli janrlara verilən addır. Kırık havaların bir çoxu, eyni zamanda, oyun havasıdır. Karşılama, Halay, Bar, Horon, Bengi, Zeybek, Semah, Teke Zotlaması onlara aiddir. Bunların hamısı melodik və oxunuş baxımından regional özünəməxsusluğa malikdir.

Uzun havalar müəyyən qəlib və qaydalara görə reçitativ tərzdə ifa edilən bəhrsiz havalardır. Hoyrat, maya, kesik, kayabaşı, aydost, yanık və s. adını alanlar bəhrsiz havalardır. Regional özünəməxsusluqlara malik olduqlarına görə kiçik bir səhv onların orijinallığını korlaya bilər. Şərqi, Cənub-Şərqi Anadoluya məxsus olan bu cür bəstə formaları ustad sənətkarların yanında məktəb keçdikdən sonra öyrənilə bilər. Bu isə o deməkdir ki, uzun havalar şifahi ənənəvi peşəkar musiqi növünə aid edilə bilər. Bunların icrası vaxtı instrumental ifanın improvizasiya ilə yaratdıqları melodik cümlələrə "yol göstərmə" və ya "açış" deyilir. Bunun da xüsusi mizrabı, üslub və rəftarı vardır.

Türk xalq və eləcə də sənət musiqisində üsul anlayışı vardır (biz bu anlayışa uyğur və özbək musiqisində artıq rast gəlmişik). Üsullar türk musiqisinin ritm əsasını təşkil edən ritmik şəkillər və formullardır. Türk xalq musiqisindəki üsulların əksəriyyəti sənət musiqisindəki sadə üsullarla oxşardır. Bunların daxilində qərb musiqisindəki üsullara bənzərləri də vardır. Bir qrupu isə heç bir oxşarı olmayan xalq musiqisinə məxsus ritmik şəkillərdir.



Ritmik şəkillər türk sənət musiqisində 3 yerə ayrılır. Bunlar ana üsullar, birləşik üsullar və karma üsullardır.

Türk xalq musiqisində kırık hava və uzun hava üslubunda olan müxtəlif janrlar vardır. Bunlar aşağıdakılardır: Ağıt, Aydost, Bar, Bengi, Bozlak, Divan ayağı, Güvəndə və Gözəlləmə.

Anadolu rəngarəng xalq rəqsləri ilə məşhurdur. Türkiyə türkləri "Halay" rəqsini xüsusi şövqlə ifa edirlər. Bu, orta əsrlərdən bəri gələn və xüsusiyyətinə görə əyləncə oyunlarından tamamilə fərqlənən ayin rəqsidir. "Halay" xalq rəqsi Şərq, Cənub-Şərq və Orta Anadoluda geniş şəkildə yayılmışdır. Orta Anadoluda "Halay" davul-zurna çalınaraq halqavari formada oynanılır.

"Halay" –"alay" sözünün "toplantı" mənasında istifadəsi anlamına gəlir. "Alay" türkcə izdiham", "mərasim", hərbi "alay" mənalarında istifadə edilir.

Bəzi mənbələrdə halay ən geniş yayılmış sıra rəqsi kimi təqdim olunur. Bu rəqs ritmik cəhətdən zəngindir. Əsasən davul, zurna, kaval, sipsi, cığırtma, bağlama alətlərinin müşayiəti ilə xalq musiqisinin oxunması və çalınması ilə ifa edilir.

"Halay"ın Sivas, Erzurum, Elazığ kimi bölgələrdə daha gözəl növləri vardır. Bəzi bölgələrdə isə bu rəqsin sayı azalmış, sadələşmiş "alay" adını almışdır. "Halay"ı ifa edərkən oyunçular halaybaşının əmrinə tabe olaraq hərəkət edirlər. Onlar bir-birinin kiçik barmaqlarından tutaraq, qol-qola girərək, ya da çiyinlərindən tutaraq sıraya düzülürlər.

Müasir türk sənət musiqisinin formalarını əsasən iki şaxəyə ayırmaq mümkündür: instrumental və vokal musiqi. Vokal musiqi də öz növbəsində iki əsas hissəyə ayrılır: dini və dünyəvi musiqi.

Türkiyə makam sənəti Şərq peşəkar musiqi mədəniyyətinin qədim və orta əsrlər tarixində özünəməxsus yerə malikdir. Ənənəvi musiqinin məqam (lad) və forma təşkilinin əsasını makamlar tutur. Türkiyə makamları öz nəzəriyyəsinə, bədii forma və məzmununa, musiqi-quruluş təşkilinə, interval səs sisteminə, bədii-estetik təsir imkanlarına, ifaçılıq ənənələrinə görə olduqca zəngin və müxtəlifdir. Türkiyə sənət musiqisində (ənənəvi professional musiqi sənətində) makamlar 3 yerə bölünür: bəsit, sed və mürəkkəb.

Türk etnik musiqisində istifadə olunan çalğı alətləri bir sıra şərq, o cümlədən türk xalqlarının musiqi təcrübəsində geniş intişar tapmış alətlərdəndir.

Zərb alətləri arasında davul xalq musiqisinin ən səciyyəvi ritmlərini üzə çıxaran alət kimi geniş yayılıb. Anadolunun bir çox yerlərində bu alətə "Meytər" deyirlər.

Davul kiçik, orta, böyük olmaqla üç növə ayrılır. Ən böyüyünün diametri 80-90 santimetr, orta davul 70 santimetr, kiçiyi isə 60 santimetrdir.

Türk xalq musiqisində, həmçinin dəf, darbuka, zilli maşa, kaşık, şaksak kimi alətlər də geniş istifadə edilir.

***Lalə HÜSEYNOVA,***
***Milli Konservatoriyanın professoru, sənətşünaslıq üzrə fəlsəfə doktoru***

**Səhifəni hazırladı: Məsaim ABDULLAYEV**
**XQ**

# Çağdaş türklüyün zəfər ünvanı



**Türkiyənin Uşak Universitetində Türk Dünyası Araşdırmaları Mərkəzi və Azərbaycan Mədəniyyətini Tanıtma Dərnəyinin birgə təşkilatçılığı ilə "Qarabağ: dünən, bu gün və gələcək" adlı konfrans keçirilib.**

Mərasimi giriş sözü ilə açan Uşak Universitetinin rektoru Əkrəm Savaş bildirib ki, tarixdə baş verənləri unutmamaq üçün bu kimi tədbirlərin xüsusi önəmi var. Türk dünyası olaraq güclü olmalıyıq. Biz güclü olmayanda, bizi məhv etməyə, məğlub etməyə çalışırlar. Xocalıda, Qarabağda yaşadıqlarımızı bu gün Fələstində yaşayırıq. Aylardır qadınlar, uşaqlar və günahsız dinc sakinlər qətlə yetirilir. Ona görə də gənclərimizə tövsiyə edirəm: tarixi yaxşı öyrənin, keçmişi unutmayın. Bu gün üçün keçmişdə tökülən göz yaşlarını, qanları, əzabları unutmamalıyıq.

Uşak Universiteti Türk Dünyası Araşdırmaları Mərkəzinin müdiri Kamil Uyğun və Azərbaycan Mədəniyyətini Tanıtma Dərnəyi rəhbərinin müşaviri Naib Ələkbərov mövzu ilə bağlı çıxışlarında xalqımızın Qarabağ zəfərinin tarixi əhəmiyyətinə diqqət çəkiblər.

Egey Universiteti Türk Dünyası Araşdırmaları İnstitutunun şöbə müdiri, professor Vəfa Qurban isə çıxışına Cənubi Qafqaz regionun tarixi və iqtisadi önəmi ilə başlayıb. O, Qarabağ regionun bütün türk dövlətləri üçün vacibliyini qeyd edib, təqdim etdiyi sənədlər vasitəsi ilə vaxtı ilə bölgədə erməni əhalisini süni surətdə artırmaq üçün aparılan işlərdən, ermənilərin Xocalıda törətdikləri amansız soyqırımından danışıb və Azərbaycanın tarixi qələbəsindən sonra Qarabağda aparılan böyük quruculuq işləri haqqında məlumat verib.

Sonra Qarabağ zəfərinin tarixi əhəmiyyətindən bəhs edən Azərbaycanın Türkiyədəki səfirliyinin təhsil müşaviri Nəcibə Nəsibova Xocalı qətliamı haqqında məlumatların dünyaya çatdırılmasında qardaş Türkiyənin böyük rolu olduğunu vurğulayıb. Türkiyənin hər zaman Azərbaycanın yanında olduğunu bildirən müşavir türk xalqına və dövlətinə təşəkkür edib.

Mərasimdə Uşak Universitetinin prorektoru Kenan Taş, fakültə dekanları, peşə liseyi müdirləri, professor-müəllim heyəti və tələbələr iştirak ediblər.

XQ

# Azərbaycan deyəndə



**Vətən mənim bu günüm,**
**Sabahkı toy-düyünüm.**
**Haqqım var ki, öyünüm**
**Azərbaycan deyəndə.**
**Ürəklərdə döyünüm,**
**Azərbaycan deyəndə.**

**"Hər ölkəyə, hər elə,**
**Olsun hörmət", deyirəm.**
**"Vətənindir, vətənin,**
**İlk məhəbbət", deyirəm.**
**"Onun şöhrət tacıdır,**
**Şer-sənət" deyirəm.**
**Mən vətənə, "Füzuli,**
**Abbas Səhhət" deyirəm!**
**Mən vətənə, "Sabiri**
**Doğan qeyrət", deyirəm!**
**Mən vətənə, "Üzeyir,**
**Müşfiq, Səməd", deyirəm!**
**"Günəş kimi müqəddəs**
**Bir həqiqət", deyirəm,**
**Azərbaycan deyəndə.**
**"Dünya məni dinləsin,**
**- Diqqət, diqqət!",**
**deyirəm.**
**Azərbaycan deyəndə!**

**Azərbaycan deyəndə,**
**Ləpələr şairləşir.**
**Anaların bətnində,**
**Qara gözlü körpələr**
**Pələngləşir şirləşir.**
**Azərbaycan deyəndə,**
**Müdrik qocalar kimi**
**Dağlar da fikirləşir.**
**Azərbaycan deyəndə**
**"Haralısan?" sualı,**
**Verənlərə ar olur.**
**Qeyrətlilər birləşir,**
**Qeyrətsizlər xar olur**
**Azərbaycan deyəndə!**

**Dostdan sovqat, muştuluq,**
**Düşməndən bac alaram,**
**Azərbaycan deyəndə!**
**İşıq sütunu kimi**
**Sabaha ucalaram,**
**Azərbaycan deyəndə!**
**Körpüləri, sədləri**
**Sinəmlə parçalaram.**
**Sərhəd məftillərində,**
**Bu kobud əllərimlə**
**Bir muğamat çalaram,**
**Azərbaycan deyəndə!**

**Azərbaycan! - Bu nida**
**Qayaları silkələr.**
**Sal daşların köksündə**
**Çiçək bitər, gül bitər.**
**Azərbaycan deyəndə,**
**Təbim coşar, sel gələr,**
**Sanma şöhrət pərdəsi,**
**Ürəyimi kölgələr,**
**Azərbaycan deyəndə.**
**Gözümdə doğmalaşar**
**Bütün xalqlar, ölkələr,**
**Azərbaycan deyəndə!**

**Tofiq BAYRAM**

# "Manas" atını ekranda çapacaq



**Hollivud (ABŞ), Fransa, Türkiyə və Çin kino şirkətləri arasında 3 saatlıq "Manas" bədii filminin birgə çəkilişləri ilə bağlı danışıqlar yekun mərhələdədir.**

Bu barədə mətbuata filmin prodüseri və ssenari müəllifi Omurzak Tolobekov məlumat verib. Onun sözlərinə görə, beynəlxalq şirkət artıq müqavilə imzalayıb.

"Beynəlxalq korporasiyanın dəstəyi ilə "Manas" filminin birgə çəkilişləri üçün Türkiyənin beynəlxalq "Star Life" şirkətinin prodüseri Serdal Kara ilə müqavilə imzalanıb.

Yaxın vaxtlarda Hollivud, Fransa və Çinin kino şirkətləri ilə də müqavilə imzalanacaq. Maliyyə məsələsi praktiki olaraq həll olunub. Ehtimallara görə, 150 milyon dollar ayrılacaq", – deyə Omurzak Tolobekov bildirib.

XQ

# Türkiyə bələdiyyəsinin “sandıq” imtahanı



**Türkiyə Cümhuriyyətində bu gün yerli özünüidarə orqanlarına seçkilər keçirilir. Qardaş ölkədə, təxminən, 61,5 milyon seçici səs vermək hüququna malikdir. 31 mart seçkiləri təkcə yerli hakimiyyət orqanlarına seçkilər kimi qəbul edilə bilməz. Türkiyə yeni bir demokraya imtahanı qarşısındadır. Qardaş ölkədəki hazırkı seçkilər Türkiyənin ümumi siyasətinə də öz təsirini göstərəcək.**

Seçki ərəfəsində çox böyük fəallığın olması da göstərir ki, türk xalqı belə taleyüklü məsələlərə həssas yanaşır. Türkiyədə seçki prosesinin şəffaf olduğu heç kəsdə şübhə doğurmur. Bundan öncəki seçkilər, orada iştirak nisbətləri və nəticələr buna ən yaxşı sübutdur. 2023-cü ilin mayında keçirilən prezident seçkilərinin birinci turunda iştirak nisbəti 87,04 faiz, mayın 28-də keçirilən ikinci turda isə 85,71 faiz təşkil edib. Bu seçkilərdən sonra partiyaların seçki nəticələrini qəbul etməsi hər kəsin Yüksək Seçim Kurumuna (YSK) inandığına dəlalət edir.

Türkiyədəki mövcud seçki atmosferini bəzi xarici seçki texnoloqları “Yaxın Şərqdə bənzərsiz bir demokratiya” adlandırırlar, bir çox ölkələr üçün örnək olacaq bir demokratik tədbir kimi qiymətləndirirlər.

Şübhəsiz ki, ötən il parlament və prezident seçkilərini qazanan AKP və onun lideri Prezident Rəcəb Tayyib Ərdoğan bu sınaqdan da qələbə ilə çıxmaq və elan olunan “Yeni Türkiyə” çağırışını uğurla davam etdirmək istəyir. Bu görkəmli siyasətçinin ölkənin müxtəlif yerlərində keçirdiyi mitinqlər onun bu seçkilərə necə böyük əhəmiyyət verdiyini göstərir.

Bəzi ekspertlərin fikrincə, bu seçkilər həm də müxalifətin gələcəkdə yeni lider anlayışını da ortaya qoya bilər. Onun nəticələrindən asılı olaraq müxalifətin gələcəyini təyin edə bilər. Bu seçkilərdə məğlubiyyət həm də bəzi siyasi güclərin sonunun başlanğıcı ola bilər. Digər tərəfdən, qazanılacaq qələbələr müxalifətin davamlılığı və ya iqtidarın öz varlığının güclənməsi üçün önəmli olacaq.

Ən böyük reallıq İstanbul başda olmaqla böyük şəhərlərdən gələn nəticələr olacaq. 2019-cu il seçkilərində müxalifətin qazandığı İstanbul, Ankara, İzmir kimi böyük şəhərlərdə seçkiləri iqtidar partiyasına yenidən qazandırmaq üçün R.T.Ərdoğan iqtidarı və onun siyasi ortağı MHP başkanı Dövlət Baxçalı bütün gücünü ortaya qoymuşdur. MHP ilə bir ittifaqda (“Cumhur ittfaqı” ) birləşən AKP keçən il parlament və prezident seçkilərindəki qələbəsini təkrar edəcəyinə inanır. Türkiyənin digər vilayətlərində və böyük şəhərlərində bu ittifaqın və onlara dəstək verən siyasi partiya namizədlərinin qələbəyə yaxın olduqlarını anket sorğuları da göstərməkdədir. Məsələn, Qars bələdiyyəsinə MHP-nin namizədi Azərbaycan kökənli Ötükən Sengerin qələbə çalacağına inanılır. Anadolunun bir çox vilayətlərində, o cümlədən Aralıq dənizi və Qara dəniz sahilindəki vilayətlərdə iqtidarın qələbə problemi olmayacaq.

Bəzi analitiklər Türkiyənin gələcək taleyinin İstanbul, Ankara, İzmir, Bursa, Adana kimi şəhərlərdə həll ediləcəyi qənaətindədirlər.

İstanbulda ana müxalifət partiyası CHP-nin namizədi Əkrəm İmamoğlu ilə AKP-MHP-nin ortaq namizədi Murat Kurum arasında gərgin mübarizə gedəcəyi görünür. Keçirilən müstəqil anket-sorğular göstərir ki, İstanbulda bu iki namizəd arasında səs fərqi bir-birinə çox yaxındır, bəzi sorğularda İmamoğlu, başqa sorğularda Kurum öndə görünür. Prezident Ərdoğan getdiyi bütün yerlərdə İstanbuldakı seçkiləri Kurumun qazanması üçün çalışıb. Müxalif adayın belə bir təbliğatçısı yoxdur və partiyasında olan çəkişmələr və DEM partiyası ilə əlaqələri durumu iqtidar partiyasının xeyrinə dəyişir.

Şübhəsiz ki, bu seçkilərdə digər siyasi qüvvələrin namizədlərinin alacağı səslər də rol oynayacaq. Tərəddüd edənlərin seçimi də seçkinin nəticələrində həlledici ola bilər. DEM, İYİ Partiya, YRP və Zəfər Partiyasının namizədlərinin aldığı səslərin də nəticəyə təsiri olacaq.

Ankarada CHP-nin namizədi Mansur Yavaşla “Cumhur İttifaqı”nın ortaq namizədi Turqut Altınok arasında gərgin mübarizə gedir. İzmirdə Hamza Dağ – Cəmil Tuqay yarışması diqqət çəkir. İzmirdə ənənəvi seçici iradəsini dəyişdirmək çox çətin olsa da, hakim partiya gücünü göstərəcəkdir.

Bu seçkilər Türkiyədə ümumi siyasət üçün də əhəmiyyət kəsb edir. Bəzi siyasi partiyaların gələcəyi sual altına düşə bilər. Türkiyənin bəlli yerləri ilə əlaqəsi kəsilmiş siyasət anlayışı bəzi partiyaları girov götürmüş kimi görünür. Müəyyən proqramı olmayan, prinsipsiz siyasəti ilə seçkiyə gedənlər qalib gəlmək mümkün olmadığını dərk edirlər. Hansısa siyasi qüvvədən səs almaq xatirinə milli və ənənəvi Atatürkçü düşüncədən uzaq olan siyasi təşkilatlar öz üzvlərinin belə dəstəyindən məhrum ola bilərlər.

Müxalifətin əsas təmsilçisi CHP, özünün yüzüncü ilində ən böyük böhranını seçicilərini itirməklə yaşaya bilər. Bu seçkilərdə İstanbul və Ankarada yenidən müxalifətin qalib gələcəyinin çox çətin olduğu fikri cəmiyyətdə, xüsusən də 2023-cü il seçkilərində müxalifətə 45 faiz səs verən seçicilər arasında getdikcə geniş yayılır və güclənir.

CHP və AKP-MHP cütlüyündən başqa seçkilərdə iştirak edən partiyalar da sanki imtahan verirlər. Uğursuzluqlar təsirsiz qalmayacaq, məsələn, bəziləri bu düşüncədədirlər ki, istənilən səs nisbətini ala bilməyən İYİ Partiyası üçün bu seçkilər sonun başlanğıcı ola bilər. Bu seçkilərin digər və ən mühüm təsiri ana müxalifətin mövqeyinə olacaq. Müstəqil ekspert Ali Çarkoğlunun sözlərinə görə, seçicilərin əksəriyyətinin yaşadığı İstanbul, Ankara, İzmir, Bursa və Adanada hakim partiya qalib gələrsə, “Türkiyədə müxalifətsiz siyasi mühit yarana bilər”.

Nəticələrindən asılı olmayaraq 31 mart 2024-cü il seçkiləri Türkiyə demokratiyasının təntənəsi olacaq. Qardaş ölkəyə xeyirli-uğurlu olsun.

***Qafar ÇAXMAQLI,***
***XQ-nin Türkiyə müxbiri***

# “Soyqırımlarının qıra bilmədiyi sarsılmaz iradə”

**Nizami Gəncəvi adına Milli Azərbaycan Ədəbiyyatı Muzeyində 31 Mart Azərbaycanlıların Soyqırımı Gününə həsr olunmuş “Soyqırımlarının qıra bilmədiyi sarsılmaz iradə” mövzusunda anım mərasimi keçirilib.**



Muzeyin direktoru akademik Rafael Hüseynov bildirib ki, Azərbaycan xalqı son iki yüz ildə erməni vandalizmi və terrorizminə məruz qalıb. Erməni millətçiləri xalqımıza qarşı kütləvi qətliamlar, soyqırımı aktları törədib, insanlıq əleyhinə qəddar və amansız cinayətlərə imza atıblar. Belə qanlı cinayətlər sırasında 1918-ci ilin mart–aprel aylarında baş vermiş kütləvi qətliamlar isə miqyasına görə daha dəhşətlidir.

Qeyd olunub ki, Azərbaycan Xalq Cümhuriyyəti qurulduqdan sonra 1918-ci il iyulun 15-də Fövqəladə Təhqiqat Komissiyası yaradılıb və ermənilərin törətdikləri cinayətlər araşdırılmağa başlanılıb. Komissiyanın materialları Paris sülh konfransına göndərilib. Ermənilər tərəfindən 1905–1907-ci, 1918–1920-ci, 1948–1953-cü illərdə xalqımıza qarşı törədilən kütləvi cinayətlər sovet dönəmində gizlədilib və ya təhrif olunub. Keçmişin acı səhifələrinin növbəti nəsillərin yaddaşında həkk edilməsinə, real həqiqətlərin araşdırılmasına imkan verilməyib.

Daha sonra bildirilib ki, Ümummilli lider Heydər Əliyev 1998-ci il martın 26-da imzaladığı “Azərbaycanlıların soyqırımı haqqında” fərmanla ermənilərin soyqırımı aksiyalarına əsl hüquqi və siyasi qiymət verib. Prezident İlham Əliyevin rəhbərliyi ilə aparılan uğurlu siyasət və Heydər Əliyev Fondunun vitse-prezidenti Leyla Əliyevanın təşəbbüsü ilə son illərdə aparılan “Xocalıya ədalət” beynəlxalq kampaniyası çərçivəsində soyqırımı həqiqətləri real faktlar əsasında dünya ictimaiyyətinə çatdırılıb.

Mərasimin sonunda ermənilərin azərbaycanlılara qarşı törətdikləri soyqırımları haqqında hazırlanmış film nümayiş etdirilib.

***Qabil YUSİFOĞLU***
***XQ***

# ABŞ-da seçkilər və Bayden təntənəsinə 500 min dollarlıq bilet

**Prezident Co Baydenin miqrasiya siyasəti Birləşmiş Ştatlarda süngü ilə qarşılansa da, növbəti prezidentlik müddətinə iddialı olan Ağ evin hazırkı rəhbəri bir addım da olsa, geri çəkilmək fikrində deyil. “The Washington Times” nəşrinin bu günlərdə işıq üzü görən sayında qeyd edilir ki, Baydenin hakimiyyətdə olduğu illərdə ABŞ-da miqrantların sayı rekord həddə çatıb.**

İctimai xadimlərin və siyasi elitanın respublikaçılar qanadının narahatlığına səbəb olan əsas məsələ ondan ibarətdir ki, prezident Co Baydenin hakimiyyəti illərində həyata keçirilən miqrasiya siyasəti nəticəsində qeyri-qanuni miqrantlar dalğası ABŞ-ın demoqrafik strukturunu dəyişdirir və təhsil səviyyəsinin kəskin aşağı düşməsinə səbəb olur.



Nəşr İmmiqrasiya Araşdırmaları Mərkəzinin yeni hesabatına istinadən yazır ki, hazırda ABŞ-da 13,7 milyon qeyri-qanuni mühacir var. Ölkədə miqrantların ümumi sayı 51,4 milyon nəfərə çatıb və bu da Baydenin Ağ evə rəhbərlik etməyə başladığı vaxtdan 6,4 milyon nəfər çoxdur. Hesabatda göstərilir ki, Bayden dönəmində ölkəyə hər ay orta hesabla 172 min yeni mühacir gəlib ki, bu da Donald Trampın dövründəkindən, təxminən, dörd dəfə və Barak Obamanın zamanında olduğundan isə üç dəfə çoxdur.

ABŞ-a yeni gələn miqrantların əksəriyyəti Latın Amerikasından keçib. Onların da 3,7 milyonu qeyri-qanuni yollarla gəlib. Mühacirlərin, təxminən, 44 faizi orta məktəbi bitirib və başqa heç bir təhsili yoxdur. Daha əhəmiyyətli bir hissəsi isə hətta orta məktəbi də bitirməyib.

İndi ABŞ-da 2020-ci ilə nisbətən mühacirlər, təxminən, iki faiz artaraq, əhalinin ümumi sayının 15,5 faizini təşkil edirlər. Əvvəlki rekord 14,8 faiz idi və 1890-cı ildə qeydə alınmışdı.

Amma bu, hazırkı prezidentin nüfuzuna təsir edən və onun rəqibi eks-prezident Trampla müqayisədə reytinqinin aşağı olmasına əsas səbəblərdən biri olsa da, sonuncusu deyil. Ölkənin populyar internet televiziya platformalarından biri olan “Fox News” kanalında aparıcı Qreq Qatfeld bildirib ki, ABŞ amerikalıların gözü qarşısında dağılır və bunun günahı prezident Co Baydenin rəhbərlik etdiyi Demokratik Partiyasının siyasətindədir. Qatfeldin fikrincə, rəsmi Vaşinqton Amerika vətəndaşlarının həyatının ən mühüm aspektləri: ədliyyə sistemi, iqtisadiyyat və təhsillə məşğul olmaq əvəzinə, kimlik siyasətinə və xarici münaqişələrə daha çox diqqət yetirir.

Aparıcı deyir: “Dediklərim haqqında düşünün: şəhərlər, sərhədlər, təyyarələr, qatarlar, avtomobillər, körpülər, gəmilər, ədliyyə sistemi, iqtisadiyyat, biologiya, təhsil, mənzil, qocalmış siyasətçilərimiz. Eyni zamanda, əvvəllər bizim relsdən çıxmayan qatarlarımız; qapıları qopub düşməyən təyyarələrimiz var idi; fırıldaqçılar həbsxanada olardı; boş qalmış evləri zəbt edənlər; məktəbə getməyən pozğunlar olmazdı; ən azından bu günü yaşamaq üçün özlərinə embrional dərman iynəsi vurmayan qanunvericilər olardı”.

Qatfeld haqlı olaraq qeyd edir ki, bütün diqqətlər başqa bir şeyə cəmləndikdə digər sistemlər çökür və laqeydlik üzündən nəyinsə səhv getməsi ehtimalı daha da yüksək olur. “Mükəmməl işləyən yeganə şey smartfonlarımızdır”.

Şərhçi təəssüf hissi ilə vurğulayır ki, “sosial mediadakı fəalların dərhal körpünün adının dəyişdirilməsi ilə bağlı danışmağa keçməsi də cəmiyyət olaraq nə qədər qeyri-ciddi olduğumuzun bir göstəricisidir. İki nöqtə arasındakı ən qısa məsafə – bədbəxt hadisələrin qurbanları ilə irqçilikdə ittiham olunanlar arasındakı məsafədir”.

Ölkənin dumanlı və qeyri-müəyyən bir gələcəyə istiqamət aldığı, ciddi problemlərlə yükləndiyi belə bir vaxtda, yenidən 4 il müddətinə onu yönəltmək səlahiyyətinə yiyələnmək iddiasında olan prezident Co Bayden öz dəbdəbəli və milyonlarla dollar vəsait xərclənən seçki kampaniyasını davam etdirir. “The New York Post” nəşri xəbər verir ki, bu günlərdə Bayden Nyu-Yorkda özünün əsas sponsorları ilə, biletlərin qiymətinin yarım milyon dollara qədər olan möhtəşəm tədbirdə görüşüb. Xəbərdə bildirilir ki, qonaqlar arasında Bill Klinton, Barak Obama, Hanter Bayden və Hollivudun bir çox ulduzları olub. Lakin axşam binanın ətrafına toplaşan etirazçılar Baydenin kefinə soğan doğrayıblar. Əllərində müharibə əleyhinə şüarlar yazılmış plakatlar olan nümayişçilər Baydenin hərbi cinayətkar kimi mühakimə olunmasını tələb ediblər.

Açıqlamalara görə, möhtəşəm tədbiri keçirməkdə əsas məram Baydenin seçkiqabağı kampaniyası üçün vəsait toplamaq olub. Etirazçılar “Radio City Music Hall” binasının qarşısına toplaşaraq, Baydenin İsrailə dəstəyini və onun “Rusiya ilə nüvə müharibəsi” təxribatını pisləyən şüarlar səsləndiriblər. Onlar “Ayıb olsun sənə, Co Bayden”, “Cəhənnəm ol, Co Bayden” və “Sənin əllərin qana batıb” qışqıraraq şəhər sakinlərinin və ictimaiyyətin diqqətini cəlb edə biliblər. Fələstin bayraqlarını dalğalandıran bir çox nümayişçi Demokratlar Partiyasını və Ağ evin hazırkı rəhbərini “müharibə cinayətkarı” kimi mühakimə etməyə çağırıblar.

Nəşrin yazdığına görə, izdiham o qədər səs-küylü olub ki, hətta bir məqamda eks-prezident Barak Obama onların qarşısına çıxaraq deyib: “Xeyr, qulaq asın, siz həmişə danışa bilməzsiniz. Bəzən qulaq asmaq lazımdır”. Etirazçılar onu dinləmək belə istəməyiblər.

Bu məqamda meydana Senatın demokratları çıxıblar. Əksəriyyətin lideri Çak Şumer gecənin məqsədinin ikili olduğunu izah edərək deyib: “Birincisi, Trampın xaotik, vicdansız, hiyləgər, səmərəsiz rejiminin keçmişdə qalmasını təmin etməkdir. İkincisi isə Baydeni ikinci müddətə seçməkdir”.

Daha sonra Şumer hazırkı dövlət başçısının ətraf mühitin mühafizəsi, baydenomika, nikah bərabərliyi və “190 mütərəqqi hakim”in təyin edilməsi ilə bağlı əldə etdiyi uğurları vurğalayıb.

Buna baxmayaraq, Şumerin dediklərinin Birləşmiş Ştatların iqtisadi illüstrasiyanı gerçək əks etdirmədiyini “Fox News”un qonağı olan ABŞ prezidenti yanında İqtisadi Məsləhətçilər Şurasının keçmiş sədri Kevin Hasset gerçək faktlarla ortaya qoyur. Aparıcının “iqtisadi artım və məşğulluq üzrə aylıq statistik göstəricilərimiz nə dərəcədə özəl sektorun fəaliyyəti ilə deyil, dövlət xərcləri ilə bağlıdır?” sualına Hasset belə cavab verib: “Şəxsən mən baydenomikaya bu prizmadan baxmağa üstünlük verirəm - baxmayaraq ki, ümumiyyətlə, ona baxmaq qətiyyən xoşuma gəlmir: Əgər pandemiyadan əvvəlki 2019-cu ilə geri dönüb və sonra onu məşğulluq baxımından indiki dövrlə müqayisə etsək, o zaman görərik ki, indi o vaxtdakından 2,3 milyon çox insan əmək fəaliyyətilə məşğuldur. Amma bu 2,3 milyon iş yerini əldə etmək üçün biz qeyri-leqal miqrantlar üçün 3,3 milyon iş yeri yaratdıq. Buradan da belə çıxır ki, 2019-cu ildə ölkədə yaşayan bir milyon insan əmək bazarını tərk edib.

Sual oluna bilər ki, biz qeyri-qanuni mühacirlər üçün bu 3,3 milyon iş yerini necə yaratdıq? Biz bunun üçün Çindən borc almışıq: keçən il daha çox borc aldıq – bu da o deməkdir ki, əhalinin əlində olan dövlət borc kağızlarının həcmi nominal ÜDM-in artımından daha çox yüksəlib. Yəni biz qeyri-qanuni mühacirləri işlə təmin etmək üçün çinlilərdən borc alırıq. Baydenomikanın mahiyyəti də budur”.

“The New York Post” qeyd edir ki, “Radio City Music Hall”da keçirilən tədbirdə bilavasitə cəmiyyətin qaymaqları iştirak ediblər. Əslində, sıradan bir adamın bura düşməsi də mümkün olmazdı, çünki biletlərin qiyməti 500 min dollara çatırmış. Aparıcılardan birinin zarafatla dediyi kimi, “belə pula dövlət katibi ola bilərsən”. Ən səxavətli “donorlar” ulduz fotoqraf Anna Leybovitsin çəkdiyi üç prezidentin – Bayden, Klinton və Obamanın fotosessiyasını alıblar.

Amerika nəşri fondun təşkilatçısı, Hollivud maqnatı Ceffri Kançenberqdən sitat gətirərək yazır: “Rəqəmlər yalan demir: Bugünkü hadisə böyük bir gücün nümayişidir və Baydenlə Harrisin yenidən seçilməsinə doğru həqiqi impulsun real əksidir”.

Belə bir vaxtda, təbii ki, Baydenin əsas rəqibi Tramp da bekar qala bilməzdi. Ağ evin keçmiş sahibi öldürülən Nyu-York polisinin anım mərasimində iştirak edib. O, seçki qərargahının üzvləri ilə bərabər Baydenin dəbdəbəli axşamı ilə bağlı açıqlama verərək bəyan edib ki, o tədbirdə yüzlərlə azğın Hollivud liberalı iştirak edəcək və onlar ölkəmizin məhvini maliyyələşdirmək üçün pul kisələrinin ağzını geniş açacaqlar. Biz birlikdə onların çirkli dollarlarını batıra bilərik, lakin hər şey hazırda birbaşa burada, bilavasitə indi nə qədər dəstək aldığımızdan asılıdır. Unutmayın ki, mənim kampaniyam Hollivud elitası tərəfindən altı rəqəmli çeklər yazmaqla maliyyələşdirilmir. Bu, sizin tərəfinizdən maliyyələşdirilir!”

Qəzet vurğulayır ki, sorğulara əsasən, Baydenin əhəmiyyətli maliyyə üstünlüyünə malik olmasına baxmayaraq, Tramp bu seçki yarışında liderdir. Ağ evin hazırkı sahibinin sərəncamında mart ayına olan məlumata görə, 155 milyon dollar nağd pul var və son bir ayda maliyyə donorlarının kampaniyasında əlavə 53 milyon dollar toplanıb.

Bəli, bu rəqəmlər möhtəşəmdir və bir daha onu göstərir ki, Bayden oliqarx və milyarderlərin dəstəyini təsadüfən qazanmır. Bu üstüörtülü izdivacda “əl əli yuyar” prinsipi istisna deyil. Elə olmasaydı, Baydendən kəskin fərqli olaraq Trampın kampaniya fondunda toplanan vəsait 36,6 milyon dollar olmazdı.

Bütün bunlara baxmayaraq, Baydenin reytinqi Trampla müqayisədə heç də yaxşı bir şey vəd etmir. Bu günlər “Fox News”un aparıcısı Arkanzasın keçmiş qubernatoru Mayk Hakabiyə belə bir sual ünvanlayıb: “Bilirsiniz, hər yerdə pis xəbərlər gəlir. Gördüyüm sorğular göstərir ki, Co Baydenin böyük problemləri var. Siz nə deyirdiniz?”

Keçmiş qubernator buna özünəməxsus şəkildə cavab verərək deyib: “Düşünürəm ki, bu, pis xəbər deyil. Elə bilirəm ki, biz Trampın yenidən seçiləcəyini görəcəyik. Bu əla xəbərdir. Pis xəbər budur ki, insanların Co Bayden haqqında deyə biləcəyi ən yaxşı şey onun heç bir şey etməməsidir. Onun gizlədilməsinə və bayıra buraxılmamasına səbəb onun nitqində buraxdığı səhvləri heç kimin eşitməməsi, səhnədən yıxılmaması, pilləkənlərdən aşağı diyirlənməməsi, cinayət qurbanlarının adlarını səhv tələffüz etməməsidir. Belə vaxtlar onun ən yaxşı günləridir”.

Arkanzasın keçmiş qubernatoru düşünür ki, indi amerikalılar daha ağıllıdırlar və inanır ki, bu seçki artıq təkcə demokratlara və respublikaçılara aid olmayacaq. Bu seçkilər ölkənin qanun, nizam, təhlükəsizlik, sərhəd nəzarəti, iqtisadi reallıq ölkəsi olub-olmayacağı və ya növbəti dörd il ərzində amerikalıların “La La Land” ölkəsində yaşayıb-yaşamayacağı ilə bağlı olacaq.

Gözəl arzudur, təki seçkilər amerikalıların başqalarından tələb etdiyi kimi ədalətli və şəffaf keçsin. Bəlkə onda bu arzular gerçəyə çevrilə...

***İlqar RÜSTƏMOV***
***XQ***

Xalq qəzeti
XQ
xalqqazeti.az
№ 66 (30470) 31 mart 2024-cü il, bazar

# “Özünü xoş ovqata köklə”

## Murad Köhnəqalanın Tuva şamanı Çoçaqar ilə söhbəti



**M. Qorki adına Ədəbiyyat İnstitutunda mənimlə eyni vaxtda təhsil almış tuvalı şaman Viktorla yenidən feysbukda tapışıb söhbətləşdik. Söhbətimizin maraqlı olduğunu düşünüb yayımlamaq qərarına gəldim.**

***– Viktor, o vaxtlar deyirdin, tuvalıların adı pasportda bir cür, ailədə isə başqadır. Sənin adın ailədə necədi?***

– 1954-cü ildən bizim doğum evlərində rus adları yazıb asırdılar ki, doğulan uşaqlara ordan ad seçsinlər. Bizə doğma dilimizdə ad qoymağa icazə vermirlər. Mənim Viktor adım da həmin siyahıdan götürülüb. Ailədə isə adım Çoçaqardı. “Çoçaqar” güclü insan deməkdir.

***– Hazırda harada yaşayırsan, nə ilə məşğulsan?***

– Son dövrlər Rusiyanın müxtəlif şəhərlərində və Avropa ölkələrində şamançılıq, şaman kultu haqda mühazirələr oxumaqla məşğulam. Anam və həyat yoldaşımla paytaxt Kızılda yaşayıram. İki oğlum, bir qızım var, hər üçü ailəlidi, bizdən ayrı yaşayırlar. Anamın 95 yaşı var. Onun atası lamaist olub. Mən ata xəttinin davamçısıyam, yəni tenqriçiyəm. Mənə verilən ata babamdan gələn şamanlıqdı.

***– Şamanlarda qaval nə üçündü?***

– Şamanların qavalı üç hissəyə bölünür, alt dünya, orta dünya və üst dünya. Orta dünya biz yaşadığımız məkandı. Alt dünya xəstələrin, əzabkeşlərin və ölənlərin məkanıdı. Üst dünya isə əcdadlarımızın qutsal ruhlarının yaşadığı məkandı. Üst dünyanın sahibi Xan Tenqri, alt dünyanın sahibi isə Erlik Xandı. Şamanlıq verilən gənc vergi zamanı müxtəlif formada xəstələnərək alt dünyaya düşür. Şamanlar onun ruhunu xilas edərsə, yəni həmin vergili gənc xəstəlikdən salamat çıxarsa, ona qaval və xüsusi libas hədiyyə edilir. Onlar uzun illər qavalın aşağı və orta hissələrindəki nöqtələri dambıldadıb alt və orta dünyayla məşğul olurlar. Belə gənclər qara şaman adlanırlar.

***– Qara şaman?***

– Bəli, bizdə, Qərbi Tuvada "qara şaman" sözü neqativ işlərlə məşğul olan şaman anlamına gəlmir. Qara şamanlar müəyyən kamillik dərəcəsinə çatdıqdan sonra üst dünya ilə əlaqəyə can atırlar. Üst qatdakı əcdadlarının ruhları ilə əlaqəyə girə bilən, yəni qavalın üst hissəsini vurmağa icazəsi olanlar artıq ağ şaman adlanır. Ona görə ağ şamanlar əsasən qavalın üst qatında dambıldadır və əcdadlarının ruhunu oyadaraq bütün sualların cavabını onlardan alırlar. Həm də ağ şaman məqamına çatanlar öz geyimlərini geri qaytarır və bundan sonra şaman libası geyinmirlər. Mən, artıq on altıncı ildir ağ şamanam, buna görə şaman libası geymirəm.

***– Görüşdüyün başqa şamanların dünyagörüşü haqda qısaca nə deyə bilərsən?***

– Əsasən, yaşlı şamanlarla söhbətləşməyə üstünlük verirəm. Hər bir şaman fərddir, öz fəlsəfəsi var. Onlar düşündüklərini nadir hallarda açıq deyirlər. Dolmuş şamanlar özlərini heç nə bilmir kimi aparırlar. Hərəsinin öz yolu olduğundan heç vaxt mübahisə eləməzlər.

***– Bir şaman kimi, sənin dünyagörüşün nələrə söykənir?***

- Dünyada heç bir canlıya zərər toxundurmamaq! Onların azadlıq haqqına girməmək! Hər bir canlının yaşamasına kömək etmək! Ən azı, onlara mane olmamaq!

***– Bir az geniş danışa bilərsənmi?***

– Çox danışa bilməyəcəm, çünki səyahət etdiyim astral aləm bu dünyaya qapalıdır, gərək bağışlayasan. Bir onu deyə bilərəm ki, həmişə düşüncəndə pozitiv olmalısan. Pozitiv şeylər düşünmək üçün öz düşüncələrini idarə edə bilməlisən. Neqativi silib daima pozitiv düşünmək çətindi, əlbəttə. Bu cür düşüncə yüksəkliyini əldə etməyə illər sərf olunur. İnsanın bütün əməllərinin mənbəyi onun öz düşüncələridi.

***– Bəs, şamanlar necə qidalanır? Şəxsən sənin xüsusi qida rasionun varmı?***

– Bəzi hind təlimlərində vegeterianlıq təbliğ olunur. Çünki əksər inanc və təlimlər ətraf mühitə, coğrafi şəraitə uyğunlaşdırılır. Onlardan fərqli olaraq, bizim xüsusi pəhrizimiz yoxdur. Məsələn, Tuva şamanları canavarın maralı yeməsinə təbiətin harmoniyası kimi baxır. Əsas motivasiya budur: nə üçün yeyirsən?

***– Tanrını necə təsəvvür edirsən?***

– Mənim tanrım realdır: Atam və Anam. Onlar mənə bu bədəni verməsəydi, indi burada səninlə olmazdım. Biz öldükdən sonra bədənimiz torpaqdan baş qaldırıb başqa-başqa formalarda canlılara çevrilir. Ona görə hər bir canlını əcdadlarımızın əlaməti sanıb onlara xeyirxah yanaşmalıyıq. İdrakımız isə əcdadlarımızdan bizə ötürüldüyü kimi, bizdən də gələcək nəsillərə ötürülür.

***– Viktor, bir dost kimi mənə nələri tövsiyə edərdin?***

- Keçmişi unut, gələcəyi düşünmə! İndini yaşa! Anlarını duy! Həmişə yenilən! Mözücə sənin ətrafındadı, hər an möcüzə gözlə! Keçmiş keçib, gələcək naməlumdu. Nə qədər pozitiv düşünsən gələcək səni o qədər xoş üzlə qarşılayacaq. Ölümünü daim özünlə gəzdir, onda yığcam olacaqsan! Belədə, bu həyatdan növbəti həyata rahat keçəcəksən!

***– Düşüncələri cilovlamaq, yalnız pozitiv düşünmək çox çətindir?***

– Bəli. Bu təlimə düz 26 il sərf elədim və ağ şaman oldum. Artıq, neqativ şeylər haqda düşünə bilmirəm. Hansı canlı, əşya, hadisə olur-olsun, onları yalnız xoş ovqatla anıram.

***– Təşəkkür edirəm, əziz dost!***

– Əcdadlarımın inancına maraq göstərdiyin üçün sənə minnətdaram!

## İdman

### Azərbaycan futbolunda yeni rekord




**“Qarabağ” Azərbaycan çempionatları tarixində yeni rekorda imza atıb.**

Qurban Qurbanovun yetirmələri 2023/2024-cü illər mövsümünün çempionu adını XXVIII turda təmin ediblər. Belə ki, Ağdam klubu sona 8 tur qalmış qızıl medala sahib çıxıb.

Xatırladaq ki, əvvəlki rekord da ağdamlılara məxsus idi. 2015/2016-cı və 2017/2018-ci illərdə sona 4 tur qalmış çempionluğu təmin edən klub bu dəfə rekordu ikiqat üstələyib.

### “Böyük dəbilqə”: Cüdo gümüşü



**Türkiyənin Antalya şəhərində keçirilən “Böyük dəbilqə” turnirində Azərbaycan cüdoçusu uğurla çıxış edərək mükafatçılar sırasında yer alıb.**

Kişilər arasında 73 kiloqram çəkidə Rəşid Məmmədəliyev bolqarıstanlı Mark Xristov, niderlandlı Heg Koen, Türkiyə təmsilçisi Kandemir Bayram, daha sonra özbək Şaxram Əhədova qalib gələrək yarımfinala vəsiqə qazanıb. İdmançımız final uğrunda mübarizədə türkiyəli Dəmirəl Umaltı məğlub etsə də, həlledici mərhələdə moldovalı Adil Osmanova uduzaraq 2-ci yerlə kifayətlənib.

Yarışda Azərbaycan 9 cüdoçu ilə təmsil olunub.

### Bakı kəndlərinin minifutbol turniri

**Gənclər və İdman Nazirliyi ilə Bakı Abadlıq Xidmətinin təşkilatçılığı, AFFA-nın dəstəyi ilə martın 30-da Bakının 32 kənd və qəsəbəsinin uşaq futbol komandalarının birincilik uğrunda mübarizəsi başlayıb.**



Azərbaycanda futbol oyunlarının tarixi Bakı kəndləri ilə bağlı olduğu üçün turnirin Bakı kəndlərinin məktəbliləri arasında keçirilməsi simvolik mahiyyət daşıyır. Yarışda 64 matç təşkil ediləcək. Turnirin final matçı mayın 10-da oynanılacaq. İlk 3 yerin sahiblərinə pul mükafatları, iştirakçılara dəyərli hədiyyələr təqdim ediləcək.

Qeyd edək ki, ikinci dəfə təşkil olunan turnirdə əsas məqsəd yeni istedadların üzə çıxarılması, uşaq futbolunun inkişafı və təbliği, eyni zamanda yeni nəsildə komanda şüurunun formalaşmasıdır. 2022-ci ildə keçirilmiş ilk turnirin qalibi Yeni Suraxanı komandası olub.

***Leyla SABİRQIZI***
**XQ**



### “Telegram”ın yeni funksiyaları

**“Telegram”ın ən son “Beta” versiyasındakı kanallarda reklamları və digər yeni funksiyaları söndürmək imkanı olacaq.**

“Telegram” kanallarının sahibləri 20 və daha yuxarı səviyyəyə çatdıqda messencerdə quraşdırılmış reklamları deaktiv edə biləcəklər. Bu, bütün abunəçilər üçün reklam blokunun nümayişini dayandıracaq.

Monetizasiya funksiyası kanal sahibləri üçün də təqdim ediləcək. Onlar gəlirlərin 50 faizini ala biləcəklər və ödənişlər TON kriptovalyutası ilə həyata keçiriləcək. Bu funksiya Azərbaycanın bütün bölgələrində işləməyəcək. Bundan əlavə, biznes hesabları yaradan istifadəçilər həm də söhbətlər üçün “giriş” əldə edə biləcəklər ki, bu da müştərilərin həmin hesabda yazmadan əvvəl görəcəkləri mesajdır.

Qeyd olunan funksiyaların “Android”, “iOS” və “PC”-də “Telegram”ın sabit quruluşlarında nə vaxt görünəcəyi hələ məlum deyil.

***Rizvan FİKRƏTOĞLU***
**XQ**

## Hava



### Yağmursuz, amma küləkli və dumanlı...

**Ekologiya və Təbii Sərvətlər Nazirliyi Milli Hidrometeorologiya Xidmətinin verdiyi məlumata əsasən, martın 31-də Bakıda və Abşeron yarımadasında havanın dəyişkən buludlu olacağı, arabir tutulacağı gözlənilir. Gecə və səhər bəzi yerlərdə yağış yağacağı ehtimalı var.**

Arabir güclənən şimal-qərb küləyi əsəcək, gündüz mülayimləşəcək. Gecə 5-10°, gündüz 12-17° isti olacaq. Atmosfer təzyiqi 766 mm civə sütunundan 769 mm civə sütununa yüksələcək, nisbi rütubət gecə 70-80, gündüz 55-60 faiz olacaq. Azərbaycanın rayonlarında bəzi yerlərdə arabir yağıntılı olacağı, dağlıq ərazilərdə qar yağacağı gözlənilir. Ayrı-ayrı yerlərdə intensiv olacağı, şimşək çaxacağı, dolu düşəcəyi ehtimalı var. Səhər yağıntılar tədricən kəsiləcək, gündüz əsasən yağmursuz keçəcək. Gecə və səhər arabir duman olacaq. Mülayim şərq küləyi əsəcək. Havanın temperaturu gecə 5-10°, gündüz 16-21° isti, dağlarda gecə 0-5° şaxta, gündüz 0-5° isti olacaq.

***Q. QASIMOV***
**XQ**

## Lütfəli Abdullayev – 110

### Milyonları güldürən ciddi sənətkar

**Azərbaycan Dövlət Akademik Musiqili Teatrında görkəmli teatr və kino aktyoru, Xalq artisti Lütfəli Abdullayevin anadan olmasının 110 illik yubileyi münasibətilə tədbir keçirilib.**





Mərasimdə Əməkdar artist Əkbər Əlizadə çıxış edərək böyük sənətkarın həyat və yaradıcılığı barədə danışıb. O qeyd edib ki, Lütfəli Abdullayev vaxtilə bu məkanda Məşədi İbad obrazında səhnəyə çıxıb. “Arşın mal alan” operettasında Vəli rolunu oynayıb. 1938-ci ildə – Azərbaycan Dövlət Musiqili Komediya Teatrı yaranında truppaya qəbul edilib. Sonra dahi bəstəkar Üzeyir Hacıbəylinin “O olmasın, bu olsun” musiqili komediyası nümayiş etdirilib. Qeyd edək ki, səhnə əsərinin quruluşçu rejissoru Xalq artisti Cənnət Səlimovadır.

Tamaşada Əməkdar artistlər Şövqi Hüseynov, Nahidə Orucova, Ələkbər Əliyev, Əzizağa Əzizov, Əkbər Əlizadə, Nadir Xasiyev, aktyorlar Möylə Mirzəliyev, Əliməmməd Novruzov, Hüseyn Əlili, Şaban Cəfərov, Aydan Həsənova, Elməddin Dadaşov, Təranə Əliyeva və başqaları iştirak ediblər.

***S. FİDAN***
**XQ**

## Sağlamlıq

### Şirin-şəkər içkilər ürəkləri gəmirər

**Oksford universitetinin alimləri insult və infarkt riskini artıran içkilər üzrə elmi araşdırmanı yekunlaşdırıblar. Onlar yüksək şəkərli içkilərin ürək-damar xəstəlikləri riskini artırdığını sübut ediblər.**



Tədqiqat müddətində 100 min insanın qida vərdişləri təhlil edilib. Onların rasionunda 206 növ qida, 32 növ içki olub. Tədqiq olunan növlər şəkər, sərbəst və sərbəst olmayan şəkər və liflərə bölünüb. Bundan sonra 9 il ərzində müşahidə aparılıb.

Həmin müddətdə müşahidə aparılan 10 min insanda infarkt və insult baş verib. Xəstələrin qida rasionu analiz edilib və aydın olub ki, ümumi karbohidratların çox qəbulu heç də ürək-damar xəstəliklərinə səbəb olmur.

Sərbəst şəkərin qəbulu ürək-beyin damarlarına daha çox təsir edir. Bu isə qazlı içkilər, meyvə şirələri və südlü kokteyllərdə daha çoxdur.

Alimlər bu qənaətə gəliblər ki, sərbəst şəkərdən alınan hər 5 faiz enerji infarkt və insult riskini 10 faiz artırır.

***Z.HÜSEYNLİ***
**XQ**

BAŞ REDAKTOR
ƏFLATUN AMAŞOV

TELEFONLAR:
Reklam və elanlar: 493-82-21
Qəbul şöbəsi: 493-24-75
Məsul katib: 493-61-02
Texniki şöbə: 493-59-64
Mühasibatlıq: 498-85-29
E-mail: xalqqazeti@gmail.com
info@xalqqazeti.az
+994(51) 280-16-44

“Xalq qəzeti”nin kompüter mərkəzində yığılıb və səhifələnib, “Azərbaycan” nəşriyyatında çap olunub.

ÜNVANIMIZ:
AZ-1000, Bakı şəhəri, Bülbül prospekti, 30.
*Şəhadətnamə 022273*

İNDEKS 0282
TİRAJ 3917
SİFARİŞ 654
QİYMƏTİ 60 qəpik

Növbətçi redaktor
Səbuhi MƏMMƏDOV

Çapa imzalanmışdır
00:00